*Alfa ve Omeqa*

# 40 Dərsdə

# Müqəddəs Kitaba ümumi baxış



Rəcəb və Leyla Aydın

*Alfa ve Omeqa*

# 40 Dərsdə

# Müqəddəs Kitaba ümumi baxış



Rəcəb və Leyla Aydın

KITABI-KNIGI.COM

İstənilən cihaza öz dilinizdə yükləyin və oxuyun,
Bütün ailə üçün pulsuz elektron Kitablar.

KITABI-KNIGI.COM

© 2022 by Alpha and Omega
*alphaomegasilkroad@gmail.com*

© 2023 for the Azerbaijani edition.
Translated by permission. All rights reserved.

ISBN: 978-9952-8510-0-7

Illustrations for all pages, except those listed below, copyright © 2023 by Jim. (Şəkillər Cim tərəfindən çəkilib)
All rights reserved.
Illustrations by The Good Book Company for pages 63, 64, 120, 121, 187, 188, and 189, copyright © 2016 by Phil Crowter/The Good Book Company Ltd. Used by permission. All rights reserved.

Müqəddəs Kitab sitatları "MÜQƏDDƏS KİTAB (Əhdi-Ətiq və Əhdi-Cədid)" nəçrindən götürülmüşdür.
© Müqəddəs Kitab Şirkəti 2009

Bu kurs sizə Müqəddəs Kitab hekayəsi ilə tanış olmaqda kömək edəcək 40 dərsdən ibarətdir.

Hər dərsdə cavab verməyiniz üçün çoxlu suallar var. Hər sualdan sonra mötərizədə verilən rəqəm, dərsin sonundakı “Cavablar” hissəsində cavabın nömrəsini göstərir. Cavaba baxmamışdan əvvəl suala cavab verməyə çalışın!

Hər dərsdə Müqəddəs Kitabın müxtəlif ayələrinə istinadlar var. Əgər onlar **qalın** şriftlə yazılıbsa, onları tapıb oxumaq vacibdir. Qalın şriftlə yazılmayanlara vaxtınız varsa baxa bilərsiniz.

Bu gözəl hekayələri zövqlə öyrənməyiniz və başqaları ilə bölüşməyiniz üçün dua edirəm!

## 1-ci dərs:

# Müqəddəs Kitabın içindəki kitablar



Bu dərs üçün Müqəddəs Kitabın əvvəlindəki **mündəricata** baxmaq lazımdır.

## Giriş

- **Müqəddəs Kitab, kitablar toplusudur.** Müqəddəs Kitabın içində 66 kitab var: 39 kitab Əhdi-Ətiqdə və 27 kitab Əhdi-Cədiddədir. Onlar müxtəlif zamanlarda, müxtəlif müəlliflər tərəfindən və müxtəlif janrlarda (məsələn: tarix, poeziya, məktublar və s.) yazılmışdır.

  Müqəddəs Kitabın içində neçə kitab vardır? [1]

- **Müqəddəs Kitab 2 hissəyə bölünüb:** Əhdi-Ətiq (Köhnə Əhd) və Əhdi-Cədid (Yeni Əhd). Əhd, saziş və ya müqavilə mənasına gəlir. Əhdi-Ətiqdə Allah, məsələn, İbrahimlə, Nuhla, Sina dağında israillilərlə və Davudla müxtəlif müqavilələr (və ya əhdlər) bağladı. Lakin Əhdi-Cədiddə O, İsa Məsihin qanı ilə yeni saziş (və ya əhd) bağladı. Bu əhd, Əhdi-Ətiqin bütün vədlərini yerinə yetirdiyi üçün Əhdi-Ətiqin bütün əhdlərindən üstündür.

  Müqəddəs Kitab hansı hissələrdən ibarədtir? [2]

  "Əhd" nədir? [3]

- **Müqəddəs Kitabın hər iki hissəsi də Allahın bizə söylədiyi sözlərdir.** İsa Məsihin dövründə artıq Müqəddəs Kitab — Əhdi-Ətiq var idi. Yəhudilər onu "Müqəddəs Yazılar" adlandırdılar və sinaqoqlarda oxuyurdular. Onlar bunun Allah tərəfindən ilhamlandığına inanırdılar. Ancaq həvarilərin vəfatından sonra möminlər İsa Məsih haqqında yazılmış kitabları (Müjdələri) və həvarilərin yazdıqları məktubları topladılar. Hətta həvarilər hələ sağ ikən möminlər onların məktublarının da Allahdan ilhamlandığını başa düşürdülər (bax 2 Peter 3:15–16). Pavel Timoteyə yazır: "*Bütün Müqəddəs Yazılar Allahdan ilham almış və təlim, məzəmmət, islah, salehlik tərbiyəsi üçün faydalıdır*" (2 Timoteyə 3:16).

Müqəddəs Kitabın içindəki bütün kitablar nə üçün faydalıdır? [4]

# Əhdi-Ətiq

Əhdi-Ətiq, Allahın dünyanı və insanları yaratdığını və Özü üçün bir xalq seçdiyini nəql edir. Əhdi-Ətiqdə gözəl vədlər var ki, onlar yalnız Əhdi-Cədiddə yerinə yetirilirlər.

Əhdi-Ətiqdə müxtəlif növ kitablar var: qanun kitabları, tarix kitabları, hikmət kitabları və peyğəmbərlərin kitabları.

## Tövrat

İlk beş kitab “Tövrat” və ya “Musanın Beş Kitabı” adlanır.

Tövrat, dünyanın başlanğıcından Musanın vəfatına, Allahın xalqının vəd edilmiş torpaqları fəth etmək üzrə olduğu vaxta qədər olan hekayədir.

Tövrat başlıca olaraq bunları öyrədir:

1. Allah dünyanı yaratdı.
2. İnsanlar günah işlətdilər.
3. Allah bütün insanları məhv etmək üçün daşqın göndərdi, lakin Nuhu və ailəsini xilas etdi.
4. Allah, İbrahimi seçdi ki, onun nəslindən gələnlər, Allahın seçilmiş xalqı olsun.
5. Allah, Musa peyğəmbər vasitəsilə xalqını Misirdəki köləlikdən xilas etdi.
6. Allah Sina Dağında onlarla əhd bağladı: O, onların Allahı olacaq, onlar da Onun qanunlarına əməl edəcəklər.
7. Allahın xalqı öz itaətsizliyinə görə 40 il səhrada yaşamağa məcbur oldu. Bu 40 illik müddət başa çatandan sonra Allah onları vəd edilmiş torpaqların sərhədinə apardı.
8. Musa yeni nəslə Allahın qanununu öyrətdi.

Allah, İbrahimə gözəl vədlər verdi. Bunları Yaradılış 12:1–7-də oxumaq olar. Müqəddəs Kitabın hekayəsi, Allahın bu vədləri necə yerinə yetirməsi haqqındadır. Əhdi-Ətiqdə onlar yalnız qismən yerinə yetirilir.

Allah İbrahim üçün nə etdi? [5]

## İsrail xalqının tarixini nəql edən yazılar: Yeşuadan Esterə qədər

12 tarix kitabı var: bunlar vəd edilmiş torpaqda Allahın xalqının tarixidir. Bunlara həmçinin “Peyğəmbərlərin Yazıları 1-ci hissə” də deyilir.

Allah, xalqına hökmranlıq etmək üçün hökmdarlar və padşahlar verdi, lakin bu hökmdarların və padşahların əksəriyyəti Allaha itaət etməməyi seçdilər. Ən böyük padşahlar Davud və oğlu Süleyman idi. Onların hökmranlıqları dövründə, İbrahimə verilən bütün vədlər sanki yerinə yetmiş kimi görünürdü. Lakin sonra biz Allahın xalqının Allahdan üz döndərib başqa allahlara ibadət etdiyini görürük.

Nəhayət, Allah onları başqa ölkəyə qovdu. 70 ildən sonra Allahın xalqının bir hissəsi vəd edilmiş torpağa qayıtdı.

Ən böyük padşahlar kimlər idi? [6]

Allah nə üçün xalqını başqa bir ölkəyə sürgün etdi? [7]

## Hikmət kitabları

5 hikmət kitabı var: Əyyub, Zəbur, Süleymanın Məsəlləri, Vaiz və Nəğmələr Nəğməsi.

Bu kitablarda bizim üçün həyata dair müdrik təlimlər var. Onlar bizə müdrikliyi və necə uğurlu həyat yaşamağı öyrədirlər.

Zəbur Kitabı, Allaha ibadət etmək üçün yazılmış ilahilərdən və dualardan ibarətdir. Onlardan ibadətlərimizdə və dualarımızda istifadə edə bilərik!

Bu 5 kitab nəyi öyrədir? [8]

Məzmurlar nə üçün faydalıdır? [9]

## Peyğəmbərlərin kitabları

Əhdi-Ətiqin digər 17 kitabı peyğəmbərlərin kitablarıdır. Peyğəmbərlər Allahın elçiləri idilər.

Peyğəmbərlərin kitablarını anlamaq üçün tarix kitablarını bilmək lazımdır. Həmçinin, peyğəmbərlərin nə yazdıqlarını anlamaq üçün onların nə vaxt yazdıqlarını bilməliyik:

1. Peyğəmbərlərdən bəziləri İsrail padşahlarının dövründə yazmışlar. Onlar, Allahın xalqına xəbərdarlıq edirdilər ki, Allaha tərəf dönməsələr Allah onları cəzalandıracaq.

2. Peyğəmbərlərdən bəziləri öz kitablarını sürgündə ikən yazmışlar. Onlar, Allahın xalqına təsəlli verib deyirdilər ki, Allah onları əbədi olaraq rədd etməyib.

3. Peyğəmbərlərdən bəziləri sürgündən sonra vətənlərinə qayıdanda yazmışdılar. Allahın xalqına, rüsvayçılıqlarını aradan qaldıracağına dair Allahın vədini xatırladıb ruhlandırırdılar.

Allah, peyğəmbərlər vasitəsilə öz xalqına xəbərdarlıq etdi, təsəlli verdi və ruhlandırdı.

Peyğəmbərlərin kitablarını başa düşmək üçün nələri bilməlisiniz? [10]

Allahın peyğəmbərlər vasitəsilə etdiyi 3 şey nədir? [11]

# Əhdi-Cədid

Əhdi-Cədiddə, kainatın Yaradıcısı olan Allahın Özünün dünyamıza necə daxil olması və kamil insan olması haqqında oxuyuruq. İsa, Allahın vəd olunan Padşahı, xilas edən Məsihdir. Əhdi-Ətiqin bütün vədləri Əhdi-Cədiddə yerinə yetirilir.

Başqa sözlə desək, Müqəddəs Kitabda yalnız bir qəhrəman var: İsa Məsih.

İsa, bizi Allahdan ayıran günah probleminin həll yolu idi.

Müqəddəs Kitabın əsas qəhrəmanı kimdir? [12]

Əhdi-Cədiddə də müxtəlif növ kitablar var.

## Müjdələr və Həvarilərin İşləri

Əvvəlcə tarix kitabları var.

**Müjdələr:** İlk 4 kitab İsanın həyatından bəhs edir (bunlara Müjdələr və ya İncil deyilir). Həyatını nəql edən Müjdə kitablarını 4 nəfər qələmə aldı: **Matta, Mark, Luka** və **Yəhya**.

Sonra **Həvarilərin İşləri** var. Bu kitab Luka tərəfindən yazılmışdır. Bu, Allahın yeni ailəsi, yəni imanlılar cəmiyyəti haqqında bir hekayədir. Bu kitab, Məsih haqqında xoş xəbərin bir çox ölkələrə necə yayılmasından bəhs edir.

Əhdi-Cədiddə neçə tarix kitabı var? [13]

Həvarilərin İşləri Kitabını kim yazmışdır? [14]

## Məktublar

Həvarilərin İşləri Kitabından sonra 21 dənə məktub yer alır. Bunlar, xoş xəbəri öyrətmək, imanlılar cəmiyyətlərini ruhlandırmaq və səhvlərini düzəltmək üçün Peter, Yəhya, Paul və digər həvarilərin yazdıqları məktublardır.

Məktubları kimlər yazıb? [15]

## Vəhy

Müqəddəs Kitabın sonuncu kitabı Vəhydir. Bu kitabda Yəhya bizə gələcəyə dair görüntüsünü təsvir edir. İsa günaha, ölümə və şeytana qalib gələcək! Allah və xalqı əbədi olaraq cənnətdə birlikdə yaşayacaqlar! Bu, Allahın İbrahimə verdiyi vədlərin tam olaraq yerinə yetirilməsidir.

Hekayənin sonunda kimlər birlikdə yaşayacaq? [16]

## Praktiki tapşırıq

Əgər əvvəllər bunu etməmisinizsə, hər gün bir Müqəddəs Kitabdan bir parça (bir neçə ayə) oxuyun və özünüzə aşağıdakı sualları verin:

1. Burada Allah (Ata, Oğul, Müqəddəs Ruh) haqqında nə yazılıb?
2. Burada insanlar haqqında nə yazılıb?
3. Burada bizim üçün bir əmr, bir xəbərdarlıq və ya bir nümunə varmı?
4. Allah bu parçadan mənə nə öyrədir?
5. Bunu kiminlə paylaşa bilərəm?

Cavablarınızı bir dəftərə yazın.

## Cavablar

1 – 66.
2 – Əhdi-Ətiq və Əhdi-Cədiddən ibarətdir.
3 – Əhd, müqavilə deməkdir.
4 – Təlim, məzəmmət, islah və salehlik tərbiyəsi üçün.
5 – Ona gözəl vədləri verdi.
6 – Davud və oğlu Süleyman.
7 – Çünki Ondan üz döndərib başqa allahlara ibadət etdilər.
8 – Müdrikliyi — uğurlu necə yaşamaq olar.
9 – İbadətlərimizdə və dualarımızda onlardan istifadə edə bilərik!
10 – Peyğəmbərlərin bu kitabları nə vaxt yazdıqlarını bilməliyik.
11 – Allah peyğəmbərlər vasitəsilə xəbərdar etdi, təsəlli verdi və ruhlandırdı.
12 – İsa Məsih.
13 – 5.
14 – Luka.
15 – Peter, Yəhya, Paul və başqa həvarilər.
16 – Allah və Onun xalqı.

# 2-ci dərs:
# Başlanğıcda



**Yaradılış 1:1–2:15** oxuyun (Yaradılış 1-ci fəslinin 1-ci ayəsindən 2-ci fəslinin 15-ci ayəsinə qədər).

## Üçlük

**Yaradılış 1:1:** *Başlanğıcda Allah göyləri və yeri yaratdı.*

Allah göyləri və yeri yaratmazdan əvvəl nə var idi? [1]

**Yaradılış 1:3:** *Allah dedi: "Qoy işıq olsun". İşıq oldu.*

Allah dünyanı necə yaratdı? [2]

**Yəhya 1:1–3:** *Başlanğıcda Kəlam var idi. Kəlam Allahla birlikdə idi. Kəlam Allah idi...*

Başlanğıcda Kim Allahla birlikdə idi? [3]

**Yəhya 1:14–17**-ni oxuyun. "Kəlam" Kimdir? [4]

**Yaradılış 1:2:** *Yer quruluşsuz və boş idi. Dərin sular üzərində qaranlıq var idi. Allahın Ruhu suların üzərində dolaşırdı.*

Sular üzərində Kim dolaşırdı? [5]

Beləliklə, Müqəddəs Kitabın ilk fəslində biz Üçlüyü görürük: Allah, Oğul (Kəlam) və Müqəddəs Ruh.

**Yaradılış 1:26–27**-ni oxuyun. Allahın "surət*imiz*" və "bənzər*imiz*" deməsi çox maraqlıdır.

Bu bizə Allahın bir olduğunu, lakin başqa bir baxımdan bir olmadığını göstərir.

**Qanunun Təkrarı 6:4**-ü oxuyun. *Allah yeganə Rəbdir.*

Biz neçə allaha ibadət edirik? [6]

Biz üç allaha sitayiş etmirik, amma bilirik ki, bizim tək Allahımız üç şəxsdən ibarətdir. Tək Allahın bir-birini mükəmməl məhəbbətlə sevən üç şəxsi vardır.

Bu, romantik sevgi deyil, başqalarını məmnun edən daimi fədakar sevgidir.

Allah məhəbbətdir (1 Yəhya 4:8). Sevmək üçün başqa bir nəfərə ehtiyacın var. Sevəcək kimsə yoxdursa, sevmək mümkün deyil! Ata, Oğul və Müqəddəs Ruh hələ dünya yaranmazdan əvvəl bir-birlərini gözəl sevirdilər.

**Qanunun Təkrarı 6:5**-i oxuyun. Allah Öz xalqına nə etməyi əmr edir? [7]

Allah bizə sevməyi əmr edir!

O bizi yaratdı ki, biz birinci Onu və sonra bir-birimizi sevək.

Üçlüyü Əhdi-Ətiqdə və Əhdi-Cədiddə görürük. Misal üçün:

- Yaradılış Kitabının 18–19-cu fəsillərində: Allah həm göylərdə, həm də yerdədir. Əlbəttə, Ata Allah göylərdədir, amma eyni zamanda biz görürük ki, Allah yer üzündə İbrahimlə insanlar bir-biri ilə danışdıqları kimi danışır. Bu necə ola bilər? Allahın bir olduğu halda üçlü birlikdə olduğunu anladığımızda, bu, aydın olur.

- Yəhya 14:16–17-də İsa, Ata Allahdan şagirdlərinə Müqəddəs Ruhu göndərməsini xahiş edəcəyini deyir.

Müqəddəs Kitabda Üçlüyə ilk dəfə nə vaxt rast gəlirik? [8]

# İnsanlar Allahla münasibətləri olsun deyə yaradılmışlar

**Yaradılış 1:26–27**-ni oxuyun. Biz heyvanlardan nə ilə fərqlənirik? [9]

Allahın surətində yaradılmaq nə mənaya gəlir? [10]

Hansı insanların ləyaqəti və dəyəri var? Böyüklərin? Zənginlərin? Çox güclü olanların? Çox ağıllı olanların? [11]

Allahın yaratdığı insanları heç vaxt rədd etməməliyik. Bizim işimiz yaşından, cinsiyyətindən, görünüşündən, dilindən, irqindən, bacarığından, zənginliyindən və s.-dən asılı olmayaraq hər kəsi sevməkdir.

**Vəhy 4:11**-i oxuyun. Nə üçün Allaha ibadət etməliyik? [12]

Biz Allaha ibadət etmək üçün yaradılmışıq. Allaha ibadət etdiyimizdə, bu bizə və Allaha sevinc bəxş edir!

# Adəmin vəzifəsi



**Yaradılış 2:8–17**-ni oxuyun.

Allah, Adəm və Həvvanı Eden bağına yerləşdirdi. Amma Allah onlara bütün dünyanı verdi!

**Yaradılış 1:28**-i oxuyun. Allah onlara nə etməyi əmr etdi? [13]

Bu nə deməkdir? Allah onlardan nə etmələrini istədi? [14]

Adəm nə üçün heyvanlar üzərində hökmranlıq etməli idi? Heyvanlar necə faydalıdır? [15]

Allah onlara torpaq vermədi ki, onu qorusunlar, muzeydəki kimi heç nə dəyişdirməsinlər. Allah onlara torpağı verdi ki, ondan istifadə etsinlər, yeni şeylər kəşf etsinlər və dünyanı daha da gözəlləşdirsinlər.

Beləliklə, Adəm və Həvva, **Allahın hakimiyyəti altında dünyanı idarə etsinlər deyə** Allahın surətində yaradıldılar.

**Yaradılış 2:9**-u oxuyun. Allah nə üçün çoxlu ağaclar yaratdı? [16]

**Yaradılış 2:10–14**-ü oxuyun. Allah nə üçün onları bir çayın kənarına yerləşdirdi? [17]

Dəniz və çayın kənarında qum var idi. Allah bizə niyə qum verdi? [18]

**Yaradılış 2:12**-ni oxuyun. Allah, onların əldə etmələri üçün hansı yaxşı şeyləri yaratdı? [19]

Allah nə üçün bizə yer üzündə qiymətli daşlar və qızıl verdi? [20]

**Yaradılış 2:15**-i oxuyun. Adəm nə etməli idi? [21]

İş bizim üçün yaxşıdır! Bir adamın işsiz olması və bütün günü evdə oturması dəhşətdir.

Allah, insanların təkcə özlərini doyurmaq üçün yemək yetişdirmələrini deyil, həmçinin dünyadan zövq almağımızı da istəyirdi. Allahın yaratdığı dünyadan daha çox zövq almaq üçün nə edə bilərik? [22]

Dünyanı daha da gözəlləşdirmək üçün bir iş görəndə Allahı izzətləndiririk. Amma dünyanın gözəlliyinin azalmasına səbəb olan bir şey etdikdə Allaha hörmətsizlik edirik. Məsələn, yerə zibil atdıqda.

## Həyatınızda Allahı necə izzətləndirirsiniz?

# Cavablar

1 – Heç bir şey yox idi, ancaq Allah həmişə var idi.
2 – O dedi və oldu. Allah kainatı Öz kəlamı ilə yaratdı.
3 – Başlanğıcda Kəlam Allahla birlikdə idi.
4 – İsa.
5 – Allahın Ruhu.
6 – Bir Allaha!
7 – Rəbb Allahı bütün ürəkləri, bütün varlıqları və bütün düşüncələri ilə sevməyi.
8 – Yaradılış Kitabının birinci fəslində.
9 – Allahın surətində yaradılmağımızla fərqlənirik.
10 – Danışa, sevə, yaza, gələcəyə planlar qura və ən əhəmiyyətlisi Allahla ünsiyyət qura bilirik.
11 – Hər kəs, hətta kiçik uşaqlar və əlil olanlar da Allahın surətində yaradıldıqları üçün ləyaqətə və dəyərə malikdir.
12 – Çünki bizi O yaratdı.
13 – Törəyib çoxalmağı, yer üzünü bürüyüb ona sahib olmağı.
14 – Onlardan istədi ki,
- dünyanı uşaqlarla doldursunlar;
- meyvə ağacları, qoz ağacları, tərəvəzlər, düyü, buğda və s. becərsinlər;
- qəhvə, şokolad, ədviyyat və s. kəşf etsinlər.

15 – Süd və yumurta üçün;
paltarlar və yorğanlar üçün yun;
tarlalarda şum çəkmək;
əşyaları daşımaq üçün araba çəkmək;
səyahət üçün (xüsusilə atlar);
qurbanlar üçün (Yaradılış 4:4);
və sonra yemək üçün (9:3 — Allah Nuha ət yeyə biləcəyini söylədi).
16 – Dadlı meyvə vermək;
bizi yanacaq odunla təmin etmək;
evlər tikə bilmək;
mebel, musiqi alətləri hazırlaya bilmək üçün;
və xüsusən payızda, yarpaqların rəngləri dəyişəndə, onlara baxmaq xoş olsun deyə.
17 – İçmək və yuyunmaq üçün şirin suları olsun;
səyahət edə bilmələri üçün, çünki başlanğıcda yollar yox idi.
Eden bağı həbsxana deyil idi!
18 – Qumdan qalalar tikə bilməyimiz üçün;
şüşə hazırlamağımız üçün;
telefonlar və kompyuterlər üçün mikroçiplər hazırlaya bilək deyə.
19 – Qızıl, ətirli qatran, damarlı əqiq.
20 – İnsanlar özlərini bəzəsinlər deyə;
ərlər arvadlarına sevgi göstərə bilsinlər deyə;
pulumuz olsun deyə;
kompyuter və telefon düzəldə bilək deyə;
və bir gün məbədi bəzəyə bilsinlər deyə (bu məbəd, səmavi Məbədin şəkli olacaq: Vəhy 21:18–20).
21 – Bağı becərməli və ona qulluq etməli idi.
22 – Allah bundan xoşlanır ki,
- biz dadlı yeməklər hazırlayaq;
- ehtiyacı olan insanlara qonaqpərvərlik göstərə bilək deyə evimizi gözəl və rahat şəkildə təchiz edək;
- insanlar yeni şeylər icad etsinlər.

Allahın daha nələrdən xoşlandığını düşünürsünüz?

3-cü dərs:

# Günah



## Eden bağı

**Yaradılış 3:1–24**-ü oxuyun.

İlan cildinə girmiş şeytan Həvvaya nə dedi? (3:1, 4–5) [1]

O, Allahın doğru danışmadığını və Allahın səxavətli olmadığını irəli sürdü.

Şeytan həqiqəti söylədi? [2]

Adəm və Həvva onsuz da Allah kimi idilər, Onun surətində yaradılmışdılar! Və indi, Allahın surətində yaradılmamış bir məxluq onlarla danışır və onun dediyini etidkləri təqdirdə, Allah kimi olacaqlarını deyir!

Adəm və Həvva günah etməsəydi, nə baş verərdi? (3:24) [3]

Şeytanın bəhs etdiyi elm onlar üçün faydalı oldumu? Bu, onları xoşbəxt etdimi? 7-ci ayədə onlar nə öyrənəcəklər? [4]

Yaradılış 2:15-də Allah Adəmə hansı işi verdi? [5]

Beləliklə, ilan onlarla danışanda nə etməli idilər? [6]

Adəm və Həvva Allahı rədd etdilər. Allah onlara xoşbəxt olmaq üçün lazım olan hər şeyi verdi. Amma bu onlar üçün kifayət deyildi. Onlar, öz həyatlarını idarə edə bilmək üçün Allahın yerində olmaq istəyirdilər.

Bu, dəhşətlidir! Amma biz də eyni şeyi edirik. Biz Allaha itaətsizlik edib şeytana itaət edəndə Allahı incidirik.

Allahın bizə hökmranlıq etməsini istəmirik. İstədiyimiz kimi yaşamaq istəyirik. Allahı qəzəbləndiririk.

Biz Adəm və Həvvaya necə bənzəyirik? [7]

# Onların günahının 5 nəticəsi

## 1. Onlar utandılar.

**Yaradılış 3:7:** Adəmlə Həvva günah işlədən kimi çox pis bir iş gördüklərini başa düşdülər və buna görə utandılar. Onlar nə etdilər? [8]

Əvvəllər xoşbəxt idilər. İndi özlərindən utanırlar və özlərini sevmirlər.

## 2. Günah, onların bir-biri ilə olan münasibətlərini korladı

**Yaradılış 3:12:** Adəm nə edir? [9]

**Yaradılış 3:16:** Adəm və Həvva indi bir-biri ilə necə münasibət quracaqlar? [10]

Təəssüf ki, bu "ağalıq" qəddar və xudbin ola bilər. Ancaq Allahın ailə həyatı üçün planı belə deyil idi.

## 3. Allah yer üzünü lənətlədi

**Yaradılış 3:17–18:** Onların günahı torpaqdan gələn qidalarına necə təsir etdi? [11]

## 4. Günah əzab və ölüm gətirdi

**Yaradılış 3:16, 19:** İndi onların həyatı necə dəyişəcək? [12]

Amma Allah mərhəmətlidir, buna görə onlar dərhal ölməyəcəklər. Allahın insanları xilas etmək üçün bir planı var!

## 5. Günah, onların Allah ilə münasibətlərini korladı

**Yaradılış 3:8:** İndi onlar Allahla danışmaq istəyirlərmi? [13]

**Yaradılış 3:21:** Allah onları dərhal qovmadı. O, əvvəlcə nə etdi? [14]

Allah Özü insanların günahlarını götürmək və ayıblarını örtmək üçün onların yanına gedir. Allah ilə barışmaq həmişə Allahın sevgi dolu hərəkətləri ilə başlayır. Bunun üçün bir heyvanın öldürülməsinin vacib olduğuna diqqət yetirin. İnsanların Allahla ünsiyyətini bərpa etmək üçün bir canlının ölməsi lazım idi.

**Yaradılış 3:23:** Allah nə etdi? [15]

Onlar artıq Allahla yaşaya bilməzdilər. Günah bizi əbədi olaraq Allahdan ayırır.

Günahın 5 nəticəsi nədir? [16]

1.

2.

3.

4.

5.

Günah hər şeyi korlayır. Günah cəhənnəmə aparır. Lakin bu, hekayənin sonu deyil!

# Birinci və ikinci Adəm

Bu hekayənin ortasında Allah bizə ümid verir.

**Yaradılış 3:15:** Həvvanın nəsli nə edəcək? [17]

Bu nə deməkdir? [18]

Əhdi-Ətiqin qalan hissəsi bu şəxsin kəşf etməyimizə zəmin yaradır və Əhdi-Cədid bu ikinci Adəmin kim olduğunu açıqlayır.

**1. 1 Korinflilərə 15:21–22:** *Ölüm bir insan vasitəsilə gəldiyinə görə ölülərin dirilməsi də bir İnsan vasitəsilə gəlir. Adəmdə hamı öldüyü kimi Məsihdə də hamı həyata qovuşacaq.*

İkinci Adəm kimdir? [19]

Ölüm bizə necə gəldi? [20]

Biz ne ilə yaşayırıq? [21]

Əgər biz günah işlədiriksə, ölməyə layiqik. İsa, əbədi yaşaya bilməyimiz üçün bizim yerimizə ölməyə gəldi (**Yəhya 3:16**)!

## Çağırış

Öz günahımızı görmək çox çətindir. Hər gün Allahdan bizə günahlarımızı göstərməsini istəmək vacibdir. Bu yolla biz Allahı razı salan bir həyat yaşaya bilərik.

**Zəbur 139:23–24:** *Ey Allah, məni yoxla, qəlbimi öyrən, Sən məni sınaqdan keçirib bütün fikirlərimi bil. Gör qəlbimdə pisliyə yol verirəmmi? Əbədi yolda mənə rəhbər ol!*

## *Əlavə:* Bəs şeytan və şər haradan gəldi?

**Yaradılış 1:31:** Allah yaratdığı hər şey haqqında nə dedi? [22]

**Kolosselilərə 1:15–16:** Bu ayələr İsadan bəhs edir. O nə yaratdı? [23]

Ruhları kim yaratdı? [24]

Biz Allahın yaratdıqlarından deyil, Yaradandan qorxmalıyıq!

Şeytan (iblisin adı) və şər haradan gəldi? Allah həmişə Ona qulaq asıb itaət etmək və ya etməmək seçimini verir. O bizə azad iradə verməsəydi, biz robotlar kimi olardıq. Azad seçim olmadan biz Allahı sevə bilməzdik.

**Vəhy 12:7–9:** Mikael kimdir? (Yəhuda 1:9) [25]

Əjdaha kimdir? [26]

Başlanğıcda nə baş verdi? [27]

Bundan sonra Allaha qarşı üsyan edən mələklər cin oldular. Amma Allaha üsyan etməyən mələklər hələ də Allaha və Allahın xalqına xidmət edirlər (İbranilərə 1:14).

İsa ölüb diriləndə Şeytanı məğlub etdi. Lakin Şeytan hələ də Allaha və Onun xalqına qarşı mübarizə aparır. Allah bizə möhkəm dayanmağımız üçün lazım olan bütün zirehləri verdi (Efeslilərə 6:10–18). Allahın zirehini geyinməli və bizə verdiyi silahlardan hər gün istifadə etməliyik!

**Vəhy 20:10:** İsa geri dönəndə, Şeytanla nə edəcək? [28]

Və sonra heç bir günah olmayacaq! Yeni Yerin üzərində əbədi olaraq İsa ilə yaşayacağıq və şər artıq olmayacaq!

**Bu gün nəyə görə tövbə etməlisiniz?**

# Cavablar

1 – **3:1:** *Doğrudanmı, Allah sizə "bağda olan heç bir ağacın bəhrələrindən yeməyin" deyib?*
**3:4–5:** *Yox, əsla ölməzsiniz... Allah bilir ki, o meyvələrdən yediyiniz gün gözləriniz açılacaq və xeyirlə şəri bilərək Allah kimi olacaqsınız.*
2 – Xeyr!
3 – Onlar həyat ağacından yeməyə davam edərdilər və əbədiyyən yaşayardılar.
4 – Çılpaq olduqlarını biləcəklər. Bu bilik onlar üçün yaxşı deyil idi. Onlar Allaha daha az bənzəməyə başladılar və bu səbəbdən sevincdən məhrum oldular.
5 – Allah onu Eden bağına yerləşdirdi ki, oranı becərsin və bağa qulluq etsin.
6 – Bağa qulluq etmək üçün ilanı öldürməli ya da heç olmasa bağdan qovmalı idilər.
7 – Allaha itaətsizlik edib Şeytana itaət edəndə Allahı incidirik. Allahın bizə hökmranlıq etməsini istəmirik. Öz bildiyimiz kimi yaşamaq istəyirik.
8 – Çılpaq olduqlarını bildilər. Sonra özlərinə əncir yarpaqlarından örtüklər tikdilər.
9 – O, Allahı (*mənə verdiyin qadını*) və Həvvanı günahlandırır: "bu mənim günahım deyil, onun günahıdır!"
10 – İndi ailəni idarə etmək üçün bir-biri ilə mübarizə aparacaqlar. Qadın, ərinin ona ağalıq etməsinə hiddətlənəcək.
11 – Artıq işləri ağır olacaq. Meyvə və tərəvəz yetişdirmək çox çətin olacaq.
12 – Həyatlatı çox əziyyətli olacaq. Onlar öləcəklər. Əbədi yaşamaqdan məhrum qalacaqlar.
13 – Xeyr, onlar Allahdan gizlənirlər.
14 – Günahsız bir heyvanı qurban etməklə onların ayıbını örtdü.
15 – Allah, Adəm və Həvvanı Eden bağından qovdu.
16 – 1) Onlar utandılar;
2) günah onların bir-biri ilə olan münasibətlərini pozdu;
3) Allah yer üzünü lənətlədi;
4) günah əzab və ölüm gətirdi;
5) günah onların Allahla münasibətlərini pozdu.
17 – Şeytanın başını əzəcək.
18 – Allah, Şeytana qalib gələn birini göndərəcək!
19 – İsa Məsihdir.
20 – Adəm vasitəsilə.
21 – İsa ilə olan münasibətimizlə.
22 – "Çox yaxşıdır" dedi.
23 – Görünən və görünməyən hər şeyi.
24 – İsa.
25 – Baş mələk.
26 – İblis (Şeytan).
27 – Göydə döyüş oldu. Mikael və onun mələkləri, Şeytan və onun mələkləri ilə döyüşdü. Sonra Şeytan və onun mələkləri göydən atıldılar.
28 – O, Şeytanı cəhənnəmə göndərəcək.

## 4-cü dərs:

# Allah şəri mühakimə edir



Bazardan alınan çürük meyvələrlə nə edirik? [1]

Biz çürümüş meyvələr kimiyik! Daxilimizin çürük olduğu kənardan görünmür. Kənardan gözəl görünürük. Amma Allah bütün insanların qüsurlu olduğunu görür. Allah bizim ürəklərimizi bilir!

**Yaradılış 6:5—22**-ni oxuyun.

**Yaradılış 1:31:** Allah yaratdığı hər şey haqqında nə düşündü? [2]

**Yaradılış 6:6:** Bəs indi Allah nə hiss etdi? [3]

Bütün insanlar pis olmuşdu. Allah nə etməli idi? [4]

O bunu necə edəcək? [5]

Amma Allah yalnız müqəddəs deyil, O həm də sevən Allahdır. Allah dünyanı mühakimə etməlidir, lakin bütün insanların ölməsini istəmir.

**Yaradılış 3:15:** Allah kimi göndərəcəyini vəd etdi? [6]

İnsanlar, Allahın Şeytanı məğlub etmək planının bir hissəsi idi!

**Yaradılış 6:8:** Allah kimi xilas etməyə qərar verdi? [7]

**Yaradılış 6:14:** Allah Nuha nə etməyi əmr etdi? [8]

**Yaradılış 6:18–19:** Kim xilas olacaq? [9]

Bu, kiçik bir qayığa deyil, 3 000 adamın minə biləcəyi bir okean gəmisinə bənzəyir!

Nuh insanlara daşqından bəhs edəndə, insanlar ona gülər, dəli olduğunu deyərlərdi!

Bəs axırda onlara nə oldu? [10]

Bu, günah problemimizi həll etdimi? [11]

**Yaradılış 8:20–22**-ni oxuyun.

Nuh daşqından sonra nə etdi? [12]

Allah nə söz verdi? [13]

**Yaradılış 9:12–16**-nı oxuyun. Allahın bağladığı bu əhdin əlaməti nədir? [14]

Allahın Nuha verdiyi gözəl vəd, bizə Allahın BÜTÜN bəşəriyyət üçün lütfünü göstərir. Bu, sadəcə bir neçə xüsusi insan üçün deyil. Allah heç kimin həlak olmasını istəmir. Allahın sevgisi hər kəs üçündür!

Göy üzündə nə vaxt bir göy qurşağı görsək, Allahın bütün yaratdıqlarına olan sevgi dolu sədaqətini xatırlaya bilərik.

# Əhdi-Cədid

Allah bu gün insanlar haqqında nə deyir?

**Romalılara 3:10–18** [15]

**Romalılara 3:23** [16]

Bütün insanlar günahkardır, hamı yolundan azıb. Allah, bütün çürük meyvələri atmaq üçün dünyanı mühakimə etməyə gələcək.

Mattanın 25-ci fəslində İsa Məsih (yəni Bəşər Oğlu) belə dedi:

**Matta 25:31–32:** *Bəşər Oğlu bütün mələklərlə birlikdə izzəti ilə gələn zaman Öz izzətli taxtına oturacaq. Bütün millətlər Onun önündə toplaşacaq, O da qoyunları keçilərdən ayıran bir çoban kimi onları bir-birindən ayıracaq.*

**Matta 25:41**-də İsa, yaxşı olmayan insanlara nə deyəcək? [17]

İsa mühakimə edəndə, bu, ən qorxunc şey olacaq!

Əhdi-Ətiqdə Nuh, Allahın hökmündən necə xilas oldu? [18]

Nuhun gəmisi İsaya bənzəyir. İsa, Allahın hökmündən qaçmağımız üçün yeganə yoldur. Biz çox günahkarıq. Allah isə müqəddəsdir. Bizim xilas olmağımızın tək yolu, bu gəmiyə minməkdir! İsaya, Onun ölümünün bizim günahlarımızın cəzasının əvəzini ödədiyinə inanmalıyıq.

İnsanlar Nuha güldükləri kimi, bu gün də bizə gülürlər.

Allah bizə hansı tapşırığı verdi? [19]

## Allah bu gün bu dərsdə sizə nə dedi?

## Bu dərsi paylaşa biləcəyiniz kimsə varmı?

## Tövbə etməli olduğunuz bir günah varmı?

## Ev tapşırığı

Növbəti dərsdən əvvəl Yaradılış 6–9-cu fəsilləri və 11:1–9-u oxuyun.

# Cavablar

1 – Zibilə atırıq!
2 – Hər şey çox yaxşı idi. Allah xoşbəxt idi.
3 – Allah peşman oldu və ürəyində kədərlənirdi.
4 – Onları məhv etməli idi (çürük meyvə kimi atmalı idi)!
5 – Böyük bir daşqın ilə.
6 – Şeytana qalib gələn bir adamı.
7 – Allah Nuhu seçdi.
8 – Gəmi tikməyi.
9 – Nuhla ailəsi və bütün heyvanlardan bir cüt.
10 – Hamısı öldü.
11 – Xeyr.
12 – Nuh, Allaha minnətdarlıq qurbanı gətirdi.
13 – Allah, yer üzünü bir daha su ilə məhv etməyəcəyinə dair söz verdi.
14 – Göy qurşağı!
15 – Bir nəfər də olsun saleh adam yoxdur.
16 – Bütün insanlar günah işlətmişlər.
17 – Onlara deyəcək ki, cəhənnəmə gedəcəksiniz.
18 – Nuh Allaha itaət etdi və gəmiyə girdi.
19 – O bizə tapşırdı ki, insanları Allah qarşısında tövbə edib gəmiyə minməyə (yəni İsanı qəbul etməyə) çağıraq (baxmayaraq ki, belə çağırış onlara qəribə görünə bilər).

## 5-ci dərs:

# İbrahimə verilən vəd



Nuhun övladları Allahı unutmuşdular. Onlar başqa allahlara ibadət edirdilər.

Üstündən yüz illər keçdi və Allah İbrahimi seçdi ki, Allahın xalqının atası olsun.

## Üç vəd

**Yaradılış 12:1—7**-ni oxuyun.

Allah İbrahimə hansı üç şeyi vəd etdi? [1]

### 1. Xeyir-dua

**Yaradılış 3:16—19:** Allahın yaratdığı dünyaya nə oldu? [2]

**Yaradılış 12:3:** Allah indi nə edəcəyini deyir? [3]

Əldə edə biləcəyimiz ən böyük xeyir-dua nədir? [4]

### 2. Xalq

**Yaradılış 21:5:** Arvadı Sara İshaqı dünyaya gətirəndə İbrahim neçə yaşında idi? [5]

Onun dünyaya gəlməsi möcüzə idi! Allah, İshaqın xüsusi oğul olduğunu göstərmək istəyirdi.

**Yaradılış 12:2:** İshaq nə üçün xüsusi idi? [6]

## Əlavə



Allah, İbrahimin həqiqətən də Allaha etibar etdiyini görmək üçün İbrahimə qorxunc bir sınaq verdi. **Yaradılış 22:1–18**-i oxuyun.

Allah, İbrahimə yeganə oğlunu qurban verməsini əmr etdi. Bu əmr İbrahimi çaşdırdı, çünki Allah ona məhz bu oğlun vasitəsilə xeyir-dua verəcəyini demişdi! Bununla belə, İbrahim Allahın nə olur-olsun vədlərini yerinə yetirəcəyinə inanaraq Allaha itaət etdi.

İbrahim, İshaqı qurban vermək üzrə idi ki, Rəbbin mələyi onu saxladı. Allah onun əvəzinə qurban kəsə biləcəyi bir qoç göndərdi.

Burada biz Allahın insanı qurban etmək əvəzinə heyvanın qurban edilməsini təmin etdiyini görürük. Lakin Əhdi-Cədiddə biz Allahın Öz Oğlunu bizim əvəzimizə ölməsi üçün qurban verməsini görəcəyik. Bizi əvəz edə biləcək heç bir heyvan, bütün günahlarımızı kəffarə edə biləcək başqa heç bir qurban yoxdur.

Allahın planına görə, İbrahimin İshaq vasitəsilə həm fiziki, həm də ruhani övladları olacaq idi.

**Qalatiyalılara 3:7**-ni oxuyun. Əhdi-Cədiddə İbrahimin övladları kimlərdir? [7]

Cənnətdə Allahın xalqına kimlər əlavə olunacaq? **(Vəhy 7:9)** [8]

### 3. Torpaq

**Yaradılış 17:8:** Allah İbrahimin nəslinə hansı torpağı verəcək? [9]




Lakin İbrahim heç vaxt Kənan torpağına sahib olmadı. 23-cü fəsildə arvadı Saranı dəfn etmək üçün ilk dəfə orada bir torpaq sahəsi aldı. Yalnız üstündən 500 il keçəndən sonra Allah bu torpağı Öz xalqına verdi.

**İbranilərə 11:8–10:** İbrahim hansı mənada kamil bir iman nümunəsidir? [10]

Amma...

**Yaradılış 46:6:** Üç nəsildən sonra İbrahimin nəsli yaşamaq üçün hara gedir? [11]

**Çıxış 2:23:** Allahın xalqının başına nə gəldi? [12]

İnsanların bir xilaskara ehtiyacları var ki, onun vasitəsilə Allahın vədlərini qəbul etsinlər.

Müqəddəs Kitabın qalan hissəsi, Allahın Öz vədlərini necə yerinə yetirdiyindən bəhs edir:

Əhdi-Ətiqdə Allahın İbrahimə verdiyi vədləri necə yerinə yetirməyə başladığını oxuyuruq.

Əhdi-Cədiddə İsa Məsihin bu vədləri yerinə yetirəcəyini oxuyuruq.

Lakin bunlar yalnız İsanın ikinci gəlişində, İsa bizi Öz yanına cənnətə götürəndə tam yerinə yetiriləcək.

Vəd edilmiş torpaq cənnətin bir surəti idi (Vəhy 22:1–5).

Allah İbrahimə hansı üç şeyi vəd etdi? [13]

Onlar nə vaxt tam yerinə yetiriləcək? [14]

## Ev tapşırığı

Allahın İbrahimə verdiyi vədləri necə yerinə yetirməyə başladığını görmək üçün Yaradılış Kitabını oxuyun.

### Bu dərsdə Allah haqqında nə öyrəndik?

## Cavablar

1 – Xeyir-dua, xalq və torpaq.
2 – Dünya lənətləndi.
3 – İbrahim vasitəsilə bütün insanlara xeyir-dua verəcəyini deyir.
4 – Allah ilə münasibət!
5 – 100 yaşında idi.
6 – Çünki Allah onun nəslindən böyük bir millət törədəcək idi və bu millət, Allahın xalqı olacaq idi.
7 – İsaya iman edənlər.
8 – Hər qəbilədən, hər tayfadan, hər millətdən və hər dildən olan insanlar!
9 – Bütün Kənan torpağını.
10 – O, Allahın Öz vədlərini vaxtında yerinə yetirəcəyinə inanırdı. Və o bilirdi ki, göylərdə yer üzündəkindən daha yaxşı bir evi olacaq.
11 – Misirə.
12 – Onlar qul oldular.
13 – Xeyir-dua, xalq və torpaq.
14 – İsa təkrar gəlib bizi Öz yanına cənnətə götürəndə.

## 6-cı dərs:

# Allahın vədləri İbrahimin nəslinə keçir



## İshaq

**Yaradılış 25:19—34**-ü oxuyun.

İshaq kiminlə evləndi (ayə 20)? [1]

İshaq və Rivqa nə cəhətdən İbrahim və Saraya bənzəyirdi (ayə 21)? [2]

Rivqa hamilə olanda Allah ona bətnində daşıdığı əkizlər haqqında nə dedi (ayə 23)? [3]

## İmanlıların seçilməsi

Bu, Müqəddəs Kitabda böyük bir mövzudur: Allah, hələ dünyanı yaratmamışdan əvvəl imanlıları Öz ruhani övladları olaraq təyin etmişdir!

**Efeslilərə 1:3—8**-i oxuyun.

Allah bizi övladları olaraq nə vaxt seçdi (ayə 4)? [4]

Allah bunu niyə etdi (ayə 6)? [5]

Allah bizə başqa nə verdi (ayə 7)? [6]

"Müqəddəs Kitaba ümumi baxış" kursumuzu keçdikcə bu mövzu haqqında daha çox şey öyrənəcəyik.

Bəzi insanların seçilib, bəzilərinin seçilməməsi bizə ədalətli gəlməyə bilər.

Bu Allahın "lütfü" (ayə 7) adlanır. Heç kim çağırılmağa və satın alınmağa layiq deyil. Allahın bizi seçdiyinə görə heyrətlənməli və minnətdar olmalıyıq!

Allah bizə nə qədər lütf verir (ayə 8)? [7]

# Yaqub

Yaqub böyüyəndə Lea və Rəhilə adlı iki bacı ilə evləndi. O, nə yaxşı ər, nə də yaxşı ata nümunəsi idi! Bu hekayədən yaxşı bir film çəkmək olardı!

**Yaradılış 29:30–30:24**-ü oxuyun.

Yaqub hansı arvadını sevirdi? [8]

Hansı arvad ona 4 oğul verdi (29:32–35)? [9]

Rəhilə bacısını qısqananda nə etdi (30:3)? [10]

Bilhanın neçə oğlu var idi (30:5–8)? [11]

Bəs onda Lea nə etdi (30:9)? [12]

Zilpanın neçə oğlu var idi (30:10–13)? [13]

Lea Yaqubla yenidən necə yatdı (30:14–16)? [14]

İnsanlar elə bilirdilər ki, mandraklarla bir adamı özünə aşiq etmək olar.

Sonra Leanın başına nə gəldi (30:17–21)? [15]

Nəhayət, Rəhilənin başına nə gəldi (30:22–24)? [16]

**Yaradılış 35:16–19**-u oxuyun.

Rəhiləyə nə oldu? [17]

Axırda Yaqubun cəmi neçə oğlu oldu? Siz ya rəqəmləri bir-birinin üstünı gələrək hesablaya bilərsiniz, ya da **Yaradılış 42:13**-də oxuya bilərsiniz. [18]

**Yaradılış 32:28**-i oxuyun. Allah Yaqubun adını necə dəyişdirdi? [19]

Yaqubun oğullarının nəsli kim oldu? **Yaradılış 49:28**-i oxuyun. [20]

## *Bilmək vacibdir*



Allahın **İbrahimə** verdiyi vədlər Yaradılış 26:3-də **İshaqa** və Yaradılış 28:13–14-də **Yaquba** təkrarlanır. Beləliklə, İbrahim, İshaq və Yaqub Allahın xalqı olan İsrail xalqının əcdadları olmuşlar.

İbrahimin Həcərdən olan oğlu **İsmail** və İshaqın digər oğlu **Esav** da millətlərin ataları oldular. Ancaq Rəbb Allah, bəşəriyyəti xilas etmək üçün İsraili seçdi.

Beləliklə, Əhdi-Ətiqin qalan hissəsində Allahın xalqı **"İsrail"** adlanır və Yaqubun 12 oğlunun adını daşıyan 12 qəbilədən ibarətdir.

# Yusif və Allahın böyüyən xalqı

Allah xalqını böyüdür! Ancaq sonra bir fəlakət baş verir. Hansı fəlakət? **Yaradılış 41:56**-nı oxuyun. [21]

Allah Öz xalqını aclıqdan necə qorudu? **Yaradılış 45:7**-də Yusifin nə dediyini oxuyun. [22]

Yaradılış kitabının 37–47-ci fəsilləri, qardaşlarının Yusifi köləliyə satmaları və Yusifin fironun dövründə Misirdə ən önəmli şəxsə çevrilməsi haqqında maraqlı hekayəni nəql edir. Bu hekayə, bizə günahkar və dəhşətli işlər gördükdə belə Allahın Öz xalqını necə qoruduğunu, qayğısını çəkdiyini göstərir. Bu hekayə həmçinin Allahın Misir xalqına mərhəmətini göstərir ki, onlar da qıtlıqdan qurtulur.

**Yaradılış 15:13**-ü oxuyun. Allahın xalqı Misirdə neçə il yaşadı? [23]

**Yaradılış 46:27**-ni oxuyun. Yusifin dövründə Allahın xalqından neçə nəfər Misirə getdi? [24]

**Saylar 1:45–46**-nı oxuyun. 400 ildən sonra onların sayı nə qədər oldu? [25]

Artıq vəd edilmiş torpaqda yaşamaq üçün kifayət qədər insan var!

**Çıxış 1:8–13**-ü oxuyun. Çıxış Kitabının başlanğıcında Allahın xalqının üzləşdiyi iki problem nədir? [26]

**Yaradılış 50:24:** *Yusif qardaşlarına dedi: "Mən ölürəm, amma Allah mütləq sizə nəzər salacaq. O sizi bu ölkədən İbrahimə, İshaqa və Yaquba and içdiyi torpağa aparacaq"*.

Yusif bilirdi ki, Allah Öz xalqı üçün planını həyata keçirməkdə davam edir.

Bir çox insanlara xilas gətirmək üçün Allahın planında sizin də bir rolunuz var! İsa haqqında və yalnız İsanın bizə verə biləcəyi əbədi həyat haqqında eşitmək fürsəti hər kəsə verilməlidir.

**Siz Allaha necə xidmət edirsiniz?**

## Cavablar

1 – Rivqa ilə.
2 – Onların hər ikisinin uzun müddət övladı olmamışdı və axırda doğulan övladları bir möcüzə, Allahın bir hədiyyəsi idilər.
3 – Allah ona dedi ki, onun bətnində daşıdığı əkizlər iki fərqli millətin əcdadı olacaq və böyük olan kiçik qardaşına xidmət edəcək.
4 – Dünya yaranmazdan əvvəl!
5 – Allahın "lütfünün izzətini mədh edək" deyə. Belə ki, Allah izzətlənsin!
6 – Onun qanı ilə satınalma, bizim təqsirlərimizin bağışlanması.
7 – Külli miqdarda, bol-bol bəxş edir!
8 – Rəhiləni.
9 – Lea.
10 – Rəhilə üçün övlad dünyaya gətirsin deyə qulluqçusu Bilhanı ona verdi.
11 – 2.
12 – Lea üçün daha çox övlad dünyaya gətirsin deyə qulluqçsu Zilpanı Yaquba verdi.
13 – 2.
14 – O, əri ilə yatmaq haqqını mandraklarla "satın aldı"!
15 – İki oğul və bir qız daha doğdu.
16 – Yusifi doğdu.
17 – İkinci oğlunu doğdu və sonra öldü.
18 – 12.
19 – İsrail.
20 – İsrailin 12 qəbiləsi.
21 – Qıtlıq.
22 – Allah, Yusifi ailəsindən öncə Misirə göndərdi ki, onlar ölməsinlər.
23 – 400 il.
24 – 70 nəfər.
25 – Təxminən 2 milyon insan: 603 000 kişi, üstəgəl qadınlar və uşaqlar.
26 – Allahın onlara vəd etmədiyi ölkədə, Misirdə idilər və kölə idilər.

## *Əlavə:* Yaradılış Kitabına dair yekun suallar

1. Başlanğıcda Kim Allahla birlikdə idi? [1]

2. Adəm və Həvvanın günahı nəticəsində nə baş verdi? [2]

3. Nuhun dövründə kimlər Allahın hökmündən qurtula bildilər? [3]

4. Allahın İbrahimə vəd etdiyi üç şey nədir və bunlar nə vaxt tam yerinə yetiriləcək? [4]

5. Saradan olan oğlunun adı nə idi? [5]

6. Arvadı Sara İshaqı dünyaya gətirəndə İbrahim neçə yaşında idi? [6]

7. İshaqın neçə övladı var idi? [7]

8. Onların adları nə idi? [8]

9. Allah hansı oğlu vasitəsilə vədini yerinə yetirməyə davam etdi? [9]

10. Allah Yaquba hansı yeni adı verdi? [10]

11. Yaqubun neçə oğlu var idi? [11]

12. Müqəddəs Kitabda onlar kim oldular? [12]

13. Yaqubun sevimli oğlu kim idi? [13]

14. Allah onları aclıqdan ölməkdən xilas etmək üçün nə etdi? [14]

15. Allahın xalqı Misirdə neçə il yaşadı? [15]

16. Allahın xalqından neçə nəfəri Misirə getdi? [16]

17. Sayları nə qədər oldu? [17]

18. Yaradılış Kitabının sonunda və Çıxış Kitabının əvvəlində Allahın xalqı hansı iki problemlə üzləşir? [18]

## Cavablar

1 – Kəlam və Müqəddəs Ruh.
2 – Onlar utandılar;
günah onların bir-biri ilə münasibətlərini pozdu;
Allah torpağı lənətlədi;
günah əzab və ölüm gətirdi;
günah onların Allahla münasibətlərini pozdu.
3 – Gəmiyə daxil olanlar.
4 – Xeyir-dua, xalq, torpaq. Bu vədlər İsa təkrar gəlib bizi Öz yanına cənnətə götürəndə tam yerinə yetiriləcək.
5 – İshaq.
6 – 100 yaşında.
7 – İki oğul.
8 – Yaqub və Esav.
9 – Yaqub vasitəsilə.
10 – İsrail.
11 – 12 oğlu.
12 – İsrailin 12 qəbiləsinin əcdadları.
13 – Yusif.
14 – Allah onları Misirə göndərdi.
15 – 400 il.
16 – 70 nəfər.
17 – 2 milyon nəfər: 603 000 kişi, üstəgəl qadınlar və uşaqlar. Artıq vəd edilmiş torpaqda yaşamaq üçün kifayət qədər çox idilər.
18 – Allahın onlara vəd etmədiyi ölkədə, Misirdə idilər və kölə idilər.

## 7-ci dərs:

# Xilaskar Allah



Çıxış Kitabının başlanğıcında İbrahimin nəsli çox pis vəziyyətdə idi.

**Çıxış 1:8—11, 15—16** və **22**-ni oxuyun.

İsrail xalqı üçün vəziyyət necə idi? [1]

Bununla belə, bu dəhşətli əzab dövründə Allah, Öz xalqını xilas etməyi planlaşdırırdı.

İsrailli bir ər-arvad, fironun əmrinə tabe olub öz oğlunu öldürmək istəmədi və körpəni bir səbətdə gizlətdi.

**Çıxış 2:1—10**-u oxuyun.

Bu körpəni kim tapdı (ayə 5)? [2]

Onun adı nə idi (ayə 10)? [3]

O vaxta qədər Allahın xalqı Allah haqqında çox az şey bilirdi. İndi Allahın Öz xarakterini xalqına necə açıqladığını görürük.

**Çıxış 2:23—3:17**-ni oxuyun.

Bu parçada biz Allah haqqında 4 həqiqəti öyrənirik:

## 1. Allah, özlərini xilas edə bilməyəcəklərini dərk edənləri xilas edir

Allahın xalqı haradadır? [4]

Onların problemi nədir? [5]

Onların kimə ehtiyacı var idi? [6]

Onlar nə etdilər (Çıxış 2:23)? [7]

Onları bilirdilər ki, onları yalnız Allahın xilas edə bilər.

## Əhdi-Cədid

**Yəhya 8:34–36:** *İsa onlara dedi: "Doğrusunu, doğrusunu sizə deyirəm: günah edən hər kəs günahın köləsidir. Kölə evdə daim qalmaz, oğulsa daim qalar. Buna görə də əgər Oğul sizi azad etsə, həqiqətən də, azad olacaqsınız..."*

Günahın köləsi kimdir? [8]

Əbədi olaraq günahın köləsi olmağa məcburuqmu? [9]

Bizi kim azad edə bilər? [10]

Allahın Oğlu kimdir? [11]

Bütün insanlar israillilərə nədə bənzəyirlər? [12]

Biz nə etməliyik? [13]

# 2. Allah, xalqını xilas etmək üçün bir şəxs yetişdirir

**Həvarilərin İşləri 7:20–22:** Allah Musanı xalqını xilas etmək üçün necə hazırladı? [14]

**Həvarilərin İşləri 7:23–29:** Musa kamil idimi? [15]

Allah Musanı Allahın xalqının xilaskarı olmağa hazırladı. Musa fironun sarayında böyüdüyü üçün fironla danışmağı bacarırdı. Başqa heç bir israilli bunu edə bilməzdi. Lakin Musa Misirə qayıtmaq istəmirdi. Fironun xalqı buraxmayacağını bilirdi.

**Çıxış 3:12:** Allah ona nə dedi? [16]

Allahın köməyi ilə o, Allahın xalqını xilas edə bilər!

Musa nə üçün Allahın xalqını xilas etmək üçün düzgün insan idi? [17]

Lakin Musa kamil bir xilaskar deyildi. Şeytana qalib gələcək olan Xilaskar o deyil idi (Yaradılış 3:15).

Nə üçün Musa, Allahın xalqını xilas etməyə uyğun deyil idi? [18]

Bir gün Allah, Öz xalqını əbədi olaraq xilas etmək üçün kamil Xilaskarını göndərəcək.

### Əhdi-Cədid

**Matta 1:20–23:** Məryəm oğlunun hansı iki adı olacaq və bunların mənası nədir? [19]

İsa bizi əbədi olaraq xilas edə biləcək yeganə Şəxs olacaq idi!

O, Allahın Oğludur — Allah bizimlədir!

## 3. Allah Öz xalqını xilas etmək üçün endi

**Çıxış 3:8:** Allah nə etdi? [20]

### Əhdi-Cədid

**Yəhya 1:14:** Kəlam (İsa) nə etdi? [21]

Musanın dövründə olduğu kimi, Əhdi-Cədiddə də Allah bizi xilas etmək üçün yer üzünə gəldi.

Digər dinlər öyrədir ki, Allahın bizi eşitməsi və cənnətə qəbul etməsi üçün biz nəsə etməliyik. Həqiqətdə isə biz Allaha çata bilmərik. Biz heç vaxt kifayət qədər yaxşı ola bilmərik.

**1. Yəhya 4:10:** *Məhəbbət bizim Allahı sevməyimizlə bağlı deyil, amma bundan ibarətdir: O bizi sevdi və Öz Oğlunu bizim günahlarımıza görə kəffarə qurbanı olaraq göndərdi.*

Allah nə etdi? [22]

Allahın Oğlu bizim üçün ölməyə, bizi günahlarımızdan xilas etməyə gəldi!

Məsihçi imanı ilə digər dinlər arasında fərq nədir? [23]

## 4. Allah yeganə həqiqi Allahdır

Allahın xalqı Allah haqqında az şey bilirdi. Firon güclü görünürdü və Musa ondan qorxurdu. Allah istəyirdi ki, Musa fironun Allahla müqayisədə heç bir şey olduğunu bilsin!

Kimin daha çox gücü var: bir ölkənin hökmdarının, yoxsa Allahın? [24]

**Çıxış 3:14:** Allahın adı nədir? [25]

Müqəddəs Kitabda Allahın adı bizə Onun kim olduğunu öyrədir.

İbrani dilində "Mənəm" Yahvedir. Bu, Allahın adıdır. Lakin yəhudilər Yahve adını tələffüz etmək istəmirdilər. Buna görə də Əhdi-Ətiqdə Yahve "RƏBB" kimi tərcümə olunur.

Bu ad bizə, Allahın başqa insanlar tərəfindən ibadət edilən digər allahlar kimi olmadığını bildirir. O, yaşayan Allahdır! O, əbədidir! O, hər şeyə qadirdir! O, İbrahimə verdiyi vədi unutmadı! O, sadiq Allahdır!

Bu ad bizə Allah haqqında nə öyrədir? [26]

## Əhdi-Cədid

Yəhya Müjdəsində İsa Özü barədə 7 dəfə "Mənəm" deyir (bunu İncilin yunanca orijinalında bəzi tərcümələrindən daha aydın görürük).

Məsələn, Yəhya 14:6-da: *Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz.*

İsa bununla nə demək istəyir? [27]

Bizi günahlarımızdan və iblisdən yalnız İsa xilas edə bilər!

## Bu dərsdə Allah haqqında nə öyrəndik?

# Ev tapşırığı

Çıxış Kitabının 1–14-cü fəsillərində Allahın israilliləri necə xilas etdiyini oxuyuruq. Bu həftə bu fəsilləri oxuyun və Allah haqqında öyrəndiklərinizi yazın.

# Cavablar

1 – Onlar zülmə məruz qalan kölə idilər və firon onların yeni doğulmuş oğullarının öldürülməsini əmr etdi.
2 – Fironun qızı.
3 – Musa.
4 – Misirdə.
5 – Onlar kölədirlər.
6 – Onları xilas edəcək bir şəxsə ehtiyacı var idi, çünki onlar özlərini xilas edə bilməzdilər.
7 – Onlara kömək etməsi üçün Allaha yalvardılar.
8 – Günah işlədən hər kəs, yəni bütün insanlar!
9 – Xeyr!
10 – Oğul.
11 – İsa!
12 – Bütün insanlar kölədir! Biz günahın köləsiyik. İsraillilər kimi özümüzü xilas edə bilmərik.
13 – İsraillilər kimi biz də günahımızdan xilas olmaq üçün Allaha yalvarmalıyıq.
14 – Musa Misir dilində və ibrani dilində danışırdı. Yaxşı təhsil almışdı. Sarayda böyüdüyü üçün fironla necə danışacağını bilirdi.
15 – Xeyr!
16 – Allah onunla birlikdə olacağına söz verdi.
17 – Fironla danışmağı bacaran yeganə israilli o idi.
18 – Firondan qorxduğu və bir misirlini öldürdüyü üçün.
19 – “İsa” — bu adın mənası, “Allah xilas edir”. Çünki İsa, Öz xalqını günahlarından xilas edəcəkdir. “İmmanuel” — bu adın mənası “Allah bizimlədir”.
20 – O, israilliləri xilas etmək üçün yer üzünə gəldi.
21 – Kəlam bəşər oldu və aramızda yaşadı.
22 – O, Öz Oğlunu bizim günahlarımıza görə kəffarə qurbanı olaraq göndərdi.
23 – Digər dinlər öyrədir ki, Allahın bizi eşitməsi və cənnətə qəbul etməsi üçün biz nəsə etməliyiq. Müqəddəs Kitab öyrədir ki, etdiyimiz yaxşı əməllər Allaha yaxınlaşmağa layiq olmağımız üçün heç vaxt kifayət olmayacaq. Lakin Allahın Oğlu çarmıxda ölüb bizi günahlarımızdan xilas etmək üçün gəldi!
24 – Allahın!
25 – Mənəm.
26 – Allah başqa allahlar kimi deyil. O, yaşayan Allahdır! O, əbədidir! O, hər şeyə qadirdir! O, İbrahimə verdiyi vədi unutmadı! O, sadiq Allahdır!
27 – İsa istəyirdi ki, insanlar Onun Allahın Oğlu olduğunu dərk etsinlər. Və yalnız Onun vasitəsilə insanlar Ata Allahı (“Yahve”) tanıya bilərlər!

8-ci dərs:

# Allah qurban vasitəsilə xilas edir



Bu dərsdə Allahın güclü Hakim və Xilaskar olduğunu öyrənirik. Biz onun heyrətamiz xilasını xatırlamalı və qeyd etməliyik!

## Cəza (Çıxış 5–11-ci fəsillər)

Firon, Allaha qarşı döyüşür. Allah, fironla xalqının cəzalandırılacağı haqda dəfələrlə xəbərdarlıq etmişdir.

Allahın firona və xalqına verdiyi cəzalar nələr idi? (Çıxış 7–11) [1]

Bu bizə Allah haqqında nə öyrədir (7:17)? [2]

O, güclüdür: firondan daha güclüdür (və Şeytandan daha güclüdür!)

Lakin firon yenə də Allaha itaətsizlik edir.

Allahın misirlilərə verdiyi son cəza nə idi? [3]

İsraillilər də günah işlətmişdilər. İlk oğlunun ölümü sadəcə misirlilər üçün deyil, israillilər daxil edilməklə Allaha itaətsizlik edən hər kəs üçün idi.

Bu dəhşətli cəzanın nəticəsində firon israilliləri buraxdı. Beləliklə, bu cəza Allahın xalqı üçün xilas yolu oldu.

Müqəddəs Kitabda hökm və xilas həmişə birlikdə olur. Bu bizə Allah haqqında nə öyrədir? [4]

# Qurtuluş

**Çıxış 12:1–30**-u oxuyun.

## Qan

Allah, israilliləri Öz cəzasından qorudu. Cəza, hər ilk doğulan oğlan uşağının ölməsi idi.

Ailələrində bunun baş verməməsi üçün onlar nə etməlidirlər? [5]

Allah qanı görəndə nə edəcək (ayə 13)? [6]

Beləliklə, quzunun qanı ilk doğulan oğulu ölümdən qoruyurdu. Hər ailədə bir oğul əvəzinə quzu öldü.

## Əhdi-Cədid

1 500 ildən sonra Yəhya, İsa haqqında nə dedi? (Yəhya 1:29) [7]

Bu nə deməkdir? [8]

## Azuqə

**Çıxış 12:8:** İsraillilər ondan başqa nə etməlidirlər? [9]

Allah Öz xalqını nəinki qorudu, həm də yedizdirdi. Quzu onlar üçün yemək oldu, bu da onları taqətə gətirdi, yeriməyə güc verdi. Ertəsi gün onları uzun və çətin bir yol gözləyirdi!

Allah Öz xalqını bu qurtuluş gecəsində yedizdirməklə kifayətlənmədi, həm də növbəti 40 il səhrada yaşadıqları müddətdə qidalandırmaqda davam etdi.

**Çıxış 16:31–35**-i oxuyun. İsraillilər 40 il ərzində hər gün nə yedilər? [10]

Allah, səyahətləri boyu onların bütün ehtiyaclarını təmin etdi.

## Əhdi-Cədid

**Yəhya 6:35**-də İsa nə dedi? [11]

Bu nə deməkdir? [12]

Çörəklə nə edirik (**Yəhya 6:51**)? [13]

Bu nə deməkdir? [14]

İsa bizi Allahın cəzalandırmasından xilas etmək üçün öldü. Bundan əlavə, O, əbədi həyata nail olmağımız və səmavi vətənimizə getməyimiz üçün bütün ehtiyaclarımızı təmin edir.

# Allahın nə etdiyini xatırla!



## Bayram!

Pasxa Bayramı nə üçün hər il bu vaxt qeyd olunur (Çıxış 12:14, 25–27)? [15]

## Əhdi-Cədid

Köləlikdən və ölümdən xilas olmağımızı necə qeyd edirik (1 Korinflilərə 11:23–26)? [16]

Çörək və şərab nəyi təmsil edir? [17]

İsanın ölümünü nə üçün xatırlamalıyıq? [18]

## İsanın bizim üçün etdiklərini heç vaxt unutmamaq üçün nə etməliyik?

## Bu, ən gözəl xəbərdir! Bu haqda kimə danışacaqsınız?

# Cavablar

1 – Suyun qana çevrilməsi; qurbağalar; ağcaqanadlar; milçəklər; mal-qaranın məhvi; çibanlar; dolu; çəyirtkələr; qaranlıq; ölüm.
2 – Allah Rəbdir.
3 – Allah, hər misirli ailənin ilk oğlunu öldürdü.
4 – O, həm Hakim, həm də Xilaskardır.
5 – Onlar quzunu qurban gətirməli və qanını evdəki qapıların hər iki yan taxtasına və üst dirəyinə sürtməli idilər.
6 – Allah qanı görəndə, yan keçəcək və onları məhv etməyəcək.
7 – *Dünyanın günahını aradan qaldıran Allah Quzusu budur!*
8 – İsa bizim yerimizə öləcək. Onun qanı bizi ölümdən qoruyacaq.
9 – Quzunu bişirib ətini yeməli və çörəyi də bişirib yeməli idilər.
10 – Manna.
11 – *Həyat çörəyi Mənəm. Mənim yanıma gələn heç vaxt acmaz, Mənə iman edən heç vaxt susamaz.*
12 – Allah ilə münasibətdə olmaq arzumuzu yalnız İsa yerinə yetirə bilər.
13 – Onu yeyirik!
14 – Biz İsa ilə münasibət qurmalıyıq. İsanın bizimlə danışmasına və bizi dəyişdirməsinə imkan verməliyik. Hər gün Allahın Kəlamını oxumalı, ayələr üzərində düşünməli və dua etməliyik.
15 – Allahın Öz xalqını Misirdəki köləlikdən necə xilas etdiyini və quzunun qanının onları ölümdən necə xilas etdiyini xatırlamaq üçün.
16 – Birlikdə çörəyi yeyib kasadan içməklə.
17 – İsanın bədənini və qanını.
18 – Çünki İsa ona görə öldü ki, Allah günahlarımızı bağışlasın və Onunla birlikdə bizə əbədi həyat bəxş etsin!

## 9-cu dərs:

# Dənizi keçmək



**Çıxış 14:1–15:2**-ni oxuyun.

Firon nəhayət israilliləri buraxdı. Ancaq onlar gedəndən sonra firon birdən fikrini dəyişdi və əsgərləri ilə onların arxasınca düşdü.

İsraillilər fironun ordusunu görəndə nə hiss etdilər? [1]

İsraillilər nə üçün misirlilərdən qaça bilmirdilər? [2]

Qorxunc vəziyyət idi!

İsraillilər qurtulmaq üçün nə etməli idilər (14:22)? [3]

Allah neçə israillini xilas etdi? [4]

Neçə Misir əsgəri öldü (14:28)? [5]

## Əhdi-Cədid

Bizim düşmənimiz kimdir (1 Peter 5:8)? [6]

İmanlı olmadan əvvəl biz kim idik? (Yəhya 8:34) [7]

İnsanlar özlərini günahdan və Şeytandan xilas edə bilərmi? [8]

İsraillilər kimi, bütün insanlar ümidsiz vəziyyətdədirlər. Musa, israilliləri azadlığa qovuşdurmaq üçün önlərində yeriyərək onları dənizdən keçirdi. İsraillilər dənizdən keçərkən sanki ölümə doğru getdiklərini hiss etdilər. Bu, qorxulu idi, amma azadlığa aparan yeganə yol bu idi.

Eyni şəkildə İsa da bizi əbədi həyata aparmaq üçün ölümdən keçdi! O, bizim günahlarımız üçün birdəfəlik qurban kimi çarmıxda öldü. Sonra dirildi və bizim üçün əbədi həyata aparan yolu hazırladığını göstərdi. O, önümüzdə getdi və indi, biz dənizdən keçərkən, həmçinin önümüzdə gedir! Yer üzündəki həyatımız başa çatanda, İsa bizi əbədi Vəd edilmiş Diyara aparacaq! Biz də dənizdən keçən israillilər kimiyik: İsanın ardınca getməyi qərara alanda, özümüz üçün ölməliyik. Biz özümüz üçün ölməli və İsanın həyatımızın Rəbbi olmasına yol verməliyik. Həqiqi azadlığa aparan yeganə yol budur!

Özümüz üçün ölmək nə deməkdir? Nə cür işlərdən əl çəkməliyik? Nə cür işləri etməyə başlamalıyıq?

**İbranilərə 2:14–15:** *Bu səbəbdən bu övladlar tərkibcə qan və ətdən yarandıqlarına görə İsa Özü də onların insan təbiətinə şərik oldu ki, ölüm üzərində hakimiyyət sahibi olanı, yəni iblisi Öz ölümü vasitəsilə təsirsiz hala gətirsin* ***və ölüm qorxusuna görə ömürləri boyu əsarətdə olanların hamısını azad etsin.***

İsa ölümü vasitəsilə nəyə nail oldu? [9]

**Yəhya 14:1–3:** *Qoy ürəyiniz təlaşa düşməsin. Allaha iman edin, Mənə də iman edin. Atamın evində çoxlu məskən var. Əgər olmasaydı, sizə deyərdim ki, sizin üçün yer hazırlamağa gedirəm? Gedib sizin üçün yer hazırlayandan sonra* ***yenə gəlib sizi Öz yanıma götürəcəyəm*** **ki, Mənim olduğum yerdə siz də olasınız.**

İsa bizi hara götürəcək? [10]

**1 Saloniklilərə 4:16–17:** *Rəbb Özü əmrini səsləndirməklə, baş mələyin sədası və Allahın şeypuru ilə göydən enəcək. Əvvəlcə Məsihdə olaraq ölənlər diriləcək. Ondan sonra sağ qalan bizlər Rəbbi havada qarşılamaq üçün onlarla birgə buludlar içində götürülüb-aparılacaq və beləcə daim Rəblə olacağıq.*

İsa bizi Öz yanına nə vaxt götürəcək? [11]

## *Əlavə fikir:* Vəftiz

**Romalılara 6:4:** *Deməli, vəftiz olunub Onun ölümü ilə birləşməklə biz də Onunla birgə dəfn olunduq; belə ki Atanın izzəti ilə Məsih ölülər arasından dirildiyi kimi biz də həmin cür yeni həyat sürək.*

Vəftiz nəyin təsvridir? [12]

Bu, israillilərin dənizdən keçməsinə bənzəyir.

# Biz xilas olduqdan sonra nə etməliyik?

**Çıxış 14:31—15:1:** İsraillilərin dənizi keçərkən etdikləri üç şey nədir? [13]

Eyni şəkildə, İsa bizi xilas edəndə biz nə etməliyik? [14]

- Allahdan qorxmaq necə bir şeydir? [15]
- Allaha və İsaya güvənmək necə bir şeydir? [16]
- Allaha həmd etmək necə bir şeydir? [17]

Həmdlərimiz həm Allaha, həm də bizə sevinc bəxş edir! Hər gün, məsələn, şam yeməyindən əvvəl Allaha həmd etmək yaxşı bir adətdir.

Musanın Allahın xalqını dənizdən keçirmə hekayəsi, İsanın bizim üçün etdiklərini necə təsvir edir? [18]

## Allah bu gün sizə nə öyrətdi?

## Bu dərsi kiminlə paylaşa bilərsiniz?

# Cavablar

1 – Onlar qorxdular!
2 – Bir tərəfdə dəniz, digər tərəfdə isə fironla əsgərləri olduğu üçün qaça bilmirdilər. Lakin onlar onsuz da yavaş getməyə məcbur idilər, çünki onların uşaqları, yaşlıları və çoxlu əşyaları var idi.
3 – Allahın onları xilas etməsi üçün dənizdən keçməli idilər.
4 – Hamısını!
5 – Hamısı!
6 – İsrail övladlarının düşməni firon olduğu kimi, bizim düşmənimiz Şeytandır.
7 – İsrail övladları fironun kölələri olduqları kimi, biz də günahın köləsi idik.
8 – Xeyr! İsraillilər özlərini xilas edə bilmədikləri kimi, biz də özümüzü xilas edə bilmərik.
9 – Şeytanın gücünü məhv etdi və bizi azad etdi. Eyni şəkildə Allah, fironun qüvvətini darmadağın etdi və xalqını azad etdi!
10 – Atasının evinə. Orada İsa ilə birlikdə olmaq, Vəd edilmiş torpaqdan daha çox gözəl olacaq!
11 – Göylərdən təkrar gələndə və vəfat etmiş imanlıları dirildəndə.
12 – Biz suya batırılanda, İsa ilə birlikdə ölürük, sudan çıxanda, İsa ilə birlikdə yeni həyata dirilirik.
13 – Onlar Allahdan qorxurdular;
Allaha və qulu Musaya bel bağlayırdılar;
Allaha həmd edirdilər.
14 – Allahdan qorxmalıyıq;
Allaha və qulu İsaya güvənməliyik;
Allahı izzətləndirməliyik.
15 – Biz Allahdan qorxanda, günah işlətmirik. Allah bizi hər an görür: biz qeybət edəndə, şikayət edəndə, pis davrananda, telefonda pis şeylərə baxanda və s. bizi görür.
16 – Allaha və İsaya güvənən adam heç nəyə görə narahat olmur. Məsələn, Rəbb bizi konkret bir yerdə yaşayıb İsanın nuru olmağa çağırırsa, orada yaşamaq istəməsək də Ona etibar etməliyik. O, bizim qayğımıza qalacaq!
17 – Allaha sözlərimizlə həmd edirik və ya ilahilər oxuyuruq!
18 – Musa, israilliləri azadlığa çıxartmaq üçün dənizdən (ölümdən) keçdi. Eyni şəkildə, İsa bizi əbədi həyata aparmaq və günahdan, ölümdən və Şeytandan azad etmək üçün ölümdən keçdi!

## 10-cu dərs:

# Qurbanlar



Dünyanın başlanğıcından bəri insanlar, Allaha qurbanlar gətirərək ibadət etmişlər. Məsələn, Qabil və Habil (Yaradılış 4-cü fəsil).

İnsanlar həmişə Allahın xeyir-duasını axtarırdılar. Özlərini Allahın qəzəbindən qorumaq istəyirdilər. Bu gün bir çox mədəniyyətlərdə bənzər adətlər var. İnsanlar, Allahın qəzəbini dayandırmaq üçün bir canlının ölmesinin vacib olduğunu başa düşdülər.

Nə üçün insanlar həmişə Allaha qurbanlar təqdim etmişlər? İnsanlar ən çox nə istəyirlər? [1]

Allah yalnız Musanın dövründə Öz xalqına Ona necə düzgün ibadət edəcəklərini izah etdi.

Allaha ibadət etdikləri vaxt bir heyvanı kəsib qurbangahda yandırmalı idilər. Bu yolla onlar iki həqiqəti anlamalı idilər:

1. **Günah cəzaya layiqdir və bu cəza ölümdür.** Allah ilə münasibətimizi bərpa etmək üçün bir canlının ölməsi lazımdır.

   İsraillilər hər gün günah işlədirdilər və buna görə də kahinlər hər gün bir heyvan qurban gətirməli idilər.

2. **İnsanlara bir əvəzedici lazımdır.** İnsanların əvəzinə heyvan ölürdü. Günah işlədən heyvan deyil, insanlardır. İnsanların olməməsi üçün onların yerlərinə başqa bir canlı ölməli idi.

İnsanlar qurban gətirərkən hansı iki həqiqəti başa düşməli idilər? [2]

## Levililər Kitabı

Levililər Kitabında 5 fərqli qurban növü izah edilir. Allah, qurbanlar vasitəsilə Öz xalqına Onunla necə düzgün münasibət qura biləcəklərini öyrətmək istəyirdi.

Levililər 1-ci fəsil — Yandırma qurbanı.

Levililər 2-ci fəsil — Taxıl təqdimi.

Levililər 3-cü fəsil — Ünsiyyət qurbanı.

Levililər 4-cü fəsil — Günah qurbanı

Levililər 5-ci fəsil — Təqsir qurbanı.

Biz yandırma qurbanını və ünsiyyət qurbanını nəzərdən keçirəcəyik.

# Levililər 1-ci fəsil — Yandırma qurbanı

Kahinlər hər səhər və axşam yandırma qurbanı təqdim etməli idilər. Qurbanlıq heyvanı tamamilə yandırmalı idilər ki, heç kəs onun ətini yeməsin. Bu qurban bizə onu öyrədir ki, Allah, bütün həyatımızı Ona həsr etməyə layiqdir.

Bu haqda Əhdi-Cədiddə də oxuyuruq:

**Romalılara 12:1:** *Beləliklə, ey qardaşlar, Allahın mərhəməti xatirinə sizə yalvarıram ki, bədənlərinizi diri, müqəddəs və Allahı razı salan bir qurban olaraq Ona təqdim edin; bu sizin ağılla etdiyiniz ibadətdir.*

Biz özümüzü və bütün həyatımızı tamamilə Allaha həsr etməliyik!

Yandırma qurbanı insanlara nəyi xatırladır? [3]

Əhdi-Cədiddə hansı ayə bizə bunu xatırladır? [4]

# Levililər 3-cü fəsil — Ünsiyyət qurbanı

Kahinlər, yandırma qurbanı istisna olmaqla, hər qurbanın bir hissəsini yeyə bilərdilər.

Digər israillilər yalnız ünsiyyət qurbanından yeyə bilərdilər. İnsanlar bu qurbanın ətini Allahın hüzurunda yeyərdilər. Bu, insanlara onu göstərirdi ki, qurban vasitəsilə Allahla ünsiyyət qura bilərlər.

Əhdi-Cədiddə, Allahın xalqının birlikdə yığışıb çörək yeməsi və kasadan içməsi, Allah ilə ünsiyyət qura biləcəklərini göstərir. Çünki çörək İsanın bədəninin, şərab isə qanının rəmzidir.

Belə ki, İsanın ölməsi, onların günahlarının cəzasını ödəyən qurban idi.

Ünsiyyət qurbanı insanlara nəyi xatırladır? [5]

Əhdi-Cədiddə Allahın xalqı bunu xatırlamaq üçün nə edir? [6]

# Heyvan qurbanları kifayətdirmi?

**İbranilərə 10:1–10**-nu oxuyun.

Heyvanları qurban gətirmənin bizi günahlarımızdan təmizləmək üçün kifayət olmadığını haradan bilirik (ayə 1–2)? [7]

Qurbanlar hansı baxımdan faydalı idi (ayə 3)? [8]

İsa nə üçün bu dünyada doğuldu (ayə 10)? [9]

Əhdi-Ətiqi oxuyanda İsanın bizim üçün nə etdiyini başa düşürük. Allah ilə münasibətimizi bərpa etmək üçün qurbana ehtiyacımız var. Heyvan qurbanları kifayət deyildir. Yalnız İsanın qurbanı bizi həqiqətən günahlarımızdan təmizləyə və Allahla münasibətimizi bərpa edə bilər!

Əhdi-Ətiq, İsanın Əhdi-Cədiddə nə etdiyini anlamağımıza necə kömək edir? [10]

Günah etdiyimiz zaman nə etməliyik? [11]

Günah bizim Allahla münasibətimizi pozur. Tövbə, Allahla münasibətimizi bərpa edir. Ancaq heç vaxt unutmayın ki, Allah müqəddəsdir və günahdan əl çəkməyən itaətsiz insanlar Allahın qəzəbinə məruz qalır.

### Dostlarınızla qurbanlar haqqında danışarkən bir dəfəlik qurban haqqında necə izah edə bilərsiniz?

## Cavablar

1 – İnsanlar Allahın xeyir-duasını əldə etmək və qəzəbindən qurtulmaq istəyirlər.
2 – Günahın cəzası ölümdür və insanların əvəzinə öləcək bir canlıya ehtiyacları vardır.
3 – Onu xatırladır ki, Allah, bütün həyatımızı Ona həsr etməyə layiqdir.
4 – **Romalılara 12:1:** Beləliklə, ey qardaşlar, Allahın mərhəməti xatirinə sizə yalvarıram ki, bədənlərinizi diri, müqəddəs və Allahı razı salan bir qurban olaraq Ona təqdim edin.
5 – Qurbanlar vasitəsilə biz Allahla ünsiyyət qura bilərik.
6 – Birlikdə çörəyi yeyib kasadan içir.
7 – Ondan bilirik ki, İnsanlar tez-tez qurbanlar kəsməyə məcbur idilər.
8 – İnsanlara, Allahla münasibətlərini pozmuş günahlarını xatırladırdılar.
9 – İsa, günahlarımız üçün birdəfəlik qurban olmaq üçün doğuldu.
10 – Əhdi-Ətiq, Allahla münasibətimizi bərpa etmək üçün qurbana ehtiyacımız olduğunu izah edir. Heyvan qurbanları kifayət deyildir. Yalnız İsanın verdiyi qurban bizi həqiqətən günahlarımızdan təmizləyə və Allahla münasibətimizi bərpa edə bilər!
11 – Tövbə etməliyik.

# 11-ci dərs:

# On Əmr



**Çıxış 20:1—17**-ni oxuyun.

## Bu qanunlara niyə riayət etməliyik?

İnsanlar düşünürlər ki, Allahın əmrlərinə tabe olsalar, cənnətə gedəcəklər. Onlar elə bilirlər ki, Allah kifayət qədər yaxşı olanları qəbul edir. Müqəddəs Kitab bunu öyrətmir! Biz heç vaxt Allah qədər yaxşı ola bilmərik! Müqəddəs Kitabın öyrətdiyi heyrətamiz həqiqət ondan ibarətdir ki, günahkar olmağımıza baxmayaraq Allah bizi xilas edir! Biz itaət edirik, çünki Allah bizi artıq xilas etdi və Öz xalqı etdi.

Biz Allahın xilasını qəbul etdikdə, Ona itaət etməkdən həzz alırıq.

Allah, israilliləri köləlikdən xilas edəndə, onların yeni sahibi və padşahı oldu. Ondan sonra Allah onlara gözəl qanunlar verdi. İsraillilərin itaəti, onları xilas edən yeni Padşahlarına məxsus olduqlarını göstərirdi.

Əhdi-Cədiddə həmçinin Allah bizi Şeytanın zəncirlərindən xilas edəndə, İsa bizim yeni Sahibimiz və Padşahımız oldu. Buna görə biz İsaya xidmət və itaət etməliyik! Bizim itaətimiz, bizi artıq xilas etmiş yeni Padşahımıza məxsus olduğumuzu göstərir.

Bu qanunlara nə üçün tabe olmalıyıq? [1]

## Əhdi-Cədidin qanunu

Bir gün İsadan qanunda hansı əmrin ən vacib olduğunu soruşdular. İsa bu suala necə cavab verdi?

**Matta 22:37—40**-ı oxuyun.

Ən vacib iki qanun hansılardır? [2]

Əlbəttə ki, biz bunu təkbaşına edə bilmərik. Amma Allah, belə yaşamağı həqiqətən öyrənə bilməyimiz üçün bizə Öz Müqəddəs Ruhunu verir!

Allahın qanunları bizə Allahın xarakterini göstərir. Biz Allahın surətində yaradıldıq (Yaradılış 1:26). O, bizim xarakterimizin getdikcə daha çox Onun xarakterinə bənzəməsini istəyir.

Gəlin Allahın Öz xalqına verdiyi ən mühüm on qanun haqqında düşünək.

# İlk 4 əmr

İlk 4 əmr bizə Allahla necə münasibət qurmağı öyrədir.

**1.** Birinci əmr nədir (Çıxış 20:3)? [3]

Allah necə bir ər kimidir? [4]

Bu əmr aşağıdakı əmrlə sıx əlaqəlidir:

**2.** İkinci əmr nədir (Çıxış 20:4)? [5]

Büt nədir? [6]

Dünyada Allahın surətində yarananlar kimlərdir (Yaradılış 1:26)? [7]

Ehtiram etdiyimiz insanlara ibadət etmək o qədər asandır!

İnsan əliylə yaradılmış bütlərə sitayiş etmək niyə qadağandır? [8]

İsa təsvir olunsa belə, biz heç vaxt şəkillərə və ya heykəllərə dua etməməliyik.

Bizim üçün Allahdan daha əziz olan hər bir şey bütə çevrilə bilər.

İnsanlar hansı növ bütlərə sitayiş edirlər? [9]

**3.** Üçüncü əmr nədir (Çıxış 20:7)? [10]

Sözlərimiz və əməllərimiz bir olmalıdır. Biz ikiüzlü olmamalıyıq. Əgər biz Allahı sevdiyimizi deyiriksə, Ona itaət etməliyik.

**Romalılara 2:24:** *Sizin üzünüzdən millətlər arasında Allahın adına küfr edilir.*

Allahın adını necə ləkələyirik? [11]

Allahın adını necə ucalda bilərik? [12]

**Luka 6:46:** *Nə üçün Məni "ya Rəbb, ya Rəbb" deyə çağırırsınız, amma dediklərimə əməl etmirsiniz?*

Bu insanların problemi nədir? [13]

İnsanlar bundan başqa Allahın adından necə sui-istifadə edirlər? [14]

**4.** Dördüncü əmr nədir (Çıxış 20:8)? [15]

Hər həftə bir gün işimizə ara verib Allahla vaxt keçirməli və imanlılarla görüşməliyik. Bu günə “Şabat” və ya Şənbə deyilir. Bu, istirahət günüdür. Allahla və insanlarla olan münasibətimiz işdən daha vacibdir!

Şabat, öz gücümüzə deyil, Allaha güvəndiyimizi göstərir. Hər gün, həftənin yeddi günü işləyiriksə, bu onu göstərir ki, bütün ehtiyaclarımızı qarşılamaq üçün öz gücümüzə güvənirik. Hər həftə bir gün istirahət ediriksə, bu onu göstərir ki, ehtiyaclarımızı ödəmək üçün Allaha güvənirik.

Şabat gününü xatırlayıb müqəddəs tutmağımız, Allahı sevməkdə bizə necə kömək edir? [16]

# 5–10-cu əmrlər

Aşağıdakı 6 əmr bizə bir-birimizlə necə münasibət qurmağı öyrədir.

Əgər biz əvvəlcə Allahı sevməsək (ilk 4 əmr), bir-birimizi sevə bilməyəcəyik (son 6 əmr).

Digər 6 əmri yerinə yetirmək üçün nə etməliyik? [17]

Növbəti altı əmr hansılardır (ayə 12–17)? [18]

Bu əmrləri yerinə yetirmək asandırmı?

**Matta 5:27–28:** “*Zina etmə*” *deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki, qadına şəhvətlə baxan hər adam artıq ürəyində onunla zina etmiş olur.*

İsa bu ayələrdə bizim düşüncələrimiz haqqında nə dedi? [19]

Allah sadəcə zahirən yaxşı olmağımızı istəmir, daxilən də yaxşı olmağımızı istəyir! Həm zahirən, həm də daxilən itaət etməyimiz üçün bizə Müqəddəs Ruhu verdiyi üçün Allaha şükür edin!

On Əmri oxuyarkən düşüncələrimiz haqqında nələri xatırlamalıyıq? [20]

Həm daxilən, həm də zahirən necə itaət edə bilərik? [21]

Xarakterinizin getdikcə Onun xarakterinə bənzəməsi üçün Allahdan sizə Müqəddəs Ruhunu verməsini istəyin!

## Xarakteriniz kimə məxsus olduğunuzu göstərir?

# *Əlavə:* Hansı qanunlara əməl etməliyəm?

21-ci əsrdə yaşayan qeyri-yəhudilər kimi bizə aid olmayan qanunlar varmı? [22]

Tövratda çoxlu qanunlar var. Müəyyən bir qanunun bizə aid olub-olmadığını necə bilmək olar?

Bunun üçün iki sual verə bilərik:

1. **O dövrdə bu qanun israillilərə nə öyrədirdi?**
2. **Əhdi-Cədid bu qanun və bu mövzu haqqında bizə nə öyrədir?**

Tövratda bir qanunun bizə aid olub-olmadığını bilmək üçün hansı iki sualı verməliyik? [23]

İki misal:

## 1. Qida haqqında qanun



**Levililər 11-ci fəsil:** müəyyən növ ət yemək qadağan idi (ayə 7: donuz əti).

Verəcəyimiz ilk sual nədir? [24]

Levililər 11:45 bizə nə öyrədir? [25]

Onlar başqa millətlər kimi yaşamamalı idilər. Onlar Allah üçün müqəddəs olmalı idilər. Allahın xalqı digər xalqlardan fərqlənməli idi.

Verəcəyimiz ikinci sual nədir? [26]

1 Peter 1:15–16 bizə nə öyrədir? [27]

Allah bizim də müqəddəs olmağımızı istəyir. Biz başqa insanlar kimi yaşaya bilmərik, çünki Allaha məxsusuq.

Mark 7:18–19 bizə nə öyrədir? [28]

Buna görə də, Levililər Kitabını oxuyanda, yeməyin təmiz olmadığından narahat olmamalıyıq! Biz öz həyatımızı düşünməliyik: müqəddəs həyat sürürükmü?

Bəs bu qanunun işığında qonşumuzu necə sevməliyik?

1 Korinflilərə 8:13: *Odur ki, əgər yemək qardaşımı büdrədirsə, mən heç vaxt ət yeməyəcəyəm ki, qardaşım büdrəməsin.*

Əgər qurbanlıq ət yeməyiniz bir imanlını narahat edirsə, onu yeməyə dəyərmi? [29]

## 2. Göz əvəzinə göz, dişə əvəzinə diş



**Çıxış 21:23—25:** *...təqsirkar adam can əvəzinə can, göz əvəzinə göz, diş əvəzinə diş, əl əvəzinə əl, ayaq əvəzinə ayaq, yanıq əvəzinə yanıq, yara əvəzinə yara, zədə əvəzinə zədə ödəsin.*

Verəcəyimiz ilk sual nədir? [30]

Bu qanun, hakimlərin düzgün cəza verməsi üçündür. Bu, onların verə biləcəyi ən böyük cəza idi. Cəza bundan daha böyük olmamalı idi. Hakim, insanların dəhşətli bir qisas almasına izin verməməli idi (Yaradılış 4:24-ə baxın). O, ədalətli və mərhəmətli olmalı idi. Ehtimal olunur ki, insan gözünü və ya dişini vermək əvəzinə pul ödəyə bilərdi (Çıxış 21:26,27,30). Beləliklə, bu ayələr onlara Allahın ədalətli və mərhəmətli olduğunu öyrətdi.

Çıxış 21:23—25 bizə nə öyrədir? [31]

Verəcəyimiz ikinci sual nədir? [32]

Matta 5:38—39-da sitat gətirilmiş bu ayələr bizə nə öyrədir? [33]

Romalılara 12:19 bizə nə öyrədir? [34]

Allah hələ də ədalətli və mərhəmətlidir!

İsa tezliklə gələcək, dünyanı mühakimə edəcək və hər kəsi etdiklərinə görə cəzalandıracaq. O, ədaləti gətirəcək!

Allah hər şeyi görür. Bizi təqib edən insanları bağışlamaq bizə çətin gəlir. Lakin Müqəddəs Kitab bizə öyrədir ki, bağışlamaq və sevmək lazımdır (Matta 6:14 və 15). Bu bizim üçün qeyri-mümkündür, ancaq Müqəddəs Ruhla mümkündür!

Tövratdakı qanunun bizə aid olub-olmadığını bilmək üçün hansı iki sualı verməliyik? [35]

**Bir-biriniz üçün dua edin ki, müqəddəs həyat sürəsiniz və ətrafınızdakı hər kəsə Allahın məhəbbətini göstərə biləsiniz!**

# Cavablar

1 – Çünki Allah bizi xilas etdi və Öz xalqı etdi. O, bizim Padşahımızdır!
2 – *Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla və bütün düşüncənlə sev və qonşunu özün kimi sev.*
3 – *Allahdan başqa allahınız olmasın.*
4 – Allah qısqancdır! Bir kişi, arvadının başqa kişilərə valeh olmasını və onları sevməsini istəmədiyi kimi, Allah da bizim başqa allahlara pərəstiş etməyimizi və sevməyimizi istəmir.
5 – *Özünüz üçün heç bir büt düzəltməyin.*
6 – Büt, Allahdan başqa ibadət edilən hər şeydir.
7 – Bütün insanlar!
8 – Bir bütlə Allahı təsvir etmək qeyri-mümkündür. Biz Onu təsvir edə biləcəyimizi düşünürüksə, bu, Allahı təhqir edir.
9 – Müqəddəs sayılan şəkillərə və ya heykəllərə; siyasi liderlərə; məşhur insanlara; pula; mal-mülkə və s.
10 – *Allahınız Rəbbin adını boş yerə dilinizə gətirməyin.*
11 – Ona qarşı günah və itaətsizlik etməklə.
12 – Allaha itaət etməklə.
13 – Onlar Allahı sevdiklərini deyirlər, amma Ona itaətsizlik edirlər.
14 – İşlər pis gedəndə Allahı günahlandırırlar ("Aman Allah!"). İşlər yaxşı gedəndə Allaha həmd etməzlər.
15 – *Şənbə gününü xatırlayın və onu müqəddəs tutun.*
16 – Allahla vaxt keçirə və imanlılarla görüşə bilərik.
17 – İlk 4 əmrə itaət etməliyik.
18 – 5. Atana və anana hörmət et!
6. Qətl etmə!
7. Zina etmə!
8. Oğurluq etmə!
9. Yalan şahidlik etmə!
10. Tamah salma!
19 – Düşüncələrimiz hərəkətlərimiz qədər vacibdir!
20 – Allah təkcə zahirən deyil, daxilən də yaxşı olmağımızı istəyir!
21 – Allah bizə həm zahirdə, həm də daxildə itaət edə bilməyimiz üçün Müqəddəs Ruhu verir!
22 – Bəli!
23 – Bu qanun o günlərdə israillilərə nə öyrədirdi? Əhdi-Cədid bu qanun və bu mövzu haqqında bizə nə öyrədir?
24 – Bu qanunlar o günlərdə israillilərə nə öyrədirdi?
25 – *Müqəddəs olun.*
26 – Əhdi-Cədid bizə bu qanun və bu mövzu haqqında nə öyrədir?
27 – *Hər şeydə müqəddəs olun.*
28 – Biz hər şeyi yeyə bilərik!
29 – Xeyr.
30 – Bu qanun o günlərdə israillilərə nə öyrədirdi?
31 – Allah adil və mərhəmətlidir.
32 – Əhdi-Cədid bizə bu qanun və bu mövzu haqqında nə öyrədir?
33 – Qisas almamalıyıq. Bizim işimiz bağışlamaqdır.
34 – *Qisas almayın, Allahın qəzəbinə yer verin.*
35 – Bu qanunlar o günlərdə israillilərə nə öyrədirdi? Əhdi-Cədid bu qanun və bu mövzu haqqında bizə nə öyrədir?

12-ci dərs:

# Hüzur çadırı



## Allah bizimlədir

**Çıxış 25:1–22**-ni oxuyun.

Hüzur çadırı, Allahın Öz xalqı ilə görüşməyi vəd etdiyi yer idi. Bu çadırın iç hissəsində iki otaq var idi.

Bu otaqlar nə idi (Çıxış 26:33)? [1]

Ən Müqəddəs yerdə nə var idi (25:10–22)? [2]

Çıxış 25:10–22 ayələrindən bu barədə nə öyrənirik? [3]

Keruvlar haqqında nə bilirik (Yaradılış 3:24)? [4]

Keruvlar onu göstərir ki, Allah, insanların yaxınlaşa bilməyəcəyi qədər pak və müqəddəsdir.

Çadırın ətrafında həyət və pərdə var idi.

Həyətdə nə var idi? **Çıxış 40:29–32**-yə baxın. [5]

İnsanları Allah qarşısında təmizləmək üçün hər ikisinə də ehtiyac var idi.

Allahın xalqı səhrada səyahət edəndə, Hüzur çadırı də onlarla birlikdə səyahət edirdi.

500 il sonra, onlar vəd edilmiş torpaqda yaşayanda, padşah Süleyman məbədi inşa etdi. Məbəd, Hüzur çadırına bənzəyirdi, lakin güclü və gözəl bina idi. Bu, Allahın Öz xalqı ilə görüşməyi vəd etdiyi yer idi.

Məbəd, Hüzur çadırına necə bənzəyirdi? [6]

## Əhdi-Cədid

Əhdi-Cədid dövründə əllə tikilən məbədə ehtiyacımız yoxdur, çünki artıq imanlılar cəmiyyəti Allahın Məbədidir.

**1 Korinflilərə 3:16:** *Məgər bilmirsiniz ki, siz Allahın məbədisiniz və Allahın Ruhu sizdə yaşayır?*

Beləliklə, əgər Allahla görüşmək istəyiriksə, xüsusi bir binaya getməli deyilik. Bəs hara getməliyik? [7]

Allah həmişə xalqının yanındadır!

# Allah müqəddəsdir

Allah bizi yaratdı ki, Onunla münasibətimiz olsun. Allahın xalqı üçün Allahın onlarla birlikdə yaşaması vacib idi. Allah olmadan Allahın xalqı ola bilməzdilər!

Lakin israillilər Allahdan qorxurdular. Onlar Allahın çox müqəddəs olduğunu və özlərinin günahkar olduqlarını bilirdilər. Onlar həmçinin Allahın günahkar insanları (məsələn, fironu!) necə cəzalandırdığını da görmüşdülər.

Allah, Əhd sandığının üzərində olmağı vəd etdi. Sandıq, Allahın taxtı kimi idi. Amma sandığı heç kim görmədi. O, Ən Müqəddəs yerdə idi və ona yalnız Baş Kahin və yalnız ildə bir dəfə yaxınlaşa bilərdi. Beləliklə, Allah onlarla idi, lakin onlardan ayrı idi.

Allahın xalqının nə problemi var idi? [8]

## Günahkar insanlar müqəddəs Allahla necə görüşə bilərlər?

Əhdi-Ətiqdə israillilərin günahlarının bağışlanmasını üçün iki şey lazım idi.

1. **Qurbanlar** — günahkar insanların yerinə bir heyvan ölməli idi.
2. **Baş Kahin** — əsas qurbanları o gətirirdi.

İsraillilərin bağışlanması üçün hansı iki şeyə ehtiyacları var idi? [9]

Lakin onların baş kahinləri və qurbanları heç vaxt kamil deyildi.

Bunlar bizim günah problemimizi tamamilə həll etmirdilər. Ancaq bizi günah problemimizi tamamilə həll edəcək Məsihə hazırlayırdılar!

## Əhdi-Cədid

**İbranilərə 7:26–27:** (İsadan bəhs edir) *Həqiqətən, bizə belə bir Baş Kahinin olması münasibdir ki, O,* ***müqəddəs, günahsız, ləkəsiz,*** *günahkarlardan ayrılmış, göylərdən daha ucalara qaldırılmış olsun. O başqa baş kahinlər kimi əvvəlcə öz günahları, sonra da xalqın günahları üçün hər gün qurban təqdim etmək məcburiyyətində deyil. Çünki Özünü qurban verməklə bunu* ***birdəfəlik*** *etdi.*

İsa digər baş kahinlərdən necə fərqlənir? [10]

Onun qurbanı Əhdi-Ətiqdəki qurbanlardan nə ilə fərqlənirdi? [11]

İsa bizim kamil Baş Kahinimiz və kamil qurbanımızdır!

**Mark 15:37–38**-i oxuyun. İsa öləndə məbəddə nə baş verdi? [12]

Bu bizə artıq Allahdan ayrı olmadığımızı göstərdi! Bu, ən gözəl xəbərdir!

**Yalnız İsa günahkar insanları Müqəddəs Allahın hüzuruna gətirə bilər!**

**İbranilərə 10:19–22**-ni oxuyun. Bu inanılmaz fürsətlə nə etməliyik? [13]

**Yəhya 14:6:** *İsa cavab verdi:*
"*Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz*".

Beləliklə, biz nəyə əsasən Allaha yaxınlaşa bilərik? [14]

Başqa insanlar bu gün Allaha necə yaxınlaşmağa çalışırlar? [15]

## Əhdi-ətiqin Əhdi-Cədidi anlamağımıza necə kömək etdiyini görürsünüzmü?

## Bir ildə Müqəddəs Kitabı necə oxumaq olar

Heç bilirdinizmi ki, hər gün Əhdi-Ətiqin 2 fəslini, Əhdi-Cədidin bir fəslini və bir məzmur (və ya uzun məzmurun yarısı) oxusanız, bütün Müqəddəs Kitabı bir ildə oxuyub qurtararsınız?



Müqəddəs Kitabı bir ildə necə oxuya bilərsiniz? [16]

# Cavablar

1 – Müqəddəs yer və Ən Müqəddəs yer.
2 – Əhd sandığı.
3 – Sandıq, qızıl bir qutu idi. (ayə 10–11)
Sandığın üzərində xüsusi bir qapaq və qapağın üzərində iki qızıl keruv var idi. (ayə 17–18)
Sandıqda üzərində On Əmr yazılmış olan iki dənə daş lövhəsi var idi. (ayə 21)
Allah orada Öz xalqı ilə görüşəcəyini vəd etdi. (ayə 22)
4 – Keruvlar həyat ağacını qoruyurdular.
5 – Həyətdə iki şey var idi: qurbangah və ləyən.
6 – Onun iki xüsusi otağı var idi: Müqəddəs yer və Ən Müqəddəs yer. İçərisində qurbangah və əşyaları təmizləmək üçün böyük bir ləyən var idi.
7 – Biz başqa imanlılarla görüşməliyik. (İmanlılar cəmiyyətinin toplantılarına getməliyik.)
8 – Allah onlarla birlikdə yaşamaq üçün gəldi, lakin onlar günahkar olduqlarına görə Allaha yaxınlaşa bilmirdilər.
9 – Baş kahinə və qurbanlara.
10 – O, müqəddəs, qüsursuz və pakdır.
11 – Onun qurbanı birdəfəlik idi!
12 – Məbəddəki pərdə yuxarıdan aşağıya ikiyə bölündü.
13 – Allaha yaxınlaşmalıyıq!
14 – Allaha İsa vasitəsilə yaxınlaşa bilərik.
15 – Özünüz bir misal gətirin.
16 – Hər gün Əhdi-Ətiqdən 2 fəsil, Əhdi-Cədiddən bir fəsil və bir məzmur (və ya uzun məzmurun yarısı!) oxuyun.

## 13-cü dərs:

# Səhrada həyat



Allah, Sina dağında Öz xalqına bir çox qanunlar verdi. Onlar Hüzur çadırını düzəltdilər. Bir ildən sonra israillilər Sina dağını tərk edərək vəd edilmiş torpağa doğru yola düşdülər.

## Dəhşət!

**Sayılar 13:1–14:9**-u oxuyun.

Musa nə üçün 12 nəfəri vəd edilmiş torpağa göndərdi? [1]

Onlar ölkə haqqında nə öyrəndilər (13:27)? [2]

"Süd və bal axan" nə deməkdir? [3]

Şəhərlər haqqında nə öyrəndilər (13:28)? [4]

Onlar oradakı insanlar haqqında nə öyrəndilər (13:32–33)? [5]

12 nəfərdən neçəsi Allaha güvəndi (14:6–9)? [6]

Onların neçəsi Allaha güvənmədi? [7]

10 nəfər, nəhəng insanları gördü və dəhşətə gəldi.

Bəs Kalev və Yeşua nə dedilər (ayə 30)? [8]

Bu iki adam və digər adamlar arasında fərq nədir? [9]

Bəs kim daha güclüdür: Allah yoxsa insanlar? [10]

Onların hamısı Allahın onlar üçün nə etdiyini bilirdi. Allah onlar üçün nə etdi? [11]

Amma yenə də Allahdan yox, insanlardan qorxurdular.

Allahın bizim üçün etdiklərini unutmaq çox asandır!

Allahın bizim üçün etdiklərini necə xatırlaya bilərik? [12]

Əgər bunu etsək, insanlardan deyil, Allahdan qorxacağıq!

İsraillilər Allahdan qorxmaqdan əl çəkəndə nə etdilər (14:1–4)? [13]

Eyni şəkildə biz də Allaha güvənməyəndə, Ona itaət etmək istəmirik.

**Saylar 14:20–25**-i oxuyun. Allah onlara nə dedi? [14]

**Qanunun Təkrarı 1:1–3**-ü oxuyun. İsraillilərin Allaha güvənməməsi nə ilə nəticələndi? [15]

Allah, bütün böyük insanlar ölənə qədər israilliləri qırx il boyu səhrada yaşamağa məcbur etdi. Yalnız onların övladları, bir də Kalev və Yeşua vəd edilmiş torpağa girəcək idi.

Allah bunu niyə etdi? [16]

Allaha güvənməməyin nəticəsi çox pis olur.

# Əhdi-Cədid

Vəd edilmiş torpaq, Allahın İbrahimə verdiyi vədin yerinə yetirilməsi idi (Yaradılış 12:1–7). Allah Öz xalqı olan İsrail ilə birlikdə o torpaqda yaşayacaq idi.

Vəd edilmiş torpaq həm də Allahla xalqının əbədi olaraq birlikdə yaşayacaqları Cənnətin rəmzidir.

**İbranilərə 11:16**-nı oxuyun. Əhdi-Ətiq xalqı (Allaha güvənənlər) nəyi gözləyirdi? [17]

**Yəhya 3:16**-nı oxuyun. Cənnətə getmək və əbədi həyata sahib olmaq istəyiriksə, nə etməliyik? [18]

Əgər biz İsaya iman etsək, əbədi Vəd edilmiş Torpağa gedəcəyik! O, Əhdi-Ətiqdə vəd edilmiş torpaqdan daha gözəl olacaq!

# Səhrada yaşamaq

Bu dünyadakı həyatımız, Cənnətdəki həyatla müqayisədə səhraya bənzəyir. Səhra, həyat yolumuzun rəmzidir.

**Qanunun Təkrarı 29:5–6**-nı oxuyun. Allah 40 il səhrada xalqının qayğısına necə qaldı? [19]

Əhdi-Cədiddə Müqəddəs Ruh, İsanı 40 günlük səhraya apardı.

**Matta 4:3**-də Şeytan İsanı necə sınağa çəkdi? [20]

**Matta 4:4**-də İsa ona necə cavab verdi? [21]

Bizə yalnız çörəklə deyil, Allahın sözü ilə də yaşamaq lzaımdır.

İsa, Allahın israillilərin qayğısına qaldığı kimi Onun da qayğısına qalacağına inanırdı.

**Yəhya 6:35**-də İsa Özünü nə adlandırdı? [22]

Bu nə deməkdir? [23]

**Yəhya 4:10**-da İsa quyunun başında qadına nə dedi? [24]

Bu nə deməkdir? [25]

Gündə neçə dəfə yeyib-içirsiniz? Uzun müddət heç nə yeyib-içməsəniz nə baş verər?

Ruhumuzun sağlam olması üçün hər gün ruhani qida qəbul etməliyik!

Sağlam olmaq üçün nə etməliyik? [26]

Həyat yolumuz bir iman səyahəti olmalıdır: biz Allaha etibar etməli və tabe olmalıyıq. Ruhani qidamızı hər gün qəbul etməliyik! “Nəhəng adamlar”dan qorxmamalıyıq, ancaq Allahdan qorxmalıyıq!

Biz nə cür “nəhəng adamları” görürük?

Kimdən qorxuruq: “nəhəng adamlardan”, yoxsa Allahdan?

Biz Allaha etibar edəndə, günah işlətmirik.

Biz qorxaq deyil, imanlı insanlar olmalıyıq!

## Bu gün Allah sizə nə deyir?

# Cavablar

1 – Ölkəni kəşf etmək, şəhərlər, insanlar və torpaq haqqında məlumat əldə etmək.
2 – Orada süd və bal axır.
3 – Bu o deməkdir ki, orada çoxlu mal-qara və arı var. Arılar bitki yetişdirmək üçün çox vacibdir. Torpağın münbit olduğunu bundan anlayırıq.
4 – Şəhərləri istehkamlı və çox böyük idi.
5 – Orada gördükləri bütün insanlar uca boylu idi. Orada nəhəng adamlar gördülər.
6 – Yalnız ikisi!
7 – 10.
8 – Gedək torpağı ələ keçirək! Biz bunu edə bilərik!
9 – Kalev və Yeşua Allahdan, digərləri isə insanlardan qorxurdular.
10 – Allah!
11 – Allah onları Misirdən çıxartdı, fironun əlindən xilas etdi və inanılmaz möcüzələr etdi.
12 – Biz hər gün Müqəddəs Kitabı oxumalı və Allaha həmd etməliyik. Yaxşı ilahilər bizə Allahın bizim üçün etdiklərini xatırladır. Biz Allaha həmd etmək və Onun Kəlamını öyrənmək üçün birlikdə müntəzəm olaraq görüşməliyik.
13 – Allaha itaət etmədilər və vəd edilmiş torpağa girmədilər.
14 – Vəd edilmiş torpağı görməyəcəklərini söylədi.
15 – Sina dağından vəd edilmiş torpaqlara gedən yol cəmi 11 gündür. Onların yolu isə 40 il sürdü!
16 – Çünki onlar Allaha güvənmirdilər.
17 – Onlar daha yaxşı, səmavi ölkəni — Cənnəti səbirsizliklə gözləyirdilər!
18 – İsaya inanmalıyıq (və güvənməliyik)!
19 – Onlara su, çörək və ehtiyacları olan hər şeyi verdi.
20 – Ona daşları çörəyə döndərməsini söylədi.
21 – "*İnsan yalnız çörəklə deyil, Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar*" *deyə yazılmışdır.*
22 – Həyat çörəyi.
23 – O, bizim Allah ilə münasibətə olan aclığımızı doyurur. Əbədi həyat və bu dünyada hər gün yaşamaq üçün ehtiyacımız olan hər şeyi bizə verə bilər.
24 – İsa ona dedi ki, O, həyat suyu verir.
25 – Bu o deməkdir ki, İsa, Allah ilə münasibət üçün olan susuzluğumuzu yatırır. Əbədi həyat və bu dünyada hər gün yaşamaq üçün ehtiyacımız olan hər şeyi bizə verə bilər.
26 – Biz hər gün Müqəddəs Kitabı oxumalı, dua etməli və İsa ilə vaxt keçirməliyik.

## 14-cü dərs:

# Səkkiz şəkildə Müqəddəs Kitab hekayəsi

İndiyə qədər öyrəndiklərimizi nəzərdən keçirmək üçün biz bu şəkillərdən istifadə edərək Müqəddəs Kitabın öyrətdiyi həqiqəti izah edəcəyik.




Birinci şəkil haqqında oxuyacağıq, sonra qrupda bir nəfər bu məlumatı oxumadan təkrar etməlidir. Ondan sonra ikinci şəkil haqqında oxuyacağıq və başqa biri onu təkrarlayacaq. Sona çatanda mətnə baxmadan 8 şəklin hamısını növbə ilə təkrarlayacağıq.




## 1. Yaradılış

Allahın yaratdığı hər şey yaxşı idi. Allah, Eden bağı adlanan gözəl bir bağda ilk insanlar olan Adəm və Həvva ilə vaxt keçirirdi.




## 2. Günahın başlanğıcı

Adəm və Həvva Allaha itaətsizlik etdilər və Şeytana itaət etdilər. Beləliklə, onlar Allahın xeyir-dualarını, o cümlədən əbədi həyatı itirdilər.

Şəkildəki ox, Allahın onları bağdan və Öz hüzurundan qovduğunu göstərir.

O vaxtdan bəri insanlar Allahla yenidən əlaqə qurmağı arzulayırlar.




## 3. Vədlər

Allah İbrahimə vəd etdi ki, Onun seçilmiş **xalqının** atası olacaq. Bir də xalq üçün Allahla birlikdə yaşayacaqları bir **torpağı** vəd etdi. Və eləcə də İbrahim vasitəsilə bütün insanlara **xeyir-dua** verəcəyini vəd etdi.

Şəkildəki tac onu göstərir ki, Allah onlara yaxşı padşah olacaq.

Göy qurşağı, Allahın vədinə sadiq qalacağını göstərir (Yaradılış 9:13–16). Ona həmişə etibar edə bilərsiniz!




## 4. Çıxış

Allahın xalqı yad bir ölkədə, Misirdə məskunlaşdı. Bir müddət sonra orada kölə oldu. (Şəkildəki piramidalar Misiri təmsil edir.)

Ox, Allahın Öz xalqını Misirdəki dəhşətli köləlikdən xilas etdiyini göstərir.




## 5. Torpaq

Allah Öz xalqını Vəd edilmiş torpağa gətirdi. Onlarla birlikdə yaşayacağını və Ona itaət etdikləri təqdirdə, onlara xeyir-dua verəcəyini vəd etdi.

Şəkildəki ağaclar və su buranın münbit torpaq olduğunu göstərir.

Lakin israillilər Allaha itaət etmək istəmədiklərinə görə Onunla olan xüsusi münasibətlərini pozdular.




## 6. İsa Məsih

Allah vədinə sadiq qalaraq Xilaskarını göndərdi! İsa Məsih günahlarımız üçün birdəfəlik qurban olaraq dünyaya gəlib çarmıxda öldü. Sonra ölümdən dirildi. Bu, İsanın ölümə qalib gəldiyini göstərir! Beləliklə, indi biz yenidən Allahla dost ola bilərik!




## 7. İsanın ikinci gəlişi

İsa indi göylərdədir.

Şəkildəki ox işarəsi, İsanın dünyanın sonunda bütün insanları mühakimə etmək üçün yer üzünə qayıdacağını göstərir.




## 8. Cənnət

Biz yeni, əbədi vəd edilmiş torpaqda, Cənnətdə Allah ilə yaşayacağıq!

**Bir-biriniz üçün dua edin ki, Allah sizə bu həftə bu şəkilləri paylaşmaq üçün birini göndərsin.**

# 15-ci dərs:

# Yeşua



Musa qırx il səhrada dolaşdıqdan sonra xalqı vəd edilmiş torpağın sərhədinə gətirdi. Musanın özü bu torpağa girmədi.

Musa öldü və Yeşua yeni başçı oldu. Yeşuanın vəzifəsi, Allahın xalqını vəd edilmiş torpağa gətirmək idi. Yeşua, döyüşlərində onlara rəhbərlik edəcək idi.

Musadan sonra Allahın xalqının başçısı kim oldu? [1]

Onun vəzifəsi nə idi? [2]

## Vəd

**Yeşua 1:1–9**-u oxuyun.

Allah  xalqına nə vəd etdi (Çıxış 3:8)? [3]

Lakin Kənan xalqı çox güclü idi. İsraillilər təkbaşına onları məğlub edə bilmədilər. Allahın köməyinə ehtiyacları var idi.

Görək Allah Yeşuaya nə vəd etdi.

5–9-cu ayələr şeir kimidir. Əhdi-Ətiq ibrani dilində yazılmışdır. İbrani poeziyasında ən mühüm fikir adətən şeirin ortasında olur. Birinci və sonuncu hissələrin, ikinci və axırdan ikinci hissələrin və s. eyni şeydən bəhs etdiyinə fikir verin.

**A.** Səni heç vaxt atmayacağam və tərk etməyəcəyəm.
  **B.** Möhkəm və cəsarətli ol...
    **C.** Cəsarətli və çox möhkəm ol.
      **D.** Tapşırdığım Qanuna tam və dəqiq əməl et... hara getsən, uğur qazanasan.
        **E. Qanun kitabı olan Tövratın sözləri dilindən düşməsin**
        **E. Gecə-gündüz onun üzərində düşün**
      **D.** orada yazılan hər şeyə dəqiq əməl et ki, yolun uğurlu olsun və müvəffəqiyyət qazanasan
    **C.** ... güclü və cəsarətli ol
  **B.** Qorxma və ruhdan düşmə
**A.** ... Allahın Rəbb gedəcəyin hər yerdə səninlədir.

Bu şeirdə əsas fikir nədir? [4]

Əgər Yeşua bunu etsə, nəticəsi nə olacaq (ayə 7)? [5]

Nə üçün o qorxmamalı və ya ruhdan düşməməli (ayə 9)? [6]

# Vədin yerinə yetirilməsi

**Yeşua 21:43–45**-i oxuyun.

Allahın İbrahimə vəd etdiyi torpağın nə qədəri Yeşuanın rəhbərliyi altında israillilər tərəfindən fəth edildi (ayə 43)? [7]

Allah onlara daha nə verdi (ayə 44)? [8]

Müqəddəs Yazının bu hissəsinə (ayə 45) əsasən, Allahın vədlərindən neçəsi yerinə yetirildi? [9]

Bu bir möcüzə idi! Lakin israillilər üçün bu asan olmadı. Onlar hər şəhər üçün döyüşməli idilər. Ancaq axırda Allah israillilərə sülh və sevinc yeri olacaq bir torpaq verdi. Bura onların Allah ilə birlikdə yaşayacaqları yer olacaq idi!

## Nə üçün bu adamlardan qurtulmalı idilər?

Xalq dünyanın nuru olmaq üçün vəd edilmiş torpaqda düşmənlərindən azad olmalı idi.

Düşmənləri başqa allahlara ibadət edir və övladlarını qurban vermək də daxil olmaqla, qorxunc şeylər edirdilər. Allah, bu insanların etdiklərinə nifrət edirdi və israillilərin bu pis əməlləri təkrarlamasını istəmirdi.

Niyə bu adamlardan qurtulmalı idilər? [10]

# Əhdi-Cədid

İsanın dövründə dünyanın bu hissəsində hamı yunanca danışırdı. Buna görə də, Əhdi-Cədid yunan dilində yazılmışdır.

Əhdi-Cədid hansı dildə yazılmışdır? [11]

Əhdi-Ətiq hansı dildə yazılmışdır? [12]

İsanın adı ibranicə “Yeşua” idi.

İsa adının mənası nədir (Matta 1:21)? [13]

Yeşua, İsanın obrazıdır. İsa, bizi xilas edəcək və əbədi vəd edilmiş torpağa, Cənnətə sağ-salamat gətirəcək sadiq başçıdır! Bu, Əhdi-Ətiqdəki vəd edilmiş torpaqdan qat-qat daha yaxşı olacaq! Bu dünya bizim evimiz deyil. Biz həqiqi evimizə doğru gedirik!

İsa günahsız idi. O, Allahın qanununa tamamilə tabe idi. O, “ondan sağa və sola dönmədi” (Yeşua 1:7). Səhrada iblis tərəfindən sınağa çəkiləndə, Allahın sözü ilə onunla “mübarizə etdi” (Matta 4:1–11).

İsa Yeşuaya necə bənzəyir? [14]

İsa Yeşuadan necə fərqlənir? [15]

# Allah bu gün hansı döyüşlərdə iştirak etməyimizi istəyir?

Bu gün Vəd edilmiş Torpaq yoxdur. Allah bizi bir torpaq parçası uğrunda döyüşməyə və Ona itaət etməyənlərin hamısını məhv etməyə çağırmır. Bunun əvəzinə, sözümüz və məhəbbətimizlə insanlara müqəddəs Allahın olduğunu göstərməliyik. Onları o qədər sevir ki, əbədi həyata malik olsunlar deyə Öz Oğlunu göndərdi və Oğlu onların günahları üçün öldü. Onlar, kainatın Sahibi Allaha qarşı itaətsizliklərinə görə tövbə etməlidirlər!

Bu gün vəzifəmiz nədir? [16]

Biz ruhani müharibədəyik. Şeytan həmişə bizi Allaha itaət etməməyə sövq edir. Əbədi vəd edilmiş torpağa çatana qədər bizi hələ çoxlu döyüşlər gözləyir.

**Yeşua 1:16–17:** Yeşua 1:16–17: İsraillilər Yeşuaya nə söz verdilər? [17]

İsraillilər qalib gəlmək üçün hər şeydə öz başçıları Yeşuaya tabe olmalı idilər. Eyni şəkildə, biz də qalib olmaq üçün hər şeydə Başçımız İsaya itaət etməliyik.

Allah, Yeşua ilə birlikdə idi. Belə ki, Yeşua xalqını Vəd edilmiş torpağa gətirə bildi. Lakin İsa, bəşər olmuş Allahın Özü idi. Beləliklə, O, həm bizimlə olan Allah, həm də bizi əbədi vəd edilmiş torpağa aparan başçıdır.

Matta 28:20-də İsa əsgərlərinə (ardıcıllarına) nə vəd etdi? [18]

Beləliklə, biz Yeşua 1:5–9-da İsanın bizə dediyi sözləri oxuya bilərik.

İsanın həmişə bizimlə olduğunu və bizi güclü və cəsarətli etməyə qadir olduğunu bilməyimiz üçün nə etməliyik? [19]

Biz Allahın Kəlamını oxuyanda, Allah bizə cəsarət verir və qorxumuzu aradan götürür!

İsraillilər hər bir şəhər üçün döyüşməli olduqları kimi, biz də hər bir günahlı düşüncəyə və hərəkətə qarşı mübarizə aparmalıyıq.

- Kimdən xoşumuz gəlmir?
- Kimi bağışlamamışıq?
- Özümüzü nə vaxt həyat yoldaşımızdan daha çox sevirik?
- Bizə yaxın olanlara qəzəblənib qışqırırıq?
- Telefonumuzda pis şeylərə baxırıq?

Nuh haqqında dərsi xatırlayırsınız? Kənardan gözəl göründüyümüz halda daxilimizdə çürük bir meyvə kimi ola bilərik. Allahdan xahiş edin, sizi necə dəyişdirmək istədiyini göstərsin. O zaman bir çoxlarının Vəd edilmiş Torpaq üçün İsanın ardınca getmələrinə kömək edə bilərsiniz!

## Çağırış

Şeytanın bizə atdığı bütün oxlara qarşı möhkəm dayana bilməniz üçün hər gün ruhani zireh geyinin (Efeslilərə 6:10–18). Allahın bizim üçün döyüşdüyünü və bizi xilas edəcəyini unutmayın. Bizim vəzifəmiz təslim olmaq və ya qaçmaq deyil!

# Cavablar

1 – Yeşua.
2 – Allahın xalqını vəd edilmiş torpağa aparmaq.
3 – Allah onları süd və bal axan yaxşı, geniş bir yerə (çoxlu mal-qara olan münbit torpağa) aparacağını vəd etdi.
4 – Qanun Kitabı olan Tövratın sözləri dilindən düşməsin, gecə-gündüz onların üzərində düşün.
5 – Gedəcəyi hər yerdə uğur qazanacaq.
6 – Çünki Allahı Rəbb gedəcəyi hər yerdə onunla olacaq.
7 – O torpağın hamısı.
8 – Allah onlara hər tərəfdən dinclik verdi.
9 – Hamısı.
10 – Allah bu adamların etdiklərinə nifrət edirdi və israillilərin bu pis əməlləri təkrarlamasını istəmirdi.
11 – Yunan dilində.
12 – İbrani dilində.
13 – Allah xilas edir.
14 – Hər ikisinin adı "Allah xilas edir" mənasına gəlir və hər ikisi həm xilas edir, həm də Allahın xalqını vəd edilmiş torpağa gətirir.
15 – Yeşua insan idi, ona görə də kamil deyildi. İsa Allahın qanununa tamamilə əməl etdi. Yeşua, Allahın xalqını əbədi olmayan vəd edilmiş torpağa gətirdi. İsa bizi əbədi vəd edilmiş torpağa gətirəcək.
16 – Sözlərimiz və sevgimiz ilə insanlara müqəddəs Allahın var olduğunu və onları sevdiyini göstərməliyik. Onlar tövbə etməlidirlər!
17 – Ona itaət edəcəklərinə söz verdilər.
18 – Zamanın sonuna qədər sizinlə olacağam.
19 – Biz Allahın Kəlamını oxumalı, üzərində düşünməli və ona itaət etməliyik.

# 16-cı dərs:
# Hakimlər



Hakimlər Kitabında çox qorxunc hekayələr var. Bu bizə Xilaskara, bu qaranlıq dünyada nur olacaq bir Xilaskara nə qədər ehtiyacımız olduğunu göstərir!

Müqəddəs Kitabda qorxunc hekayələri oxuyanda, bu bizə nəyi xatırladır? [1]

Dünyanın Nuru kimdir (Yəhya 8:12)? [2]

Hakimlər Allahın xalqının rəhbərləri və xilaskarları idi. Onların dövrü, Yeşuadan başlayıb ilk padşah Şaula qədər davam edib 300 ildən çox sürdü. Bu dövr təqribən eramızdan əvvəl 1300–1000-ci illərə təsadüf edirdi.

Hakimlər kimlər idi? [3]

## Dairə

**Hakimlər 2:6–19**-u oxuyun.

Allah, Öz xalqına vəd edilmiş torpağı ona görə verdi ki, onlar dünyanın nuru olsular və başqa xalqlar necə yaşamalı olduqlarını və həqiqi Allaha ibadət etməli olduqlarını görə bilsinlər.

Lakin Hakimlər Kitabında biz israillilərin Allaha itaətsizlik etdiklərini görürük.

Dəfələrlə təkrarlanan beş hissədən ibarət bir dairə var:

1. İsraillilər başqa allahlara ibadət edirlər.
2. Allah onları cəzalandırır və düşmənlərinə təslim edir.
3. Onlar Allaha fəryad edirlər.
4. Allah onlara bir hakim verir və bu hakim onları xilas edir.
5. Hakim ölür.

Və sonra bu dairə yenə təkrarlanır.

Hakimlər Kitabında dairənin beş hissəsi hansılardır? [4]

# Hakimlərin dörd problemi

## 1. Hakimlər, bizim üçün yaxşı nümunə deyillər

Bu kitabdakı hakimlər bizim üçün yaxşı nümunə deyillər!

Misal üçün:

1. **Gideon** qorxurdu (6:27). Biz Allahı yaş və quru yunlarla sınamamalıyıq! (6:36–40)
2. **İftah** axmaq bir and içdikdən sonra qızını öldürdü (11:29–40).
3. Ən məşhur hakim **Şimşondur.** O, çox güclü idi. Başqa allahlara ibadət edən bir filiştli qadınla evləndi (14:1–2). Fahişələrin yanına gedirdi. Saçını kəsməmək əhdini pozdu (16-cı fəsil) və buna görə gücünü itirdi. O, həmişə qisas alırdı.

Onlar bizim üçün yaxşı nümunə deyillər!

### Əhdi-Cədiddə

Bizim üçün yaxşı nümunə olan bir Xilaskarımız var. Ondan nümunə götürə bilərik. O qorxmadı, günahsız insanları öldürmədi, qisas almadı və saf bir həyat sürdü.

Bu adam kimdir? 1 Peter 2: 21–23-ə baxın. [5]

## 2. Hakimlər yalnız müvəqqəti olaraq xilas edə bilirdilər

Hakim öləndə nə baş verirdi (2:19)? [6]

### Əhdi-Cədiddə

Bizi əbədi olaraq xilas edə biləcək bir Xilaskarımız var!

**İbranilərə 7:25:** *Buna görə O Özü vasitəsilə Allaha yaxınlaşanları tam xilas etməyə qadirdir. Çünki O onlar üçün vəsatətçilik etməkdən ötrü həmişə yaşayır.*

İsa nə üçün bizi əbədi olaraq xilas edə bilər? [7]

## 3. Hakimlər günah problemini həll edə bilmədilər.

Hakimlər Kitabında biz israillilərin getdikcə pisləşdiyini görürük.

Allahın Öz xalqına daim sevgisini göstərməsi heyrətamizdir!

Onlar Allahı çağıranda, O nə edirdi (məsələn, 3:9)? [8]

Bəs hakim öləndə nə baş verirdi (2:19)? [9]

## Əhdi-Cədiddə

Günah problemimizi həll edən Xilaskarımız var!

Allah nə etdi? (1 Yəhya 4:9–10)? [10]

Allah bizə nə verdi (Həvarilərin İşləri 2:38)? [11]

Müqəddəs Ruh bizi getdikcə daha çox İsaya bənzədir. O, həyatımızda işlədikcə, biz get-gedə daha az günah işlətməyi öyrənirik. Və bir gün biz Cənnətdə İsa ilə günahsız yaşayacağıq!

## 4. Hakimlər, xalqı padşahları olan Allaha itaət etməyə inandıra bilmədilər

Zəbur 44:4-də Allah necə adlandırılır? [12]

Qanunun Təkrarı 33:5-də Musa bəyan edir ki, Allah "Yeşuruna padşah oldu" (Yeşurun, İsrailin başqa bir adıdır).

Bəs **Hakimlər 21:25** nə deyir? [13]

İsrail övladları sanki padşahları yoxmuş kimi yaşayırdılar. Heç kim onları idarə etmirdi. Onlar Rəbbin hakimiyyəti altında yaşamaqdan əl çəkmişdilər. İstədikləri kimi yaşadılar və get-gedə daha da pisləşdilər. Bu, dəhşət idi!

Düzgün iş görmək üçün israillilər nə etməli idilər?[14]

Allah, İsrail övladlarınının da başqa xalqlar kimi padşah istəyəcəklərini bilirdi. Buna görə Allah, padşahlarının nə etməli və nə etməməli olduqları barədə nə dedi? (Qanunun Təkrarı 17:14–20)? [15]

Yaxşı padşah, bütün xalqını Allahın qanunlarına tabe olmağa yönəltməlidir.

Əhdi-Ətiqi oxuyanda görürük ki, İsraildə elə bir padşah olmamışdır ki, hər şeyi düzgün etsin. Lakin Allah Öz xalqına dedi ki, bir gün onları Allahın qanunlarına tabe olmağa yönəldən mükəmməl bir padşah göndərəcək.

## Əhdi-Cədiddə

Bu ayələrdə İsaya nə adlar verilir?

**Matta 2:2** [16]

**Matta 27:37** [17]

**Vəhy 19:16** [18]

Bizə lazım olan padşah İsadır! O, kamil həyat sürdü və qanunu yerinə yetirdi (Matta 5:17).

Hakimlərin dörd problemi hansılar idi? [19]

Kim bizim üçün yaxşı nümunədir? [20]

Bizi kim əbədi olaraq xilas edə bilər? [21]

Günah problemini kim həll edə bilər? [22]

Kamil padşah kimdir? [23]

**Padşahınıza necə ibadət edirsiniz?**

# Hakimlər kitabından nə öyrənirik?

## 1. İmanlı olmayanlardan nümunə götürmək çox asandır

Onlar nəyə ibadət edirlər? [24]

**Qanunun Təkrarı 6:5**-i oxuyun. Allah bizdən nə istəyir? [25]

## 2. Günah o qədər güclüdür ki, ondan öz başımıza əl çəkə bilmərik. Köməyə ehtiyacımız var

**Yəhya 8:36:** *Buna görə də əgər Oğul sizi azad etsə, həqiqətən də, azad olacaqsınız.*

Günah etməkdən necə əl çəkə bilərik? [26]

Yalnız İsa bizi günahımızdan xilas edə bilər və yalnız İsa ürəyimizi dəyişə bilər!

## 3. Allah bizi sevdiyi üçün tərbiyə edir

**İbranilərə 12:5–6:** *Oğlum, Rəbbin verdiyi tərbiyəyə xor baxma, O səni məzəmmət edəndə ruhdan düşmə. Çünki Rəbb sevdiyini tərbiyələndirər, qəbul etdiyi hər oğulu döyər.*

Rəbb kimləri tərbiyə edir? [27]

Başınıza pis bir şey gələndə, Allahdan bunun vasitəsilə sizə nə öyrətmək istədiyini soruşun.

Bu o demək deyil ki, bütün pis şeylər Allahın cəzasıdır. İnsanlara başlarına gələn pis şeyin Allah tərəfindən bir cəza olduğunu söyləmək yaxşı deyil. Başqalarına şəfqətlə yanaşmaq lazımdır!

**Romalılara 8:28–29:** *Biz bilirik ki, hər şey birlikdə Allahı sevənlərin, Onun məqsədinə görə çağırılanların xeyrinə işləyir. Çünki Allah qabaqcadan tanıdığı adamları **Öz Oğlunun surətinə uyğunlaşmaq üçün** əvvəlcədən təyin etdi...*

Allah həyatımızda çətinliklərdən necə istifadə edir? [28]

## 4. Allah sadiq, şəfqətli və mərhəmətlidir

Ondan nə qədər uzaqlaşsaq da, O, həmişə bizi eşidəcək və Ona fəryad edəndə bizi xilas edəcək. Bəzi insanlar həddindən çox pis qərarlar verdiklərini düşünərək İsanın ardınca getməkdən və ya toplantılarda iştirak etməkdən əl çəkirlər. Lakin Allah bizi həmişə bağışlayır, bərpa edir və sevir.

**Zəbur 145:8:** *Rəbb lütfkar və rəhmlidir, hədsiz səbirli və bol məhəbbətlidir.*

Yenə pis bir şey etdiyimiz vaxt nəyi xatırlamalıyıq? [29]

Hakimlər Kitabından nə öyrənirik? [30]

Pis olan hər şey Allahın cəzasıdır? [31]

Başqaları ilə necə rəftar etməliyik? [32]

Çətinliklər haqqında nə bilirik? [33]

## Allah bu gün bu kitab vasitəsilə sizə nə öyrətdi?

# Cavablar

1 – Xilaskara ehtiyacımız olduğumuzu xatırladır.
2 – İsadır!
3 – Hakimlər, Yeşua ilə ilk padşah Şaul arasındakı dövrdə Allahın xalqının rəhbərləri və xilaskarları idilər.
4 – 1. İsraillilər başqa allahlara ibadət edirlər.
2. Allah onları cəzalandırır və düşmənlərinin əlinə buraxır.
3. Onlar Allaha fəryad edirlər.
4. Allah onlara bir hakim verir və bu hakim onları xilas edir.
5. Hakim ölür.
5 – İsadır!
6 – İsraillilər yenidən başqa allahlara ibadət edirdi və vəziyyət getdikcə daha da pisləşirdi.
7 – Çünki O, əbədi olaraq yaşayır!
8 – Onlara bir xilaskar göndərirdi.
9 – İsraillilər yenidən başqa allahlara ibadət edirdi və vəziyyət getdikcə daha da pisləşirdi.
10 – Öz Oğlunu bizim günahlarımıza görə kəffarə qurbanı olaraq göndərdi.
11 – O, bizə Müqəddəs Ruhu verdi.
12 – Padşahım.
13 – *O dövrdə İsraildə padşah yox idi, hərə öz gözündə doğru görünən işi edirdi.*
14 – Onları köləlikdən xilas edən Padşaha, Rəbbə tabe olmalı idilər.
15 – Allah dedi ki, padşah israilli (yəni Rəbbə ibadət edən bir şəxs) olmalıdır. Çox arvad, at, gümüş və qızıl almamalıdır. Allahın qanunlarını bilməli və onlara əməl etməlidir.
16 – Yəhudilərin Padşahı.
17 – Yəhudilərin Padşahı.
18 – Padşahların Padşahı və ağaların Ağası.
19 – Hakimlər, bizim üçün yaxşı nümunə deyildirlər.
Hakimlər yalnız müvəqqəti xilas edə bilirdilər.
Hakimlər günah problemini həll edə bilmədilər.
Hakimlər, xalqı öz padşahları olan Allaha itaət etməyə inandıra bilmədilər.
20 – İsa!
21 – İsa!
22 – İsa!
23 – İsa!
24 – Dini şeylərə, ölmüş insanlara, telefonlarına, maşınlarına, böyük evlərinə ibadət edirlər.
25 – *Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla və bütün düşüncənlə sev.*
26 – Günahdan azad olmaq üçün bizi azad edəcək İsaya ehtiyacımız var.
27 – Sevdiklərini.
28 – Allah bizi İsaya daha çox bənzətmək üçün bütün çətinliklərdən istifadə edir.
29 – Allah həmişə bizi eşidəcək və Ona fəryad edəndə bizi xilas edəcək.
30 – İmansızlardan nümunə götürmək, onların etdiklərini etmək çox asandır.
Günah o qədər güclüdür ki, ondan öz başımıza əl çəkə bilmərik.
Allah bizi sevdiyi üçün tərbiyə edir.
Allah sadiq, şəfqətli və mərhəmətlidir.
31 – Xeyr.
32 – Şəfqətlə!
33 – Allah bizi İsaya daha çox bənzətmək üçün bütün çətinliklərdən istifadə edir.

17-ci dərs:

# Padşahlar



## 1 və 2 Şamuel

**1 Şamuel**də biz Şamuel, Şaul və Davud haqqında öyrənirik.

**Şamuel** bir peyğəmbər və sonuncu hakim idi. O, israillilərə Allah haqqında öyrətdi və günahlarını ifşa etdi.

Lakin israillilər başqa xalqlar kimi olmaq istəyirdilər. Allahın deyil, bir insanın onların padşahı olmasını istəyirdilər. Buna görə Allah onlara Şaulu verdi.

**Şaul** ilk padşah idi. O, Allaha itaətsizlik edəndə, Allah ona artıq padşah ola bilməyəcəyini dedi.

Sonra Allah xalqa başqa bir padşah verdi. Kimi verdi? [1]

O, necə bir insan idi (**Həvarilərin İşləri 13:22**)? [2]

**Davud** İsrailin ən böyük padşahı idi. 2 Şamuel Kitabında Davudun padşahlığı haqqında oxuyuruq. Ondan növbəti dərsdə bəhs edəcəyik.

Şamuel kim idi? [3]

Şaul kim idi? [4]

Davud kim idi? [5]

## 1 və 2 Padşahlar

Davuddan sonra növbəti padşah kim idi? [6]

O, nə tikdi **(1 Padşahlar 6:1–2)**? [7]

O, necə bir insan idi **(1 Padşahlar 10:23)**? [8]

Süleymanın hakimiyyəti dövründə israillilərin həyatı necə idi **(1 Padşahlar 4:25)**? [9]

Bu, Cənnətin bir obrazı idi!

Lakin daha sonra Süleyman günah etdi. O, nə etdi? **(1 Padşahlar 11:1–13)**? [10]

Beləliklə, biz Süleymanın padşahlığı necə məhv etdiyini görürük.

Allah ona qəzəbləndi. Belə ki, oğlunun padşahlığı dövründə Allah padşahlığı iki yerə böldü:

Şimal hissəsi **İsrail** adlanırdı və on qəbilədən ibarət idi.

Cənub hissəsi **Yəhuda** adlandırdı və iki qəbilədən ibarət idi: Binyamin və Yəhuda.




Şimal hissəsinin adı nə idi? [11]

Cənub hissəsinin adı nə idi? [12]

# İsrail

200 il ərzində İsrailin üzərində 20 nəfər pis padşah hökmranlıq etdi. Bu padşahlar xalqı başqa allahlara ibadət etməyə sövq edirdilər. İsrail padşahları getdikcə pisləşir və Allahdan daha da uzaqlaşırdı.

Axırda Allah Aşşur imperiyasını İsraili fəth etmək üçün göndərdi. Aşşurlular bir çox insanları öldürdülər və çoxlarını Aşşura apardılar. Bu, eramızdan əvvəl 722-ci ildə (İsanın anadan olmasından 722 il əvvəl) baş verdi (2 Padşahlar 17:5–23). Xəritəyə baxın: xətt insanların hara aparıldıqlarını göstərir.




İsrailin neçə padşahı yaxşı idi? [13]

Eramızdan əvvəl 722-ci ildə İsraili kim məğlub etdi? [14]

# Yəhuda

350 il ərzində Yəhudada 20 padşah hökmranlıq etdi. Bəzi padşahlar yaxşı, bəziləri isə pis olublar. Beləliklə, Yəhuda xalqı da İsrail xalqı kimi Allahdan getdikcə uzaqlaşdı.

Axırda Allah Babil imperiyasını Yəhudanı fəth etmək üçün göndərdi. Onlar çox sayda adam öldürdülər və çoxlarını Babilə apardılar. Bu, eramızdan əvvəl 586-cı ildə (İsanın doğulmasından 586 il əvvəl) baş verdi (2 Padşahlar 25). Onların haraya aparıldıqlarını görmək üçün xəritəyə baxın.




Yəhudanın neçə padşahı yaxşı idi? [15]

Eramızdan əvvəl 586-cı ildə Yəhudanı kim fəth etdi? [16]

## Allahın hökmü qətidir:

**Musanın** dövründə xalq azad edilmişdi, amma indi yenidən kölə oldular.

**Yeşuanın** dövründə torpaq xalqa verilmişdi. İndi onlar torpaqlarını itirdilər.

**Şamuelin** dövründə xalqa bir padşah verilmişdi. İndi padşah devrildi.

**Davudun** dövründə xalq düşmənlərindən azad olmuşdu. İndi isə onlar məğlub oldular.

**Süleymanın** dövründə Allahın hüzurunun əlaməti olaraq məbəd tikilmişdi. İndi isə məbəd dağıdıldı.

Allah, Öz vədlərinə əməl edir: Ona itaət edənlərə xeyir-dua verir, davamlı olaraq Ona itaətsizlik edənləri isə cəzalandırır (Qanunun Təkrarı 28:1–2, 15).

Əhdi-Ətiqdə Allahın Öz vədlərinə əməl etdiyini necə gördük? [17]

Allah günahı cəzalandırmalıdır. Amma təəccüblü olan odur ki, o, yalnız ədalətli deyil, həm də mərhəmətli Allahdır.

Yəhudanın sürgününün başlanmasından yetmiş il sonra nə baş verdi (2 Salnamələr 36:20–23)? [18]

Allah həmçinin Davudun nəslini də qorudu. Allah, Davuda onun nəslindən birinin əbədiyyən hökm sürəcək kamil padşah olan Məsih olacağını vəd etmişdi. Xalq əsirlikdən Yəhudaya qayıdanda, onların rəhbəri Davudun nəslindən Zerubbabil idi.

Ancaq bundan sonra Allahın xalqı artıq heç vaxt yadellilərin hökmranlığından azad olmadı (İsadan əvvəl yüz illik qısa bir dövr istisna olmaqla). Onlar azadlığa, öz torpaqlarına, yaxşı bir padşaha, əmin-amanlığa və Allaha həqiqi ibadət edə biləcəkləri bir yerə sahib olacaqları bir zamanın həsrətini çəkirdilər.

# Əhdi-Cədid

İsa nə gətirdi (**Mark 1:14–15**)? [19]

Padşah kimdir (**Matta 2:2**)? [20]

**Matta 12:42**-de İsa necə təsvir olunur? [21]

İsanın dövründə yaşayan yəhudilər Məsihi gözləyirdilər. Onun səltənəti, Süleymanın padşahlığı qədər əzəmətli olacaq idi. Amma İsanın səltənəti, Süleymanın padşahlığından qat-qat gözəl olacaq. İsanın Padşahlığında daha çox sülh, daha çox zənginlik və daha çox sevinc olacaq!

İsanın ecazkar Padşahlığına daxil olmaq üçün nə etməliyik? [22]

## Həyatınızın hansı sahələrində Padşah İsaya itaətsizlik edirsiniz?

# Cavablar

1 – Davudu.
2 – Allahı sevən bir insan idi.
3 – Peyğəmbər və hakim idi.
4 – İlk padşah idi.
5 – İsrailin ikinci və ən böyük padşahı idi.
6 – Onun oğlu Süleyman.
7 – Məbədi tikdi.
8 – Allah onu dünyanın ən müdrik və ən zəngin adamı etdi.
9 – Allah onun padşahlığını çox zəngin və dinc etdi.
10 – Bir çox yadelli arvadlarla evləndi və sonra onların allahlarına ibadət etdi.
11 – İsrail.
12 – Yəhuda.
13 – 20 padşahın hamısı pis idi!
14 – Aşşurlular.
15 – 20 padşahdan bəziləri yaxşı, bəziləri isə pis idi.
16 – Babillilər.
17 – Allah, Ona itaət edənlərə xeyir-dua verir. Əhdi-Ətiqdə Allah Öz xalqına azadlıq, torpaq, padşah, əmin-amanlıq və Allaha ibadət edə biləcəkləri bir məbəd verdi. Davamlı olaraq Ona itaətsizlik edənlərə gəlincə, Allah onları bu xeyir-dualardan məhrum edərək cəzalandırır.
18 – Yeni padşah, Fars padşahı Kir, İsrail övladlarına öz vətənlərinə qayıdıb məbədi bərpa etmək imkanı verdi.
19 – Allahın Padşahlığını.
20 – İsadır.
21 – İsa, Süleymandan böyük olan kimi təsvir olunur.
22 – Ona Padşahımız kimi tabe olmalıyıq!

# 18-ci dərs:

# Davud — ən böyük padşah



| 1000 | 722 | 586 → | 70 ildən sonra | 0 |
|---|---|---|---|---|
| Davud | İsraillilər sürgünə göndərilir | Yəhuda xalqı sürgünə göndərilir | Allahın xalqı qayıdır | İsa doğuldu |

**Peyğəmbərlər:** Yeşaya Yeremya Daniel Yezekel Haqqay, Malaki, Zəkəriyyə 400 ıl peyğəmbərlər olmadı

Davud nə vaxt yaşadı? [1]

Davudun padşahlığından sonra Allah, xalqı ilə danışmaq üçün bir çox peyğəmbərlər göndərdi.

Müqəddəs Kitabdakı peyğəmbərlik kitablarını yazan peyğəmbərlər eramızdan əvvəl 800–400-cü illərdə yaşamışlar.

Eramızdan əvvəl 400-cü ildən sonra Allah artıq peyğəmbər göndərmədi.

Allah, Müqəddəs Kitabdakı peyğəmbərlik kitablarını yazan peyğəmbərləri nə vaxt göndərdi? [2]

Allah, Davudun vasitəsilə Öz xalqını bir gün göndərəcəyi Padşaha, yəni Məsihə hazırladı. Davudun həyatı Məsihin bir obrazı idi və Allah, Davuda Məsih haqqında inanılmaz vədlər verdi.

# Davud Məsihin obrazı idi

## 1. O, Bet-Lexemdə doğuldu

Davud harada doğuldu (**1 Şamuel 17:12**)? [3]

İsa dünyaya gəlməmişdən 700 il əvvəl, Mikeya peyğəmbər Allahın Məsihinin haradan gələcəyini söylədi (**Mikeya 5:2**)? [4]

Əhdi-Cədidə əsasən, İsa harada doğuldu (**Luka 2:4–7**)? [5]

## 2. O, Allahın xalqını xilas etdi

1 Şamuel 17:48–53-də Davud Qolyatı öldürəndə, israillilər üçün nə etdi? [6]

Əhdi-Cədiddə İsa çarmıxda öləndə, Ona iman edənlər üçün nə etdi (**Yəhya 3:16–17; Kolosselilərə 12:1–22, İbranilərə 2:14**)? [7]

Beləliklə, Davud, Allahın Yaradılış 3:15-dəki vədinə görə Şeytanı məhv edəcək olan Məsihin obrazıdır.

## 3. O, çox əziyyət çəkən məsh edilmiş biri idi

Əhdi-Ətiqdə kim məsh edilirdi? (**Levililər 21:10; 1 Şamuel 10:1**)? [8]

Padşah Şaul uzun illər Davudu təqib etdi (bu barədə 1 Şamuelin 18–31-ci fəsillərində oxuya bilərsiniz). Bu müddət ərzində Davud çoxlu məzmurlar yazdı (bunlar Zəbur kitabına daxil olan ilahilərdir və bunlarda Məsih haqqında peyğəmbərliklər vardır).

Məsih, “məsh olunmuş” mənasına gəlir. Əhdi-Cədiddə İsa Məsih, Allahın vəd etdiyi məsh olunmuş Padşahdır. O, çarmıxda ölərkən bizim üçün əzab çəkən Məsihdir.

Davud necə əzab çəkdi? [9]

Əzab çəkdiyi müddətdə Davud nə yazdı? [10]

İsa necə əzab çəkdi? [11]

## 4. O, böyük bir padşah oldu

Axırda Davud İsrailin ən böyük padşahı oldu. Onun hakimiyyətinin sonunda İsrail şərqdə Fərat çayından qərbdə Misirə qədər uzanırdı.

Əhdi-Cədiddə İsa bütün yer üzündə hökm sürəcək padşahların Padşahıdır! (**Filipililərə 2:9–11**)!

Davud və İsa nə cür padşahlar idi? [12]

Davud hansı 4 cəhətdən Məsihin obrazı idi? [13]

1.

2.

3.

4.

# Məsihə işarə edən vədlər

**2 Şamuel 7:1–16**-nı oxuyun.

O vaxta qədər məbəd yox idi və israillilər Hüzur çadırında Allaha ibadət edirdilər.

Bəs bu fəsildə Davud nə etmək istəyir? [14]

Niyə? [15]

Allah Davuddan razı qalmışdı. Ancaq Allahın daha yaxşı planları var idi. Allah istəyirdi ki, Davudun oğlu Süleyman məbədi tiksin.

Lakin Allah Davuda üç heyrətamiz vəd verdi.

10-cu ayədə Allah nə vəd etdi? [16]

Allah onlara əbədi qalacaq və heç kimin poza bilməyəcəyi bir məskən vermək istəyir.

Lakin İsrail övladlarının Allaha qarşı üsyan etməyə davam etdiklərini bilirik.

Allah, Onu qəbul etmək istəməyən xalqına necə əbədi əmin-amanlıq yeri verə bilər?

Zamanla peyğəmbərlər başa düşməyə başladılar ki, əbədi əmin-amanlıq yerinə dair vəd, Məsihin gələcəyi zamana işarə edir (məsələn, Yeşaya 60:11).

Allah 15-ci ayədə nə vəd etdi? [17]

Davudun oğlu məbəd tikəcək. Məbəd, Allahın Öz xalqı ilə birlikdə yaşayacağı yerdir.

Ancaq Allah,  Ona qarşı həmişə itaətsiz olan insanlarla birlikdə yaşaya bilməzdi.

Buna görə peyğəmbərlər, bu vədin Məsihin əbədi hüzuruna da işarə etdiyini başa düşməyə başladılar (məsələn, Yezekel 48:35).

12, 13 və 16-cı ayələrdə Allah nə vəd etdi? [18]

Amma padşahlar getdikcə pisləşdiyi halda bu, necə ola bilərdi?

Beləliklə peyğəmbərlər başa düşməyə başladılar ki, bütün bu vədlər, Davudun nəslindən gələcək olan kamil Padşahla əbədi gələcəyə işarə edir (məsələn, Yeşaya 9:6–7).

Allah Davuda hansı üç vədi verdi? [19]

1.

2.

3.

İsa Davudun nəslindən idi. O, Allahın vəd etdiyi əbədi Padşahdır. O bizi əbədi olaraq Onunla birlikdə yaşayacağımız əbədi əmin-amanlıq yerinə aparacaq!

**Yəhya 14:1–3:** *Qoy ürəyiniz təlaşa düşməsin. Allaha iman edin, Mənə də iman edin. Atamın evində çoxlu məskən var. Əgər olmasaydı, sizə deyərdim ki, sizin üçün yer hazırlamağa gedirəm? Gedib sizin üçün yer hazırlayandan sonra yenə gəlib sizi Öz yanıma götürəcəyəm ki, Mənim olduğum yerdə siz də olasınız.*

İsa bu ayələrdə nə vəd edir? [20]

Biz həmçinin Vəhy kitabında bu əmin-amanlıq yeri haqqında oxuyuruq:

**Vəhy 21:3–4:** *Budur, Allahın məskəni insanların arasındadır. Allah onlarla birgə məskən salacaq; onlar Onun xalqı olacaq, Allah Özü onların Allahı olaraq aralarında yaşayacaq.*

Əbədi əmin-amanlıq yerində bizimlə birlikdə kim yaşayacaq? [21]

Beləliklə, Allaha itaətsiz olub cəzasını çəkməyə məcbur olan israillilər kimi olmayaq.

Allahı razı salmaq üçün əlimizdən gələni edək və İsanın yer üzünə qayıdıb bizi əbədi əmin-amanlıq yerinə aparmağına hazır olaq.

## Siz Allaha necə itaətsiz olursunuz? Düşüncələrinizdə, sözlərinizdə və hərəkətlərinizdə Allahı hansı yollarla razı salmırsınız?

## Biz nə etməliyik? Tövbə!

## *Əlavə:* Məbəd Eden bağına bənzəyirdi

Hüzur çadırı və daha sonra Məbəd Allahın xalqına Eden bağını xatırladırdı.

- Eden bağında **gözəl ağaclar və çiçəklər var idi**. Məbəd bir bağça kimi görünmək üçün bəzədilmişdi. Məbədin içində nar və çiçək şəkilləri çəkilmişdi. (1 Padşahlar 7:16–20).
- Eden bağında **qızıl və qiymətli daşlar** olduğu kimi, məbəd də qızıl və qiymətli daşlarla bəzədilmişdi (1 Padşahlar 7:48–50; 2 Salnamələr 3:6)
- Eden bağında **Allah gəzişdiyi** kimi, Hüzur çadırında və məbəddə də O, Öz xalqının arasında "gəzişirdi" (Levililər 26:11–12).
- Eden bağının **çıxışı şərq tərəfində olduğu kimi**, Məbədin çıxışı da şərq tərəfində idi (Yezekel 47:1)
- Eden bağının **çıxışını keruvlar qoruduqları** kimi (Yaradılış 3:24), məbədin pərdəsində də keruvlar şəkilləri var idi (2 Salnamələr 3:14). Keruvlar, Allahın Ən Müqəddəs yeri qoruduğunu göstərirdi. Sandığın üzərində də iki qızıl keruv dayanmışdı. Onlar Allahın müqəddəs olduğunu və insanların Ona yaxınlaşa bilməyəcəklərini göstərirdi.
- Eden bağında dörd çaya bölünən və dünyaya həyat verən bir **çay** axırdı. Yezekel 47-ci fəsildə də Allah, yeni Məbəddən hər kəsə həyat verən bir çayın axacağı zaman haqqında bir görüntü verdi.

Məbəd Allahın xalqına Eden bağını necə xatırladırdı? [22]

1.

2.

3.

4.

5.

6.

# Cavablar

1 – Təxminən eramızdan əvvəl 1000-ci ildə / İsanın doğulmasından 1 000 il əvvəl.
2 – Eramızdan əvvəl 800–400-cü illərdə.
3 – Bet-Lexem adlı kiçik bir şəhərdə.
4 – Bet-Lexemdə.
5 – Bet-Lexemdə.
6 – Onları filiştlilərdən xilas etdi.
7 – Onları ölümdən, günahdan və Şeytandan xilas etdi!
8 – Baş kahinlər və padşahlar.
9 – Padşah Şaul onu uzun illər təqib etdi.
10 – O, çoxlu sayda məzmurlar yazdı ki, bunlarda Məsih haqqında peyğəmbərliklər var idi.
11 – O, bizim üçün çarmıxda öldü.
12 – Davud İsrailin ən böyük padşahı oldu və İsa, yer üzündə hökm sürəcək padşahların Padşahıdır!
13 – 1) O, Bet-Lexemdə doğuldu,
2) Allahın xalqını xilas etdi,
3) çox əzab çəkən məsh edilmiş padşah idi və
4) böyük bir padşah oldu.
14 – Allah üçün böyük, gözəl bir məbəd tikmək istəyir.
15 – Çünki Allahı izzətləndirmək istəyir.
16 – Allah əbədi əmin-amanlıq yeri vəd etdi.
17 – O vəd etdi ki, lütfü onlardan əsla geri alınmayacaq. O həmişə onlarla olacaq!
18 – Allah Öz xalqına vəd etdi ki, onların həmişə Davudun nəslindən gələn bir padşahı olacaq.
19 – 1) Allah onlara əbədi əmin-amanlıq yeri vəd etdi;
2) Allah əbədi olaraq onlarla birlikdə olacaq;
3) Allahın xalqının həmişə Davudun nəslindən olan bir padşahı olacaq.
20 – Bizi Atasının evinə (əbədi əmin-amanlıq yerinə) aparmağa gələcəyini vəd etdi.
21 – Allahın Özü!
22 – 1) Orada gözəl ağaclar və çiçəklər,
2) qızıl və qiymətli daşlar var idi,
3) Allah orda gəzişirdi,
4) çıxış şərq tərəfdə idi,
5) keruvlar çıxışı qoruyurdu və
6) dünyaya həyat verən bir çay axırdı (gələcəyin bir görüntüsü).

## 19-cu dərs:

# Hikmət kitabları: Əyyub



Müqəddəs Kitabda beş hikmət kitabı var: Əyyub, Zəbur, Süleymanın Məsəlləri, Vaiz və Nəğmələr Nəğməsi.

Bu beş kitab, Allahı razı salmamız və başqalarına xeyir-dua verməmiz üçün bizə hikmətli həyat yaşamaqda kömək edir.

Bu kitablarda çoxlu şeirlər və ilahilər var. Bunlar qəlbimizə dərindən təsir edir, ən dərin hisslərimizi və duyğularımızı ifadə etməyimizə tez-tez kömək edir. Allah bizə emosiyalar verir, lakin onlar adətən gizli qalır. Məzmurlar bizə ürəyimizin dərinliklərində olan hissləri görüb Allaha ifadə etməkdə kömək edir. Biz bunu edəndə, Allah bizə təsəlli və şəfa verərək bizi bərpa edə bilər.

Bu beş hikmət kitabı insanların çəkdikləri əzab-əziyyətlərdən, hiss etdikləri sevgi-məhəbbətdən və digər təcrübələrdən bəhs edir və hikməti necə tapmağı öyrədir. Bu kitablar bizi həmişə Allaha, Onun məhəbbətinə və sədaqətinə yönəldir.

Allah bu kitablar vasitəsilə bizimlə danışmağı sevir!

Beş hikmət kitabı hansılardır? [1]

## Əyyub

Əyyub, əzab çəkən bir adamın hekayəsidir. Bu kitabı başa düşmək üçün onu sonuna qədər oxumaq lazımdır.

**1-ci və 2-ci fəsilləri** oxuyun.

Əyyub çox şey itirir. Nələri itirir? [2]

### Bizim üçün bir nümunə

1. **1:21**-də o, nə deyir? [3]

Bunu öz sözlərinizlə necə deyə bilərsiniz?

Bu, bizim üçün çox gözəl bir nümunədir: biz hər cür çətinliklərlə üzləşsək belə, Allaha həmd etməyi öyrənməliyik.

2. **2:10**-da o, nə deyir? [4]

Bunu öz sözlərinizlə necə deyə bilərsiniz?

Allahın bizə verdiyi yaxşını da, pisi də təvazökarlıqla qəbul etməliyik.

3. Amma Əyyub kamil deyildi. O, Allaha qəzəbləndi.

**3:11**-də o Allahdan nə soruşur? [5]

Bu da bizim üçün yaxşı nümunədir. Allaha nə hiss etdiyimizi deməliyik. Allah bizi başa düşür və Onunla səmimi danışmağımızı istəyir. Ağrılarımıza görə Ondan üz döndərməyimizi istəmir. Əyyub, ağrı və əzablarında Allaha güvənməyi öyrəndi.

Əyyub hansı 3 cəhətdən bizim üçün nümunədir? [6]

1.

2.

3.

## Allaha verilən suallar

Əyyub nə üçün əzab çəkdiyini bilmək istəyir. Allah onun suallarına cavab vermir. Amma daha sonra, 38–41-ci fəsillərdə, Allah onunla görüşür və bu onun üçün kifayət olur.

Allah danışanda, biz başa düşürük ki, O bizim suallarımıza cavab vermək məcburiyyətində deyil. Allah hər şeyə nəzarət edir. Allah hamının üzərində hökmranlıq edir. Hər şeyi başa düşməli deyilik, amma hər şeydə Allaha güvənməliyik. Biz Ona yaxşı gündə də, pis gündə də sadiq qalanda, O bizdən razı qalır.

Allahdan nə gözləməliyik? [7]

Allah bizdən nə gözləyir? [8]

## Hekayənin xoşbəxt sonu

**Əyyub 42:7–17**-ni oxuyun.

Əhdi-Ətiqdə ölümdən sonra nə olacağı barədə aydın məlumat verilmir. Bu ayələr bütün əzablardan sonra Allahın Əyyuba necə xeyir-dua verdiyini göstərir. Əhdi-Cədiddə Allah bizə bu dünyada xoşbəxt həyat verəcəyinə söz vermir. Bizim üçün bu fəsil, təsəvvürə gəlməz dərəcədə daha gözəl olacaq Cənnətin təsviridir!

Əyyubun sonu nəyin təsviridir? [9]

## Əlavə

Yalnız bir dəfə Əyyub, yəqin ki, dirildikdən sonra Allahla görüşmək ümidindən bəhs etdi. **Əyyub 19:25–27**-ni oxuyun.

## Günah və əzab

Əyyubun dostları deyirlər ki, bir insanın əzab çəkməsi onun günah işlətdiyinə işarədir. Əyyub, öz günahına görə əziyyət çəkmədiyini bilir, çünki o, saleh bir insandır. Kitabın əksər hissəsində Əyyub dostları ilə bu barədə mübahisə edir!

Bu kitab bizə, çəkdiyimiz əzabın həmişə işlətdiyimiz günahlara görə olmadığını öyrədir. İsa heç vaxt günah etmədiyi halda rədd olundu, ədalətsizliyə məruz qaldı və qəddarcasına öldürüldü. O, bütün əzablarımıza son qoymaq üçün əziyyət çəkdi! Bu nə vaxt olacaq? [10]

Əzablarımız davam etdikcə biz bilirik ki, Allah onlardan yaxşılığımız üçün istifadə edir. Məsələn:

**Yaqub 1:2–4:** Allah əzablarımızdan yaxşılıq üçün necə istifadə edir? [11]

Biz əzab çəkəndə, bizim iki seçimimiz var: ya hirslənə bilərik, ya da bunu İsaya daha çox bənzəmək üçün fürsət saya bilərik.

**İbranilərə 13:5**-də Allah bizə nə vəd etdi? [12]

Əgər kimsə əzab çəkirsə, bu, onun səhv bir şey etdiyinə işarə edirmi? [13]

Heç bir səhv etmədiyi halda əzab çəkən bir insanı misal gətirin. [14]

Nə vaxt daha əzab-əziyyətlər olmayacaq? [15]

Allah bütün əzablarımızdan yaxşılığımız üçün necə istifadə edir? [16]

Biz əzab çəkəndə, hansı iki seçimimiz var? [17]

İbranilərə 13:5-də Allah bizə nə vəd etdi? [18]

Allah bizə bu həyatda bütün çətinliklərə dözmək üçün lütf versin!

### Əyyubun kitabı vasitəsilə Allah sizə nə öyrətdi?

## Cavablar

1 – Əyyub;
Zəbur;
Süleymanın Məsəlləri;
Vaiz;
Nəğmələr Nəğməsi.
2 – Mülkünü, uşaqlarını və axırda sağlamlığını.
3 – *Bu dünyaya çılpaq gəlmişəm, çılpaq da gedəcəyəm. Verən də Rəbdir, alan da Rəbdir. Rəbbin isminə alqış olsun!*
4 – Allahdan yalnız yaxşılığı qəbul edib, bəlaları qəbul etməməliyik?
5 – Mən nə üçün dünyaya gəlmişəm?
6 – 1) Bütün çətinliklərə tab gətirərkən belə, Allaha həmd etməyi Əyyubdan öyrənirik.
2) Allahın bizə yaşatdığı yaxşı və pis olan hər şeyi təvazökarlıqla qəbul etməyi öyrənirik.
3) Hisslərimiz haqqında Allahla danışmağı ondan öyrənirik.
7 – O, bütün suallarımıza cavab verməsə də, Onun üzünü axtardığımız zaman Özünü bizə göstərir.
8 – Yaxşı gündə də, pis gündə də ona güvənməliyik.
9 – Cənnətin.
10 – İsa təkrar yer üzünə gəlib bizi Cənnətə aparanda.
11 – İmanımızın sınaqdan keçməsi bizdə dözüm yaradır. Dözüm də öz əməlini kamil edəcək ki, biz yetkin və kamil adamlar olaq, heç bir çatışmamazlığımız olmasın.
12 – Səni əsla tərk etməyəcəyəm və əsla buraxmayacam.
13 – Xeyr.
14 – İsa.
15 – İsa təkrar yer üzünə gəlib bizi Cənnətə aparanda.
16 – İmanımızın sınaqdan keçməsi bizdə dözüm yaradır. Dözüm də öz əməlini kamil edəcək ki, biz yetkin və kamil adamlar olaq, heç bir çatışmamazlığımız olmasın.
17 – Hirslənə bilərik, ya da bunu İsaya daha çox bənzəmək üçün fürsət saya bilərik.
18 – Səni əsla tərk etməyəcəyəm və əsla buraxmayacam.

## 20-ci dərs:

# Hikmət kitabları: Zəbur



## Heç bilirsiniz ...?

- Müqəddəs Kitabın ən çox fəsildən ibarət olan kitab Zəburdur.
- Bu kitab, 150 fəsildən ya da nəğmədən ibarətdir (bunlara həmçinin "məzmurlar" deyilir).
- Bu kitabdakı nəğmələr 700 il ərzində yazılmışdır.
- Bu nəğmələrin çoxunu padşah Davud yazıb. Digərlərinin müəllifləri Musa, Süleyman və bir çox başqa adamlardır.
- Əhdi-Cədid müəllifləri, Əhdi-Ətiqin digər kitablarından daha çox Zəbur kitabından sitat gətirirlər. Məzmurlar, Əhdi-Cədidin 4 kitabından başqa hamısında sitat gətirilmişdir!
- Zəbur Kitabında Məsihə dair peyğəmbərliklər digər Əhdi-Ətiq kitablarından daha çoxdur.
- Əhdi-Cədiddə Zəbur, İsa daxil olmaqla bütün yəhudilərin nəğmə kitabı idi. Madam ki, İsa bu nəğmələri oxudu, biz də onları oxumalıyıq!
- Bu nəğmələri oxuyanda, əsas mövzunu başa düşmək üçün bir neçə dəfə oxumalıyıq.

Zəbur Kitabında neçə nəğmə var? [1]

Bu nəğmələrin çoxunu kim yazıb? [2]

Əhdi-Cədiddə Zəbur, kimin nəğmə kitabı idi? [3]

Bir nəğmənin əsas mövzusunu tapmaq üçün nə etmək lazımdır? [4]

## Zəburun üç əsas növü:

1. Allaha həmd etmək üçün istifadə oluna biləcək çoxlu nəğmələr var. 100-cü Məzmuru (**Zəbur 100**) oxuyun.

2. **Etdiklərinə görə Allaha şükür etmək** üçün istifadə oluna biləcək bir çox nəğmələr var. **Zəbur 116**-nı oxuyun. Bu məzmurun müəllifi, onu xilas etdiyinə görə Allaha şükür edir.

3. Ağır zamanlarda **Allaha fəryad etmək** üçün istifadə oluna biləcək bir çox nəğmələr var. Məsələn, **Zəbur 88:18-də müəllif hansı hisslərini ifadə edir?**

   **Zəbur 88:18:** *Yarımı, yoldaşımı məndən uzaqlaşdırmısan, yalnız qaranlıqla həmdəm olmuşam.* [5]

Bir nəğməni oxuyanda müəllifin onu yazarkən hansı hissləri keçirdiyini düşünməliyik. Biz də bəzən eyni hissləri keçiririkmi?

Bu sözlərlə Allaha həmd, şükür və fəryad edə bilərik!

Allah bizə hər vəziyyət və hər emosiya üçün sözlər verir!

Zəburdan hansı üç əsas məqsəd üçün istifadə edə bilərik? [6]

1.

2.

3.

# Məzmurlar İsanı tanımağımıza kömək edir

1. Yadda saxlamalıyıq ki, padşah Davud bizi Məsihə yönləndirir. Davudun yaşadığı vəziyyətlər çox vaxt İsaya işarə edir.

   Misal üçün:

   - Davud çəkdiyi əzabları daha şiddətli olaraq təsvir edir. **Zəbur 22:12–18**-i oxuyun. Bu, çarmıxa çəkilmənin icad edilməsindən yüz illər əvvəl yazılmış heyrətamiz bir təsviridir!

   - Davud, böyük padşah idi, lakin bəzən elə təsvir olunur ki, bu təsvirlər Davuda aid ola bilməz. **Zəbur 2:6–9**-u oxuyun. Bu peyğəmbərliklər bütün dünyanın padşahı olacaq Məsihə aiddir!

2. Məzmurlarda Allah haqqında oxuduqlarımız bizə İsanın kim olduğunu göstərir.

   Misal 1: **Zəbur 103:2–3**-ü oxuyun. Allah 3-cü ayədə nə edir? [7]

   **Mark 2:1–12** ilə müqayisə edin: İsa nə edir? [8]

   Misal 2: **Zəbur 23:1**-i oxuyun. Bu Allahı necə təsvir edir? [9]

   **Yəhya 10:11** ilə müqayisə edin: İsa haqqında nə yazılıb? [10]

Davudun həyatının Məsihə necə bənzədiyinə dair iki misal gətirin. [11]

1.

2.

Zəburda Ata Allah haqqında deyilənlərin Oğul Allaha da aid olduğuna iki misal gətirin. [12]

1.

2.

Zəbur bizi İsaya yönəltsin!

Ən sevdiyiniz məzmur hansıdır? Nə üçün onu xoşlayırsınız? [13]

## *Əlavə*



Zəburda bəzi ayələr var ki, müəllif Allahdan düşmənlərini mühakimə etməsini diləyir və başlarına dəhşətli şeylərin gəlməsini istəyir. Məsələn, **Zəbur 109**.

Əhdi-Cədiddə qisas haqqında nə öyrənirik? **Romalılara 12:17–19**-a baxın. [14]

İnsanlar Allahın xalqını təqib edəndə, qisas almaq bizim işimiz deyil. Ancaq biz dua etməliyik və bu vəziyyətə görə nə hiss etdiyimizi Allaha deyə bilərik. İnsanlar Allahın övladlarını təqib edəndə, Allah bizdən daha çox qəzəblənir. İsa yaxında təkrar gələcək və bütün pis insanları ədalətlə mühakimə edəcək!

## Cavablar

1 – 150.
2 – Padşah Davud.
3 – İsa Məsihin.
4 – Onu bir neçə dəfə oxumaq lazımdır.
5 – Həyatın bundan daha pis ola bilməyəcəyini düşünür. İndi onun heç bir dostu yoxdur, yalnız qaranlıq.
6 – 1) Allaha həmd,
2) şükür və
3) fəryad etmək!
7 – Allah bizim günahlarımızı bağışlayır və xəstəliklərimizə şəfa verir.
8 – Günahlarını bağışlayır və ona şəfa verir.
9 – O, mənim çobanımdır.
10 – İsa yaxşı Çobandır.
11 – 1) Davud əzab çəkdi və
2) böyük bir padşah idi.
12 – Zəburda Allah, İncildə İsa
1) Xilaskarımız və
2) yaxşı Çobanımızdır.
13 – Məsələn, 23-cü məzmur: Allah bizə sədaqətlə rəhbərlik edəcək, qayğımıza qalacaq və bizə lazım olan gücü verəcək. Bizim vəzifəmiz Onun ardınca getməkdir.
14 – Biz heç kimə pisliyə pisliklə cavab verməməliyik. Qisas almamalıyıq, lakin Allahın qəzəbinə yer verməliyik.

## 21-ci dərs:

# 91-ci məzmur



Bu məzmuru oxuyun.

Bu məzmurda padşaha verilən vədlər axırda Məsihə və eyni zamanda bizə də aiddir.

## Allah bizim qalamızdır

İnsanlar nə üçün narahat olurlar? [1]

Məzmur 91:2: Müəllif Allah haqqında nə deyir? [2]

Qala müharibə zamanı təhlükəsiz bir yerdir. Biz onun içində gizlənib təhlükəsiz ola bilərik.

4-cü ayədə Allah nəyə bənzədilir? Allahın xalqı nəyə bənzədilir? [3]

Bir quş qanadları ilə balalarını təhlükədən qoruduğu kimi, Allah da bizi təhlükədən qoruyur.

5–6-cı ayələri oxuyun. Biz Allahın xarakterini düşündükcə və Allahın necə olduğunu xatırladıqca nə baş verir? [4]

7–8-ci ayələri oxuyun. Bu ayələrdə Allahın pis insanları mühakimə etməsi və Öz xalqını qoruması təsvir olunur. Bu ayələr bizə İsanın dünyanı mühakimə etmək üçün təkrar yer üzünə gələcəyi qiyamət günündə keçirəcəyimiz hissləri yaşadır. O gündə Allahın hökmünə tabe olmayanlar əbədi olaraq cəzalandırılacaqlar.

Allahın hakimiyyətinə və ilahi Padşah olan Məsihə tabe olanların aqibəti nə olacaq? (ayə 8) [5]

Beləliklə, biz Allahın xarakterini düşündükcə və Allahın necə olduğunu xatırladıqca nə baş verir? [6]

# İblis və Məsih arasındakı mübarizə

## İblis Məsihi məğlub etməyə çalışır

İblis, Eden bağındakı günlərindən bəri Məsihin gəlişindən qorxurdu (Yaradılış 3:15). İsa yer üzündə doğulandan sonra Onu öldürməyə çalışırdı (Matta 2:13–16). Buna müvəffəq olmadıqdan sonra İsanı yıxmaq üçün səy göstərdi.

İblis **Matta 4:5–7**-də bu məzmurun ayələrindən necə istifadə etdi? [7]

İsa nə üçün məbədin qülləsindən atılsa, Allahın onu qoruyacağını Şeytana sübut etmək istəmədi (Matta 4:7)? [8]

Həm də Şeytanın dediyini etmək həmişə səhvdir!

**Matta 4:11**-i oxuyun. Zəbur 91:11-də Allahın vədinə əsasən mələklərin həqiqətən gəlib İsaya kömək etdiyini görürük.

## Məsih Şeytanı məğlub edir

**Zəbur 91:13:** Güzrə və əfi ilan Şeytanın rəmzi, şir isə pislik edənlərin rəmzidir (Məzmur 22:13).

**Yaradılış 3:15**-də Allah (ilan cildinə girən) Şeytana nə dedi? [9]

Şeytan, Həvvanın nəslindən gələn bir İnsan tərəfindən məğlub ediləcək, lakin bu İnsanın Özü da Şeytanı məğlub edərkən əzab çəkəcək.

Məzmur 91:13-də Məsih nə edəcək? [10]

İblisi və ona xidmət edən hər kəsi məğlub edəcək!

Deməli, Məsihin vəzifəsi nə idi? [11]

# Çətinliklər gələndə

15–16-cı ayələrdə Allah, Onu sevən insana nə vəd edir? [12]

*Allah vəd edir ki,*

- ona yar olacaq;
- onu xilas edəcək;
- onu şərəfə-şana çatdıracaq;
- onu uzun ömürlə doyuracaq;
- ona qurtuluşunu göstərəcək.

**Filipililərə 2:8–11**-i oxuyun. Allah Məsihə verdiyi vədləri yerinə yetirdimi? [13]

Allah İsanı **əzab çəkərkən və ölərkən** xilas etdi. İsanın ölümü, Allahın İsanın qayğısına qalmadığını göstərmir. Əksinə, İsa əziyyət çəkərkən Allah Ona yar oldu. Allah Onu xilas etdi (ölülərdən diriltdi). Allah Onu şərəfə-şana çatdırdı. İndi İsa əbədi olaraq yaşayır. Və İsanın Allaha tabe olması vasitəsilə Allah bir çox insanlara qurtuluşunu göstərdi.

13-cü ayədə Məsihin nə edəcəyi barədə nə deyilir? [14]

Biz İsaya bel bağlayanda, Şeytandan və cinlərindən qorxmaya bilərik.

15-ci ayədə Allah haqqında nə deyilir? [15]

Allah bizi günün hər dəqiqəsində mələkləri ilə qoruyur! Lakin Müqəddəs Kitabda həmçinin deyilir ki, bəzən Allah pis hadisələrə də yol verir.

İsanın ardınca gedənlərin heç bir problemi olmayacağını deyənlərə qulaq asmayın.

**Yəhya 16:33**-də İsa şagirdlərinə nə dedi? [16]

Biz əziyyət çəkəcəyik, amma İsa bizə sülh verir.

**Romalılara 8:38**-də Allahın bizə verdiyi gözəl vəd nədir? [17]

İsanın ardınca gedəndə bizi Allahın məhəbbətindən heç nə ayıra bilməz!

Deməli, İsanın davamçılarının əziyyətləri olacaqmı? [18]

Romalılara 8:38-də Allah bizə nə vəd edir? [19]

# Allahın planları

İsa bu məzmuru yaxşı bilirdi. Ölümündən bir gün əvvəl Zeytun Dağında olarkən, **Luka 22:42**-də O necə dua etdi? [20]

İsa başa düşürdü ki, Allah bizi şərdən qoruya bilər, lakin bəzən Onun daha uca planları olur.

**Luka 22:43**-ü oxuyun. Allah yenə İsanı qüvvətləndirmək üçün bir mələk göndərdi.

Eyni şəkildə, biz bilirik ki, Allah bizi şərdən qoruya bilər, lakin bəzən Onun daha uca planları olur. Əgər O bizdən çətinliklərə tab gətirməyimizi istəyirsə, bilməliyik ki, O, bizə kömək etmək üçün həmişə Öz mələklərini göndərəcək!

**Romalılara 8:28–29**-da Allahın həyatımızdakı çətinliklərdən istifadə etməsi barədə nə öyrənirik? [21]

Beləliklə, nə üçün Allah həyatımızda çətinliklərə yol verir? [22]

# Əbədi həyat

Allah Məzmur 91:16-da nə vəd edir? [23]

Əhdi-Ətiq axirət haqqında çox az məlumat verir. Əhdi-Ətiqdə uzun ömür Allahın xeyir-duasının əlaməti idi.

Əhdi-Cədiddə Allah bizə bu dünyada uzun ömür vəd etmir, amma daha yaxşısını, əbədi həyatı vəd edir. Axı Allahla birlikdə əbədi həyat, təsəvvür edə biləcəyimizdən qat-qat daha gözəldir!

İsa bizi günahdan, ölümdən və Şeytandan xilas etdi! O, bizə əbədi həyatı əvəzsiz bir ənam olaraq bəxş etdi! Biz heç nədən qorxmamalıyıq!

Allahın planlarını hər zaman görə bilmərik, lakin bizim vəzifəmiz, İsa Allaha etibar etdiyi kimi **Allaha etibar etməkdir**.

Allah bizim qayğımıza qalacağına, ömrümüz boyu bizə yar olacağına və bizə əbədi həyat bəxş edəcəyinə söz verir. Buna görə də qorxmamalıyıq!

Allah bizə nə vəd edir? [24]

Buna görə bizim vəzifəmiz nədir? [25]

### Bu məzmurdan hansı ayəni daha çox xatırlamağa ehtiyacınız var?

# Cavablar

1 – İnsanlar sağlamlığa, gələcəyə, imtahanlara, uşaqlara görə narahat olurlar, amma ən çox pula görə narahat olurlar.
2 – Allah bizim sığınacağımız və qalamızdır.
3 – Allah güclü bir quş kimidir, biz isə zəif balalar kimiyik.
4 – Biz heç nədən qorxmuruq!
5 – Allah onları qoruyacaq.
6 – Biz heç nədən qorxmuruq!
7 – İblis, 11–12-ci ayələrdən istifadə edərək İsanı Özünü məbədin qülləsindən aşağı atmağa və beləcə Allahın Oğlu olduğunu hamıya sübut etməyə çalışırdı.
8 – Çünki Allahı sınamaq yanlışdır.
9 – *Səninlə qadın arasına, sənin nəslinlə onun nəsli arasına ədavət salacağam: **O sənin başını əzəcək, sən də onu dabanından vuracaqsan**.*
10 – Məsih, şiri və gürzəni ayaqlayacaq, gənc aslan və əfi ilanı tapdalayacaq.
11 – Şeytanı məğlub etmək idi.
12 – *Məni çağırarkən ona cavab verəcəyəm, dar günündə ona yar olacağam, onu xilas edib şərəfə-şana çatdıracağam.*
13 – Bəli!
14 – Məsih iblisi məğlub edəcək! Beləliklə, Allahın xalqı bütün pisliklərdən qoruna biləcək!
15 – Allah dualarımızı eşidir və dar günümüzdə bizə yar olacağına söz verir.
16 – *Məndə sülhünüz olsun deyə bunları sizə söylədim. Dünyada əziyyətiniz var, amma cəsarətli olun! Mən dünyaya qalib gəldim.*
17 – *Nə ölüm, nə həyat, nə mələklər, nə başçılar, nə indiki, nə də gələcək şeylər, nə qüvvələr, nə ucalıq, nə dərinlik, nə də başqa bir məxluq bizi Rəbbimiz Məsih İsada olan Allah məhəbbətindən ayırmağa qadir olmayacaq.*
18 – Bəli!
19 – Bizi Allah məhəbbətindən qətiyyən heç bir şey ayıra bilməyəcək!
20 – Ey Ata, əgər Sənin iradənə məqbuldursa, bu kasanı Məndən uzaqlaşdır. Amma Mənim yox, Sənin iradən olsun.
21 – Allah bizi İsaya daha çox bənzətmək üçün həyatımızda olan çətinliklərdən istifadə edir.
22 – Bizi İsaya daha çox bənzətmək üçün.
23 – *Onu uzun ömürlə doyduracağam, ona qurtuluşumu göstərəcəyəm.*
24 – Allah bizim qayğımıza qalacağını, ömrümüz boyu bizə yar olacağını və bizə əbədi həyat verəcəyini vəd edir.
25 – Allaha etibar etmək və qorxmamaq!

## 22-ci dərs:

# Hikmət kitabları: Məsəllər, Vaiz və Nəğmələr Nəğməsi



## Süleymanın Məsəlləri

**1:2**-ni oxuyun. Bu kitabın məqsədi nədir (öz sözlərinizlə)? [1]

Kimin hikmətə ehtiyacı var? [2]

## 1–9-cu fəsillərin icmalı

İlk 9 fəsil bizi hikmətin səsinə qulaq asmağa çağırır.

**1:7**-ni oxuyun. Biliyin başlanğıcı nədir? [3]

Kim hikmətə və tərbiyəyə xor baxar? [4]

Bir çox ayələr iki növ insandan bəhs edir: hikmətli və səfeh. Biz hansından olacağıq: hikmətli yoxsa səfeh?

**1:8–9**-u oxuyun. Oğul nə etməlidir? [5]

**4:14**-ü oxuyun. Oğul nə etməməlidir? [6]

Bizi Allahdan uzaqlaşdıran başqa səslərə deyil, hikmətin səsinə qulaq asmalıyıq.

**3:5–6**-nı oxuyun.  Əgər nə edəcəyimizi bilmiriksə, nə etməliyik? [7]

Biz Allaha təslim olanda və Ondan hikmət diləyəndə O, bizi yaxşı və doğru yollara aparır. Bu, Yaxşı Çobanımız olan Allahın bizi doğru yollara yönəltdiyi təsvir olunan 23-cü məzmura bənzəyir.

Bu kitabda hansı iki növ insandan bəhs olunur? [8]

# 10–31-ci fəsillərin icmalı

Doqquz fəsildən sonra, çoxlu sayda ayrı məsəllər yer alır. Bu məsəllər, bir qayda olaraq, pul, iş, söz-söhbət, ev, dostluq, ailə, hökumət, yaşayış kimi hamımıza məlum olan mövzulara toxunur.

Bir misala nəzər salaq:

**14:1**-i oxuyun. Hikmətli qadın nə edər? [9]

Bu nə deməkdir? [10]

Səfeh qadın nə edər? [11]

Bu nə deməkdir? [12]

Bu, kişilərə də aiddir!

10–31-ci fəsillərdə hansı mövzulara toxunulur? [13]

Bunlar hamımız üçün çox vacib mövzulardır!

# Bunlar vədlər deyil

Bu kitabdakı məsəllər vədlər deyil, müəllifin həyatında gördükləridir.

Burada həmişə deyil, adətən baş verənlər təsvir olunur.

Bu ayəni oxuyun.

**Süleymanın Məsəlləri 13:25:** *Saleh yeyib doyar, şər adamsa ac qalar.*

Salehlərin yeməyi həmişə çoxdurmu? [14]

Şər adamların yeməyi həmişə azdırmı? [15]

Salehlərin bəzən ac qaldıqlarını bilirik. Bu, çox vaxt başqalarının günahları ucbatından olur: məsələn, müharibə, hökumətin ədalətsizliyi, ailədə bir nəfərin bütün pulunu spirtli içkilərə xərcləməsi və s. Biz Allaha tabe olmayan bir dünyada yaşayırıq!

Adətən bu ayələr düzgündür: Əhdi-Ətiqdə normal vəziyyətdə salehlik xeyir-duaya səbəb olur, qanunsuzluq isə səfalətə aparırdı. Əhdi-Cədiddə biz öyrənirik ki, bu xeyir-dualar və cəzalar, İsanın ikinci gəlişində insanlara veriləcək əbədi xeyir-duaların və cəzaların bir obrazıdır. Ümidimiz, bu dünyanın maddi xeyir-dualarına əsaslanmır.

Həyatımız bu məsəllərdə təsvir olunanlara bənzəməyəndə, bunlar bizə xatırladır ki, **bu ayələrin gerçəkləşəcəyi gün gələcək** və bütün salehlər yeyib doyacaq! Bu nə vaxt olacaq? [16]

Hal-hazırda həyatımıza uyğun gəlməyən ayələr, bu kitabın böyük hikmətindən öyrənməyinizə mane olmasın!

Həyatımızda bu kitabdakı məsəllərdən birinin ziddini görəndə, nəyi xatırlamalıyıq? [17]

Bu kitabda ən çox sevdiyiniz ayə hansıdır?



# Vaiz

**Vaiz 1:1—14**-ü oxuyun.

Bu kitab, həyatın mənası haqqındadır.

Kitabın nədən bəhs etdiyini başa düşmək üçün bütün kitabı oxumaq lazımdır.

Əsas mövzu budur: **Allah olmasa, həyatımızın mənası yoxdur.** Çalışmağın mənası nədir? Yaxşı olmağın mənası nədir? İnsanlarla mehriban olmağın mənası nədir?

Müəllif hər şeyin puç olduğunu, külək dalınca qaçmağa bənzədiyini tez-tez söyləyir (məsələn, 1:14). Sizcə bu nə deməkdir? [18]

Kitabın sonuna yaxınlaşanda müəllif belə qənaətə gəlir:

**Vaiz 8:15:** *Beləcə mən kef çəkməyi üstün saydım, çünki səma altında insan üçün yeyib-içməkdən və kef çəkməkdən yaxşı şey yoxdur. Çünki səma altında Allahın insana ömrü boyu çəkdirdiyi zəhmətdən ona ancaq bu qalır.*

Allah bizə verdiyi həyatdan həzz almağımızı istəyir!

Amma bəzən biz həyatın mənasızlığını görürük: hər gün işə gedirik, hər gün eyni şeyi edirik.

Lakin həyatın mənasızlığı bizi İsanın ikinci gəlişini arzulamağa təşviq etməlidir. Yeni Yerdəki həyat mənalı, gözəl və heyrətamiz olacaq! Bu dünya bizim əsl evimiz deyil!

Həyatın mənasızlığı bizi nə arzulamağa təşviq etməlidir? [19]



# Nəğmələr Nəğməsi

Nəğmələr Nəğməsi Kitabı qadınla kişi arasındakı sevgidən bəhs edir.

Kişi ilə arvadı arasında yaxşı münasibət, Allahın çox qiymətli bir ənamıdır.

O bizə, Allahın bizi nə qədər çox sevdiyini xatırladır!

**Efeslilərə 5:22–33**-ü oxuyun.

Bir kişi ilə qadının evlənməsi nəyə işarə edir? [20]

**Vəhy 19:6–8**-i oxuyun.

Bəy kimdir, gəlin kimdir? [21]

**Nəğmələr Nəğməsi 2:16:** *Sevgilim mənimdir, mən də onunan.*

Bu, bizə və İsaya aiddir!

Biz bilməliyik ki, heç kimin bizi sevmədiyini hiss etsək də, İsa bizi hamıdan çox sevir! Biz İsa ilə vaxt keçirəndə, İsa bizi Öz sevgisi ilə doldurur ki, biz də ətrafımızdakı insanlara Onun sevgisini göstərə bilək.

**Nəğmələr Nəğməsi 4:1:** *Ey yarım, nə gözəlsən, nə gözəlsən!*

Biz bilməliyik ki, çox gözəl görünmədiyimizi düşünsək belə, İsa üçün hər zaman gözəlik! Nə qədər gözəl olduğumuzu anladıqda, başqalarına məhəbbət, qayğı və hörmət göstərərək onların da nə qədər gözəl olduqlarını göstərə bilərik.

İsa sizə nə deyir? [22]

Bir kişinin həyat yoldaşına olan sevgisi bizə nəyi xatırlatmalıdır? [23]

Evlənmə nəyə işarə edir? [24]

Kim bizi ən yaxşı həyat yoldaşından daha çox sevir? [25]

## Bu dərsdə Allah haqqında nə öyrəndik?

# Cavablar

1 – Hikmətdə və anlayışda böyüməmizə kömək etməkdir.
2 – Hamımızın hikmətə ehtiyacı var!
3 – Rəbb qorxusu.
4 – Səfehlər.
5 – Öz atasının nəsihətini dinləməli və anasının təlimini rədd etməməlidir.
6 – Şər adamlarla vaxt keçirməməli və onların etdiklərini etməməlidir.
7 – Bütün qəlbinlə Rəbbə güvənməliyik, öz idrakına etibar etməməliyik. Bütün yollarında Onu tanımalıyıq və O bizim yollarımızı düzəldəcək.
8 – Hikmətli və səfeh.
9 – Evini tikir.
10 – Bu o deməkdir ki, onun bütün fikirləri, sözləri və hərəkətləri ailəsinə sevinc və birlik gətirir.
11 – Öz əlləri ilə öz evini yıxar.
12 – Bu o deməkdir ki, onun düşüncələri, sözləri və hərəkətləri ailəni bədbəxt edir və parçalayır.
13 – Pul, iş, söz-söhbət, ev, dostluq, ailə, hökumət, yaşayış kimi mövzulara.
14 – Xeyr.
15 – Xeyr.
16 – İsa təkrar gəlib bizi əbədi vətənimizə aparanda.
17 – Bu ayələrin gerçəkləşəcəyi günü, Allahın bütün xalqına təsəvvür edə biləcəyimizdən daha çox xeyir-dua verəcəyi günü gözlədiyimizi xatırlamalıyıq!
18 – Bu o deməkdir ki, Allah olmasa həyatımızın mənası yoxdur, həyat boş və mənasızdır.
19 – İsanın ikinci gəlişini.
20 – Evlənmə İsa ilə imanlılar cəmiyyəti arasındakı yaxın münasibətə işarə edir.
21 – Bəy İsadır, gəlin imanlılar cəmiyyətidir.
22 – Sən gözəlsən!
23 – Allahın bizə olan məhəbbətini!
24 – İsanın və imanlılar cəmiyyətinin evlənməsinə.
25 – İsa!

## 23-cü dərs:

# İsrailin və Yəhudanın peyğəmbərləri



Beş hikmət və nəğmə kitablarından sonra peyğəmbərlərin kitabları var.

## Əhdi-Ətiqdə peyğəmbər kimdir?

Peyğəmbər, Allahın sözlərini bəyan etməsi üçün seçdiyi bir adamdır. Əhdi-Ətiqdə peyğəmbərlərin əksəriyyəti Allahın xalqına müraciət edirdi, lakin bəzi peyğəmbərlər (Yunus kimi) Allahın sözlərini başqa xalqlara da bəyan edirdilər.

Yalançı peyğəmbər Allahın sözlərini deyil, öz sözlərini danışır. Həqiqi peyğəmbər Allahın sözlərini danışır və dedikləri həyata keçir.

Əhdi-Ətiqdə peyğəmbər kimdir? [1]

## Allah nə üçün peyğəmbərlər göndərdi?

Onları bu məqsədlərlə göndərdi:

1. Allahın qanunlarına tabe olmadıqları üçün insanlara **xəbərdarlıq** etmək;
2. Allahın yalnız Öz xalqını deyil, başqa millətləri də **mühakimə edib cəza** verəcəyini söyləmək;
3. Allahın Öz xalqına və başqa millətlərə də **xeyir-dua** verəcəyini söyləmək.

Allah öz xalqına hansı üç məqsədlə peyğəmbərlər göndərdi? [2]

Bundan əlavə, Allah peyğəmbərlər vasitəsilə xalqına gözəl vədlər vermişdir:

- Allah, sürgündən sonra Öz xalqını **Yerusəlimə** geri aparacaq.
- Allah, insanları **günahlarından xilas etmək üçün** Xilaskarı göndərəcək.
- Allah Öz xalqını vətənlərinə, **göylərə** aparacaq.

Bu vədlər çox vaxt üç ayrı hadisə kimi deyil, bir hadisə kimi verilir.

Allah Öz xalqına hansı gözəl vədlər verdi? [3]

# Peyğəmbərlər kimə müraciət edirdilər?

**Huşə, Amos** və **Yunus** İsrail xalqına müraciət edirdilər.

**İlyas** və **Elişa** da İsrailin peyğəmbərləri idilər, lakin kitab yazmadılar.

**Digər peyğəmbərlərin əksəriyyəti** Yəhuda xalqına müraciət edirdi.

İsrail xalqına müraciət edən bir peyğəmbəri misal göstərin. [4]

Hansı 2 mühüm peyğəmbər kitab yazmamışdır? [5]

Allahın peyğəmbərləri ən çox hansı xalqa müraciət etmişdi? [6]

# Peyğəmbərlər nə vaxt fəaliyyət göstərdilər?

Onların sözlərini başa düşmək üçün bunları nə vaxt fəaliyyət göstərdiklərini bilməliyik.

1. Bəziləri, **Allah Öz xalqını sürgünə göndərməzdən əvvəl** fəaliyyət göstərmişdilər. Məsələn, Yeşaya və Yeremya.
2. Bəziləri sürgün zamanı, **Babildə yaşadıqları zaman** fəaliyyət göstərdilər. Məsələn, Daniel və Yezekel.
3. Bəziləri, **Allahın xalqı Yerusəlimə qayıdandan sonra** fəaliyyət göstərdilər. Məsələn: Haqqay, Zəkəriyyə və Malaki (Əhdi-Ətiqin son üç kitabı).

Onların dedikləri həqiqətən baş verdi!

Sürgündən əvvəl fəaliyyət göstərən bir peyğəmbəri misal göstərin. [7]

Sügündə olarkən fəaliyyət göstərən bir peyğəmbəri misal göstərin. [8]

Sürgündən sonra fəaliyyət göstərən bir peyğəmbəri misal göstərin. [9]




# 4 dövr

Zaman qrafikinə baxın.

1. **Eramızdan əvvəl 722-ci ildə** aşşurlular İsrail xalqını Aşşura apardılar. Bundan sonra İsrail xalqı haqqında heç nə eşitmirik.

2. **150 il sonra (e.ə. 586-cı ildə)** Babil Yəhuda xalqını məğlub etdi, Allahın məbədini dağıtdı və Allahın xalqını Babilə apardı.

3. **70 ildən sonra (təqribən e.ə. 500-ci il)** Fars imperiyası, Babil imperiyasını məğlub etdi. Fars padşahı Kir, Allahın xalqına istəsələr, Yerusəlimə qayıda biləcəklərini söylədi.

   Lakin Allahın xalqı uzun müddət sadiq qalmadı və 400 il ərzində heç bir peyğəmbərləri olmadı.

   Allaha sadiq olanların hamısı Müqəddəs Yazıları oxuyurdular. Onlar Yazılardan öyrəndilər ki, bir gün Allah Məsihi göndərəcək və Məsih onları xilas edəcək.

4. **Təqribən eramızın 1-ci ilində** İsa doğuldu.

   Allahın Əhdi-Ətiqdə verdiyi bütün vədləri yerinə yetirən Odur!

   Bizi əbədi vətənimizə aparan Odur!

   Aşşurlular İsrail xalqını Aşşura nə vaxt apardılar? [10]

   Babil nə vaxt Yəhuda xalqını məğlub etdi, Allahın məbədini dağıtdı və xalqını Babilə apardı? [11]

   Allahın xalqının öz vətənlərinə qayıtmağına nə vaxt izin verildi? [12]

   İsa nə vaxt doğuldu? [13]

Allahın Əhdi-Ətiqdə verdiyi bütün vədləri kim yerinə yetirəcək? [14]

## Sürgün

Bu, Eden bağında baş verənlərin təkrarıdır.

Eden bağında nə baş verdi? [15]

Eyni şəkildə, Allahın xalqı günah işlətdikdə, Allah onları Öz torpağından və hüzurundan qovdu.

Onlar sürgündən yalnız coğrafi bir yerə deyil, həm də Allahın hüzuruna qayıtmalı idilər.

Müqəddəs Kitab hekayəsi bizə Allaha tərəf necə dönüb hüzurunda yaşaya biləcəyimizi, yaxud Eden bağına necə qayıda biləcəyimizi öyrədir.

Bunu biz Vəhy Kitabında görürük.

**Vəhy 21:3:** *Taxtdan belə deyən uca bir səs eşitdim: "Budur, Allahın məskəni insanların arasındadır. Allah onlarla birgə məskən salacaq; onlar Onun xalqı olacaq, Allah Özü onların Allahı olaraq aralarında yaşayacaq".*

Biz nə vaxt nəhayət Allaha tərəf dönüb hüzurunda yaşayacağıq? [16]

Müqəddəs Kitabın hekayəsi bizə nə öyrədir? [17]

Biz həm indi, həm də əbədi olaraq Allahla münasibətə necə qayıda bilərik (Yəhya 6:40)? [18]

# Əhdi-Cədid

İsa diriləndən sonra Onu tanıya bilməyən iki şagirdlə danışarkən onlara belə dedi:

..."*Ey ağılsızlar və peyğəmbərlərin xəbər verdiklərinə inanmaq üçün ürəyində ləngiyənlər! Məsih bu əzabları çəkib Öz izzətinə qovuşmalı deyildimi?*" ***Sonra Musa ilə bütün Peyğəmbərlərdən başlayaraq Müqəddəs Yazıların hamısında Özü haqqında olanları onlara izah etdi*** (Luka 24:25–27).

İsa peyğəmbərlər haqqında nə dedi? [19]

Onun ölümü və dirilməsi, Allaha itaət etməyən insanları xilas etmək planının bir hissəsi idi.

**Yeşaya 55:12**-ni oxuyun. Yeşaya peyğəmbər Allaha tərəf dönənlərə nə deyir? [20]

Həyatınızı Yaradanınıza və Məsihinə təslim etməkdən böyük bir sevinc yoxdur!

Allah bu gün hələ peyğəmbərlərin kitabları vasitəsilə bizimlə danışır! Buna görə peyğəmbərlərin kitablarını oxumağa vaxt ayırın!

## Ev tapşırığı

Yeşaya 40–55-ci fəsilləri oxuyun.

Yeşayanın Məsih haqqında nə söylədiyinə diqqət yetirin.

### Bu dərsdə Allah haqqında nə öyrəndik?

## Cavablar

1 – Peyğəmbər, Allahın sözlərini bəyan etməsi üçün seçdiyi şəxsdir.
2 – Öz xalqına xəbərdarlıq etmək;
Allahın yalnız Öz xalqını deyil, başqa millətləri də mühakimə edəcəyini və cəzalandıracağını söyləmək;
Allahın Öz xalqına və başqa millətlərə də xeyir-dua verəcəyini demək.
3 – Allah, sürgündən sonra Öz xalqını Yerusəlimə qaytaracaq.
Allah, insanları günahlarından xilas etmək üçün Xilaskarı göndərəcək.
Allah Öz xalqını vətənlərinə, göylərə aparacaq.
4 – Huşə, Amos, Yunus.
5 – İlyas və Elişa.
6 – Yəhuda xalqı.
7 – Yeşaya və Yeremya.
8 – Daniel və Yezekel.
9 – Haqqay, Zəkəriyyə və Malaki.
10 – Eramızdan əvvəl 722-ci ildə.
11 – Eramızdan əvvəl 586-cı ildə.
12 – Təqribən eramızdan əvvəl 500-cü ildə.
13 – Təqribən eramızın 1-ci ilində.
14 – İsa!
15 – Adəm və Həvva günah işlədəndə, Allah onları Eden bağından və Öz hüzurundan qovdu.
16 – İsa qayıdanda, bizi Öz yanına aparacaq və biz Cənnətdə əbədi olaraq Onunla birlikdə yaşayacağıq.
17 – Biz necə Allaha tərəf dönüb hüzurunda yaşaya biləcəyimizi, Eden bağına necə qayıda biləcəyimizi.
18 – Bunun üçün İsaya və Onun bizim üçün etdiklərinə inanmalıyıq.
19 – İsa dedi ki, peyğəmbərlər Məsihə dair çox peyğəmbərlik etmiş, hətta Onun ölümü və dirilişi haqqında əvvəlcədən xəbər vermişdilər.
20 – *Sevinclə çıxacaqsınız, sülhlə müşayiət olunacaqsınız, dağlar, təpələr önünüzdə sevinclə nəğmə deyəcək, çöldəki bütün ağaclar əl çalacaq.*

24-cü dərs:

# Yeşaya Peyğəmbər



Yeşaya Davuddan 300 il sonra (İsanın doğulmasından 700 il əvvəl) yaşayırdı. O dövrdə Allahın xalqı iki ölkəyə bölünmüşdü. Bu iki ölkə necə adlanırdı? [1]

Yeşaya Yəhuda xalqına müraciət edirdi.

Aşşur imperiyasının tezliklə İsraili məğlub edəcəyini və Yəhudanı da məğlub etməyə çalışacağını bəyan etdi. Aşşur artıq Yəhudanın bəzi şəhərlərini fəth etmişdi. Dəhşətli vaxt idi!

## Allah Öz xalqını məzəmmət edir

**Yeşaya 1:1—2:5**-i oxuyun.

**1:1—4:** Nə üçün Allah Öz xalqına qəzəblənir? [2]

**1:5—9:** Yeşaya belə deyir: "Nə üçün Allahın cəzasını görmürsən? Allaha üsyan etdiyimiz üçün ölkəmiz əziyyət çəkir". Onlar necə əziyyət çəkirlər? (ayə 7) [3]

**1:10—15:** Allah onların dini haqqında nə deyir? [4]

**1:15:** Allah nə üçün Öz xalqının dualarına qulaq asa bilmirdi? [5]

**1:21—23:** Allah Öz xalqını Öz "arvadı" kimi təsvir edir (Yeşaya 54:5). Allah 21-ci ayədə Yerusəlimi necə təsvir edir? [6]

24-cü ayədə Allah Öz xalqını necə təsvir edir? [7]

Allah, Öz xalqına qarşı döyüşəcək!

Allah bütün bunları niyə deyir? [8]

Müqəddəs Kitabın başından sonuna kimi görürük ki, Allah müqəddəsdir və günahları cəzalandırandır. Bununla belə, O, xalqını sevir və həmişə bağışlamaq istəyir.

**1:16–20:** Allah onlara nə etməli olduqlarını deyir? [9]

Allah, mərhəmətlidir!

Allah onları bağışlamaq istəyir. Onları təmizləmək istəyir. Onlara xeyir-dua vermək istəyir.

Amma biz bilirik ki, Allahın xalqı tövbə etməyəcək. Beləliklə, axırda O nə etdi? [10]

Lakin Allah Öz xalqını tamamilə rədd etmədi.

Yeşaya Kitabında Allah, sürgündən sonra xalqını Yerusəlimə, vətənlərinə gətirəcəyini vəd edir. (40-cı fəsli və 43:1–7-ni oxudunuzmu?)

Lakin biz görə bilərik ki, xalqını vətənlərinə, Yerusəlimə geri qaytarmaq vədi, onların Yerusəlimə qayıtmalarından daha yaxşı bir şeyə işarə edir. Allahın Eden bağında insanlarla olan münasibətini bərpa edəcəyi Yeni Yerusəlimi təsvir edir!

**2:1–4:** Yerusəlim necə olacaq? [11]

Bu, **Vəhy 21:22–27**-də oxuduğumuza bənzəyir.

## Yeşaya Kitabındakı Məsih



Yeşaya, digər peyğəmbərlərə nisbətən Məsih haqqında daha çox danışır.

**52:13–53:12**-ni oxuyun. Bu ayələr, Allahın əzab çəkən Qulundan bəhs edir.

Bu şeir beş hissədən ibarətdir. Şeirin orta hissəsi ən önəmli hissədir.

**A. 52:13–15:** Qul, günahların bağışlanmasını həyata keçirmək üçün əzab çəkir, sonra ucaldılır.
**B. 53:1–3:** Qul, rədd edilir, alçaldılır və nəhayət öldürülür.
**C. 53:4–6: O, bizi Allahla barışdırmaq üçün öldü.**
**B. 53:7–9:** Qul rədd edilir, alçaldılır və nəhayət öldürülür.
**A. 53:10–12:** Qul, günahların bağışlanmasını həyata keçirmək üçün əzab çəkir, sonra ucaldılır.

Bu şeirin ən mühüm hissəsi hansıdır? [12]

Allah Öz xalqına açıq-aydın deyir ki, onların günahlarına görə ölsün deyə Məsihi dünyaya göndərəcək və Məsih çox ucalacaq. Onun izzəti, əzablarından sonra meydana çıxacaq.

## *Onun yaraları ilə biz şəfa tapdıq* **(Yeşaya 53:5)**

Bir çox insanlar bu ayədən sui-istifadə edirlər. Əhdi-Ətiqdən hər hansı bir ayəni düzgün başa düşmək üçün 2 şey tələb olunur:

1. Ayələri həmişə kontekstində (öz fəsillərində) oxumalıyıq. Ayələri düzgün başa düşmək üçün əvvəlki və sonrakı ayələri ilə birlikdə oxumalıyıq.

   Biz hansı xəstəlikdən şəfa tapdıq? [13]

2. Əhdi-Cədidin bu ayə haqqında nə dediyini və İsanın bu mövzudan nə danışdığını öyrənməliyik.

**1 Peter 2:24—25:** *O, bədəni çarmıxa çəkilərək bizim günahlarımızı Öz üzərinə götürdü ki, biz günaha münasibətdə ölüb salehlik üçün yaşayaq.* ***Onun yaraları ilə siz şəfa tapdınız.*** *Hamınız qoyun kimi yolunuzu azmışdınız, indi isə canınızın Çobanına və Nəzarətçisinə tərəf döndünüz.*

Peter "Onun yaraları ilə siz şəfa tapdınız" dedikdə nə nəzərdə tuturdu? [14]

İsa həmçinin günahlardan xəstəlik kimi bəhs etdi.

**Luka 5:31—32:** *Amma İsa onlara belə cavab verdi: "Sağlamların deyil, xəstələrin həkimə ehtiyacı var. Mən salehləri deyil, günahkarları tövbəyə çağırmaq üçün gəlmişəm".*

İsa "xəstə" dedikdə nə nəzərdə tuturdu? [15]

Beləliklə, bunlara baxanda belə nəticəyə gəlirik ki, Yeşaya 53:5, İsanın bizi fiziki xəstəliklərimizdən sağaltacağına dair vəd deyil. Bu ayə daha vacib bir şeydən bəhs edir: günahlarımızın bağışlanacağını və bu Qulun (yəni İsanın) bizim Allah ilə münasibətlərimizi əbədi olaraq bərpa edəcəyini vəd edir!

Allah dualarımıza cavab verməyi sevir. Biz Onun hər şeyə qadir olduğunu bilirik. O, bizə şəfa verəndə, bu bizi çox ruhlandırır.

O bizə bu həyatda xilas (günahlarımızın bağışlanması və Onunla yeni münasibət) vəd edir və Yeni Yerusəlimdə tamamilə sağlam bədəndə əbədi yaşayacağımızı vəd edir (**1 Korinflilərə 15:42—44**).

Bu həyatda O bizə həmişə şəfa vermir (**2 Korinflilərə 12:7—10** — Allah Paula şəfa vermədi!).

Biz bu ayəyə əsasən Allahın bizə şəfa verməsini tələb edə bilmərik.

"Onun yaraları ilə biz şəfa tapdıq" ifadəsi nə mənaya gəlir? [16]

### Yeşayadan hansı ayəni əzbərləmək istəyirsiniz? Bu gün o ayəni kiminlə bölüşə bilərsiniz?

# Cavablar

1 – Yəhuda və İsrail.
2 – Çünki onlar Allaha qarşı üsyan etdilər.
3 – Şəhərləri dağıdıldı və məhsulları oğurlandı.
4 – Onların dininə nifrət edir. Onun qanunlarına tabe olmadıqları üçün qurbanlarını qəbul etmir.
5 – Çünki onların əlləri qanla doludur. Onlar bir-birini öldürürlər! Allah, bu cür şər insanların dualarına qulaq asa bilməz.
6 – Fahişə kimi!
7 – Onun düşmənləri kimi!
8 – Çünki onun xalqı tövbə etmədi.
9 – Onlar tövbə edib Allaha tərəf dönməlidirlər.
10 – Onları sürgünə göndərdi.
11 – Yerusəlim, ən yüksək (ən vacib) dağ olacaq, bütün insanlar Allah üçün yaşamağı öyrənmək məqsədilə oraya gələcəklər və hamı orada sülh içində yaşayacaq.
12 – O, bizi Allahla barışdırmaq üçün öldü.
13 – Günahlarımızdan şəfa tapdıq.
14 – Onu nəzərdə tuturdu ki, biz bağışlandıq, çünki İsa bizim üçün öldü.
15 – "Günahkar" nəzərdə tuturdu.
16 – Günahlarımız bağışlanacaq və bu Qul bizim Allahla münasibətimizi əbədi olaraq bərpa edəcək!

# 25-ci dərs:

# Nehemya



## Vəziyyət

**Eramızdan əvvəl 586-cı ildə** Babil Yəhuda xalqını məğlub etdi, məbədi dağıtdı və Allahın xalqını Babilə apardı.

70 ildən sonra Fars imperiyası Babil imperiyasını məğlub etdi. Bu, təxminən **eramızdan əvvəl 500-cü ildə** baş verdi.

Fars padşahı Kir, Allahın xalqına istəsələr Yerusəlimə qayıdıb məbədi bərpa edə biləcəklərini söylədi.




## Sürgün!

**2 Salnamələr 36:15–23**-ü oxuyun.

Allahın xalqı peyğəmbərlərlə necə rəftar etdi? [1]

Yəhuda xalqına nə oldu? [2]

Məbəddə olan şeylərə nə oldu? [3]

Məbədə nə oldu? [4]

Yerusəlimin divarlarına nə oldu? [5]

# Allahın şəhərinin bərpa olunması

**Ezra Kitabında** oxuyuruq ki, sürgündən sonra Allahın xalqından bir çox adamlar Yerusəlimə qayıdıb ikinci məbədi tikdi.

**Nehemya Kitabında** ondan sonra baş verən hadisələr haqqında oxuyuruq. Bu hadisələr, **eramızdan əvvəl 445-ci il** tarixindən başlayır.

**Nehemya 1**-i oxuyun.

Nehemya hansı xəbəri eşitdi (**ayə 3**)? [6]

Sizcə, o, niyə məyusdur (**ayə 4**)? [7]

Vəziyyət elə görünürdü, guya yəhudilərin Allahı zəifdir və Öz xalqını qoruya bilmir.

Nehemya Allah haqqında nə bilirdi (**ayə 5**)? [8]

Nehemyanın duası nə cəhətdən təəccüblüdür (**ayə 6–7**)? [9]

Nehemya o cəhətdən Məsihə bənzəyir ki, günahsız olduğu halda xalqın günahlarından xəcalət çəkirdi və onlara öz günahı kimi baxırdı. Eynilə Yeşaya 53:5–6-dakı Qul kimi.

Nehemya Tövratdan nə anladı (**ayə 8–9**)? [10]

Gördü ki, bütün bunları Allah edib, lakin bu kifayət deyildi. Allah hələ də izzətlənmirdi.

Nehemyanın yaxşı, nüfuzlu işi, rahat yeri var idi. Yerusəlimdə baş verənlərə görə narahat olmasına ehtiyac yox idi. Lakin o bilirdi ki, Allah onun vasitəsilə Yerusəlim şəhərini, xüsusən də divarı bərpa etmək istəyirdi. Yerusəlim, Allahın xüsusi şəhəri idi və Allah məbəddə xalqı ilə birlikdə olacağına söz vermişdi (1:9).

Eyni şəkildə, bəlkə siz də həyatın gözəl olduğunu və indi olduğunuz yerdə daimi yaşamaq istədiyinizi düşünürsünüz. Ancaq iş üçün başqa ölkəyə getmisinizsə, Allahın sizin vasitənizlə ölkənizdə imanlılar cəmiyyətini qurmaq istədiyini unutmayın!

Nehemya nəinki viran olmuş şəhərin, həm də Allahın viran olmuş xalqının bərpa olunmasına kömək etdi.

Onlar necə viran olmuşdular? [11]

Onlar məyusluğa qapılmışdılar.

Beləliklə Nehemya, Yerusəlimin divarlarının və xalqın imanının bərpa olunması üçün Allahın xalqının rəhbəri olaraq Yerusəlimə getdi.

# Yaxşı rəhbər

**Nehemya 4**-ü oxuyun.

Nehemyanın xalqa necə rəhbərlik etdiyi barədə nə öyrənirik? Onun xalqını necə idarə etdiyinə dair 7 faktı tapın. [12]

1.

2.

3.

4.

5.

6.

7.

Yaxşı rəhbər olmaq asan deyildi. Onlar divarı bərpa edəndə, Nehemya müxtəlif cür çətinliklərlə, xüsusən də təhdid və təhqirlərlə üzləşdi. Ancaq Allah ona xalqa rəhbərlik etməkdə kömək etdi ki, iş davam etsin və tamamlansın!

**6:15:** Divar haqqında nə oxuyuruq? [13]

Lakin Nehemya yalnız şəhərə görə narahat deyildi. O, həmçinin insanların Allahla münasibətinə görə də narahat idi.

**8:1–3: Ezra** nə etdi? [14]

**10:28–29:** Xalq nə etdi? [15]

Bu, Allahın xalqı üçün yeni başlanğıc idi! Onlar Allahın sözünü dinlədilər və ona əməl edəcəklərini vəd etdilər.

## Nehemya bu gün imanlılar cəmiyyətlərinin rəhbərləri üçün gözəl bir nümunədir!

## Əhdi-Ətiqin sonu

Bu, demək olar ki Əhdi-Ətiqin sonudur.

Yaradılış 12:1–7-də Allah İbrahimə nə vəd etdi? [16]

Əhdi-Ətiqin sonunda Allah, İbrahimə verdiyi vədlərin nə qədərini yerinə yetirdi? [17]

Bəs problem nədir? [18]

Əvvəllər Allahın xalqı güclü idi, çoxalmışdı və öz torpaqları var idi. İndi isə onlar zəifləyiblər, sayları xeyli azalıb və yadelli padşahın tabeliyindədir.

Allahın xalqının ümid yeri nə idi? [19]

Müqəddəs Yazıları oxuyanlar bir ümidin olduğunu bilirdilər. Allahın bir gün Məsihi göndərəcəyini başa düşmüşdülər. Məsih:

- onların ürəklərini dəyişdirəcək (Yezekel 36:26);
- onları günahlarından xilas edəcək (Yeşaya 53:5–6);
- millətlər üzərində əbədi hökmranlıq sürəcək (Daniel 7:13–14).

Məsihin verdiyi ümid nədən ibarətdir? [20]

Bu Məsih, Allahın İbrahimə verdiyi bütün vədləri yerinə yetirəcək!

Əhdi-Ətiqin bizi Əhdi-Cədid üçün necə hazırladığını izah edə bilərsinizmi?

# Cavablar

1 – Onlara qulaq asmadılar.
2 – Qətl edildilər və ya sürgünə göndərildilər.
3 – Babilə aparıldılar.
4 – Yandı.
5 – Dağıdıldı.
6 – Əsirlikdən qurtulub qayıdanlar orada — vilayətdə böyük məşəqqət və xəcalət içində yaşayır. Yerusəlimin divarı dağıdılıb, darvazaları isə yandırılmışdır.
7 – Çünki Allahın şəhəri dağıdılıb və xalq Allaha hörmət etmir.
8 – Allah, göylərin Allahıdır. O, böyük və möhtəşəmdir. Onu sevən və əmrlərinə tabe olanlar üçün məhəbbətə əsaslanan əhdinə sadiq qalır.
9 – Nehemyanın özü Allaha qarşı günah etmədiyi halda, “onlar” deyil, “biz” deyir.
10 – O, Allahın Öz xalqını Ona sadiq qalmasalar, onları cəzalandıracağı barədə xəbərdarlıq etdiyini anladı. Bir də Allah Öz xalqını vətəninə qaytaracağına söz verdiyini anladı.
11 – Günahlarına görə sürgün edilmişdilər. Geri qayıtmışdılar, lakin Allahın şəhərini və izzətini bərpa etməmişdilər.
12 – 1) Ona qarşı çıxanlara qulaq asmırdı.
2) Allaha dua edirdi.
3) Müdrikliklə praktik qərarlar verirdi (kişilərin yarısı işləyirdi, yarısı da işləyənləri qoruyurdu).
4) İnsanların köməyə ehtiyacı olduqları təqdirdə nə edəcəyini planlaşdırdı (kiməsə kömək lazım olanda şeypur çalınacaq).
5) Allahın kim olduğunu xatırladaraq insanları ruhlandırırdı.
6) Allahın izzətlənməsini istəyirdi və öz izzətini axtarmırdı. (Həmçinin bax 1:11)
7) Özü də səylə çalışaraq gözəl nümunə göstərirdi.
13 – Divar, 52 gündə tamamlandı!
14 – Tövratı insanlara ucadan oxudu.
15 – Allaha itaət edəcəklərinə söz verdilər.
16 – Ondan böyük millət törədəcək, ona torpaq verəcək və bütün insanlar onun vasitəsilə xeyir-dua alacaq.
17 – Allah İbrahimin nəslindən böyük bir millət törətdi, onlara öz torpaqlarını verdi və başqa millətlərə nur olsunlar deyə onlara kamil qanunlar verdi.
18 – Allahın xalqı, başqa allahlara ibadət etdi, Allahın qanunlarına tabe olmadı, buna görə də hər şeyi məhv etdi.
19 – Allahın sözü idi!
20 – Onların ürəklərini dəyişəcək. (Yezekel 36:26)
Onları günahlarından xilas edəcək. (Yeşaya 53:5–6)
Millətlər üzərində əbədi olaraq hökmranlıq edəcək. (Daniel 7:13–14).

26-cı dərs:

# Səkkiz şəkildə Müqəddəs Kitab hekayəsi

Müqəddəs Kitabın tarixini nəzərdən keçirmək üçün bu şəkillərdən istifadə edəcəyik. Bütün Müqəddəs Kitabı bu şəkillərlə izah edə bilərik.




Birinci şəkil haqqında oxuyacağıq, sonra qrupda bir nəfər bu məlumatı oxumadan təkrar etməlidir. Ondan sonra ikinci şəkil haqqında oxuyacağıq və başqa biri onu təkrarlayacaq. Sona çatanda mətnə baxmadan 8 şəklin hamısını növbə ilə təkrarlayacağıq.




## 1. Yaradılış

Allahın yaratdığı hər şey yaxşı idi. Allah, Eden bağı adlanan gözəl bir bağda ilk insanlar olan Adəm və Həvva ilə vaxt keçirirdi.




## 2. Günahın başlanğıcı

Adəm və Həvva Allaha itaətsizlik etdilər və Şeytana itaət etdilər. Beləliklə, onlar Allahın xeyir-dualarını, o cümlədən əbədi həyatı itirdilər.

Şəkildəki ox, Allahın onları bağdan və Öz hüzurundan qovduğunu göstərir.

O vaxtdan bəri insanlar Allahla yenidən əlaqə qurmağı arzulayırlar.




## 3. Vədlər

Allah İbrahimə vəd etdi ki, Onun seçilmiş **xalqının** atası olacaq. Bir də xalq üçün Allahla birlikdə yaşayacaqları bir **torpağı** vəd etdi. Və eləcə də İbrahim vasitəsilə bütün insanlara **xeyir-dua** verəcəyini vəd etdi.

Şəkildəki tac onu göstərir ki, Allah onlara yaxşı padşah olacaq.

Göy qurşağı, Allahın vədinə sadiq qalacağını göstərir (Yaradılış 9:13–16). Ona həmişə etibar edə bilərsiniz!




## 4. Çıxış

Allahın xalqı yad bir ölkədə, Misirdə məskunlaşdı. Bir müddət sonra orada kölə oldu. (Şəkildəki piramidalar Misiri təmsil edir.)

Ox, Allahın Öz xalqını Misirdəki dəhşətli köləlikdən xilas etdiyini göstərir.




## 5. Torpaq

Allah Öz xalqını Vəd edilmiş torpağa gətirdi. Onlar bu torpaqlarda yaşayan və çox pis insanlar olan kənanlıları məğlub etdilər.

Allah Öz xalqına xeyir-dua verdi, lakin onlar başqa allahlara ibadət etdilər. Allahın onlara dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq bunu etdilər, buna görə axırda Allah onları sürgünə göndərdi. Sonra Allah onları yenə vəd edilmiş torpağa gətirdi, lakin onlar Onun qanunlarına hələ tabe olmadılar və günah işlətməyə davam etdilər.

Onları günahlarından xilas edəcək bir Xilaskara ehtiyacları var idi. Onları düzgün idarə edəcək bir Padşaha ehtiyacları var idi. Allah bir gün belə bir şəxsi — Məsihi göndərəcəyinə söz verdi.

Onların hamısı Allahı unutmadılar. İsa doğulanda, Yəhudeya Roma imperiyasının bir hissəsi idi. Lakin Allaha sadiq olan insanlar hələ də Xilaskarı — Allahın vəd etdiyi Padşahı gözləyirdilər. Məsələn, Şimeon və Xanna Allaha sadiq insanlar idi (Luka 2:25–38).




## 6. İsa Məsih

Allah vədinə sadiq qalaraq Xilaskarını göndərdi! İsa Məsih günahlarımız üçün birdəfəlik qurban olaraq dünyaya gəlib çarmıxda öldü. Sonra ölümdən dirildi. Bu, İsanın ölümə qalib gəldiyini göstərir! Beləliklə, indi biz yenidən Allahla dost ola bilərik!




## 7. İsanın ikinci gəlişi

İsa indi göylərdədir.

Şəkildəki ox işarəsi, İsanın dünyanın sonunda bütün insanları mühakimə etmək üçün yer üzünə qayıdacağını göstərir.




## 8. Cənnət

Biz yeni, əbədi vəd edilmiş torpaqda, Cənnətdə Allah ilə yaşayacağıq!

Əhdi-Ətiq bizə niyə bir Xilaskara ehtiyacımız olduğunu göstərir. Bu, hamımızın günahkar olduğumuzu öyrədir. Bizim ürəklərimiz şərdir.

Allahı get-gedə daha yaxşı tanımaq üçün həm Əhdi-Ətiqi, həm də Əhdi-Cədidi başdan sona qədər oxumaq lazımdır.

## Bir-biriniz üçün dua edin ki, Allah sizə bu həftə bu şəkilləri paylaşmaq üçün birini göndərsin.

27-ci dərs:

# Allah dünyaya İnsan olaraq gəldi



Matta və Luka öz kitablarının əvvəlində İsanın doğulması haqqında yazırlar.

## Onun valideynləri

**Matta 1:18–25**-i oxuyun.

18-ci ayədə yazılanlarda heyrətləndirici olan nədir? [1]

Belə hadisə, bütün tarix boyu yalnız bir dəfə baş vermişdir!

Bu uşağın bir anası var idi, amma bioloji bir atası yox idi. Bu, Allahın möcüzəsi idi. İsa tam insan və tam Allah idi. İsa yer üzünə gələn Allahın Özüdür!

Müjdələrdə İsanın həqiqətən insan olduğuna dair hansı dəlilləri görürük?

Bu ayələrə baxın: **Matta 21:18; Yəhya 19:28; Yəhya 4:6; Mark 4:38; Yəhya 11:35; Yəhya 19:34; Yəhya 19:33.** [2]

Müjdələrdə İsanın həqiqətən Allah olduğuna dair hansı dəlilləri görürük?

Bu ayələrə baxın: **Mark 1:33–34; Mark 5:41–42; Mark 6:48; Mark 4:39.** [3]

İsanın bakirə qızdan doğulması bizə Onun haqqında nə bildirir? [4]

**Yeşaya 7:14**-də Yeşaya nədən xəbər vermişdi? [5]

İsanın doğulmasından yüz illər əvvəl Allah Məsihin bakirə qızdan doğulacağını vəd etmişdi!

# Onun doğulduğu yer

**Luka 2:1–20**-ni oxuyun.

Yusif və Məryəm harada yaşayırdılar? [6]

İsa harada doğuldu (ayə 4–6)? [7]

Necə oldu ki, İsanın valideynləri Nazaretdə yaşadıqları halda, Özü Bet-Lexemdə doğuldu? [8]

Müqəddəs Kitabda başqa kim Bet-Lexemdə doğulub (**1 Şamuel 17:12**)? [9]

**2 Şamuel 7:12–13,16**-da Allah Davuda nə vəd etmişdi? [10]

**Matta 1:1–16**-da İsanın nəsil şəcərəsi verilir. Ayə 6-da hansı əcdadların adı çəkilir? [11]

Lakin uzun illər Davudun nəslindən bir padşah gəlməmişdi.

**Luka 2:10–11**-də mələklər çobanlara nə dedilər? [12]

**Mikeya 5:2**-də Mikeya peyğəmbər nədən xəbər vermişdi? [13]

İsanın doğulduğu yerin əhəmiyyəti nədən ibarətdir? [14]

Hətta İsanın doğulduğu yer belə İsanın Məsih olduğuna sübutdur!

# İsa bizim nümunəmizdir!

**İbranilərə 4:15**-i oxuyun.

İsanın həqiqətən insan olması bizi necə ruhlandırır? [15]

İsa, indiyə qədər yaşamış olan hər bir insandan nə ilə fərqlənirdi? [16]

O, insan olmağın nə qədər çətin olduğunu hələ də anlamağa davam edir. Bununla belə, Onun həyatı bizim üçün kamil nümunədir.

İsanın xarakterinin xülasəsini **Qalatiyalılara 5:22–23**-də Müqəddəs Ruhun səmərəsində tapmaq olar. İsanın xasiyyəti necə idi? [17]

**Biz İsanın ardınca getdikcə Ona daha çox bənzəyirik. İnsanlar sizin həyatınızda İsanın əlamətlərini görə bilirlərmi? Hansı sahələrdə dəyişmək üçün İsanın köməyinə entiyacınız var?**

## Cavablar

1 – Məryəm bakirə olmasına baxmayaraq, Müqəddəs Ruh vasitəsilə hamilə qaldı.
2 – O, ac oldu, susadı, yoruldu, yatdı, ağladı, qan tökdü və axırda öldü.
3 – O, cinləri qovdu, xəstələrə şəfa verdi, ölüləri diriltdi, su üzərində yeridi və tufanı yatırdı.
4 – O, tam insan və tam Allah idi!
5 – Budur, bakirə qız hamilə olub Oğlan doğacaq, adını "İmmanuel" qoyacaqlar. "İmmanuel" "Allah bizimlədir" deməkdir.
6 – Nazaretdə.
7 – Bet-Lexemdə.
8 – Çünki onun valideynləri siyahıya almaq üçün qeydiyyatdan keçməli idi.
9 – Padşah Davud.
10 – Rəbb, Oğlunun padşahlığının şahlıq taxtını əbədi möhkəm edəcəyini və Davudun nəslindən olan Padşahın taxtının əbədi möhkəm qalacağını vəd etmişdi.
11 – Yessey, Padşah Davud və Padşah Süleyman.
12 – *Bu gün Davudun şəhərində sizin üçün Xilaskar doğuldu. Bu, Rəbb Məsihdir.*
13 – Böyük hökmdarın Bet-Lexemdə doğulacağından.
14 – Allahın dediyinə görə, ora Məsihin doğulacağı yer olacaq.
15 – O, bizim zəifliklərimizi və sınaqlarımızı başa düşür.
16 – O, heç vaxt günah etməmişdir!
17 – O, məhəbbət, sevinc və sülh ilə dolu idi, səbirli, xeyirxah, yaxşı, sədaqətli, həlim və nəfsə hakim idi.

28-ci dərs:

# Məsih



## Məsih Öz xidmətinə başlayır!

Markın Müjdəsi, İsanın həyatı haqqında yazılmış 4 kitabın birincisi idi. 1-ci fəsildə nə baş verdiyinə nəzər salaq.

**Mark 1:1:** Mark İsanın kim olduğunu deyir? [1]

**Mark 1:11:** İsa vəftiz olunanda, Allah Onu necə adlandırdı? [2]

**Mark 1:16–20:** İsa bu adamları ardınca getməyə çağıranda, onlar dərhal nə etdilər? [3]

**Mark 1:22:** İnsanlar İsanın təlimi haqqında nə düşünürdülər? [4]

**Mark 1:24:** Natəmiz ruh İsanı necə adlandırdı? [5]

**Mark 1:25–26:** İsa natəmiz ruha adamı tərk etməsini deyəndə nə baş verdi? [6]

**Mark 1:32–34:** İsa nə etdi? [7]

Elə birinci fəsildə görürük ki, İsanın etdikləri Onun Məsih, Allahın Oğlu olduğunu sübut edir!

Lukanın Müjdəsinin 4-cü fəslində İsa böyüdüyü şəhərə qayıdanda nə baş verdiyini oxuyuruq.

## Əhdi-Ətiqin bəhs etdiyi Şəxs

**Luka 4:14–21**-i oxuyun.

Əhdi-Ətiq dövründə Allahın xalqı kimi gözləyirdi? [8]

O, nə edəcək (**Yaradılış 3:15**)? [9]

O, başqa nə edəcək (**Yaradılış 12:3**)? [10]

Bu hissədə Nazaretin sakinləri İsanın şəhərə qayıtmasına çox sevinirlər. Niyə? [11]

Şənbə günü yəhudilər öz dua evlərində toplananda İsadan onlara öyrətməsini istədilər.

İsa hansı peyğəmbərin kitabından oxudu? [12]

Oxuduğu ayələr, Müqəddəs Ruhla dolu olan və heyrətamiz işlər görmək üçün Allah tərəfindən məsh edilmiş bir insandan bəhs edir.

Əhdi-Ətiqdə insanlar nə vaxt məsh edilirdilər? [13]

Allah tərəfindən məsh edilmək, Allah tərəfindən xüsusi bir iş üçün seçilmək demək idi. Yeşaya, bir gün Allahın Məsh olunmuş Adamın gələcəyi barədə peyğəmbərlik etdi. O, başqa heç kimin edə bilməyəcəyi xüsusi bir tapşırığı yerinə yetirəcəkdi.

**Luka 4:18–19:** Burada hansı dörd növ insanlardan bəhs olunur? [14]

1.

2.

3.

4.

Gəlin İsanın bu sözlərlə nə demək istədiyini düşünək.

## Fəqir

İsa İncilin başqa iki yerində fəqirlərdən yaxud yoxsullardan danışır.

**Luka 6:20–21:**
*Nə bəxtiyarsınız, ey yoxsullar! Çünki Allahın Padşahlığı sizindir.*
*Nə bəxtiyarsınız, ey indi aclıq çəkənlər! Çünki doyacaqsınız.*
*Nə bəxtiyarsınız, ey indi ağlayanlar! Çünki güləcəksiniz.*

**Matta 5:3:** *Nə bəxtiyardır ruhən yoxsullar! Çünki Səmavi Padşahlıq onlarındır.*

Beləliklə, Müjdələrdə yoxsullar (fəqirlər) kimlərdir? [15]

Ancaq yoxsullar Allaha olan ehtiyaclarını çox vaxt varlılardan daha yaxşı dərk edirlər!

## Əsirlər



Əhdi-Ətiqdə Allahın xalqının günah işlətməkdən və Allaha qarşı itaətsizlikdən əl çəkə bilmədiklərini gördük. Onlar azad deyil idilər, həmişə günahın əsiri idilər.

Bəs onları bu "həbsxanaya" kim salmışdı? [16]

Amma Yeşayanın bəhs etdiyi bu Şəxs onları həqiqətən azad edəcək! Onları iblisin və günahın əlindən xilas edəcək!

## Korlar

Yəhyanın Müjdəsinin 9-cu fəslində İsa bir kor adamı sağaltdı. 39-cu ayədə O nə dedi? [17]

Beləliklə, korlar kimlərdir? [18]

Onlar özlərini yaxşı insan sayırlar. İsa onlara günahkar olduqlarını və Allaha qarşı itaətsizlik etdiklərini göstərəcək.

## Məzlumlar

Məzlum olmaq nə deməkdir? [19]

Zalım padşahdan kim əzab çəkir? [20]

Hər kəs azad edilənə qədər Şeytanın hakimiyyəti altında əzab çəkir. Şeytan qəddar padşahdır!

Yoxsulların kimə ehtiyacı var? [21]

Günahın əsirlərinin kimə ehtiyacı var? [22]

Korların kimə ehtiyacı var? [23]

Məzlumların kimə ehtiyacı var? [24]

21-ci ayədə İsa onlara nə dedi? [25]

Uzun müddətdir gözlənilən Xilaskar və Məsih gəldi!

Allah İbrahimə verdiyi vədi tutdu!

İsa, Allahın vəd etdiyi adamdır!

İsa bir çox insanı sağaltdı və bizə kim olduğunu göstərmək üçün çoxlu möcüzələr göstərdi.

Ancaq O bizə möcüzələrdən qat-qat daha yaxşı bir şey vermək üçün gəldi. O, bizi günahdan, ölümdən və Şeytandan azad etmək üçün gəldi!

Bu ən gözəl xəbərdir!

İsa nə üçün gəldi? [26]

# İnsanlar onu qəbul edəcəkmi?



**Luka 4:28–30**-u oxuyun.

İnsanlar İsanın vəzinə necə reaksiya verdilər? [27]

Dünya, Allahın Oğlunu sevənlər və Ona nifrət edənlər olaraq ikiyə bölünmüşdür. İsanı sevdiyimiz üçün insanların bizə nifrət etdiyinə təəccüblənməməliyik.

Əgər İsa, Allahın vəd etdiyi Xilaskardırsa, insanlar bizi sevməsə belə, O hər şeyə dəyər!

## İsa kimdir? Bu gün Onun haqqında nə öyrəndik?

# Cavablar

1 – Allahın Oğlu Məsih.
2 – Allahın çox razı olduğu sevimli Oğlu.
3 – Onlar hər şeyi tərk edib İsanın ardınca getdilər.
4 – Onlar buna heyran qaldılar.
5 – Allahın Müqəddəsi.
6 – Ruh ondan çıxdı.
7 – Bir çox insanlara şəfa verdi və çoxlu cinləri qovdu.
8 – Onlar Məsihi, Xilaskarı gözləyirdilər.
9 – İblisi məğlub edəcək.
10 – Bütün insanlara xeyir-dua verəcək.
11 – Çünki Onun Özü və möcüzələri haqqında çox eşitmişdilər.
12 – Onlara Yeşayadan oxudu (61-ci fəsil).
13 – Onlar padşah və ya baş kahin olaraq təyin olunduqda.
14 – 1) Fəqirlər,
2) əsirlər,
3) korlar və
4) məzlumlar.
15 – Pulu az olanlar deyil, Allaha olan ehtiyaclarını dərk edənlər və təvazökar olanlar.
16 – İblis.
17 – *Mühakimə etmək üçün bu dünyaya gəldim ki, qoy görməyənlər görsün, görənlərsə kor olsun.*
18 – Allahın onları bağışlamasına ehtiyacı olduğunu bilməyən insanlar.
19 – Zalım bir padşahdan əzab çəkmək deməkdir.
20 – Hər kəs!
21 – Onlara həqiqi sərvət verəcək bir şəxsə.
22 – Onları Şeytanın torundan azad edəcək bir şəxsə.
23 – Günahkar olduqlarını anlamaları üçün onların gözlərini açan bir şəxsə.
24 – Onların yaxşı padşaha ehtiyacları var.
25 – *Bu gün eşitdiyiniz bu Müqəddəs Yazı yerinə yetdi.*
26 – O, bizi günahdan, ölümdən və Şeytandan azad etmək üçün gəldi!
27 – İnsanlar Ona inanmadı. Onun dediklərini qəbul edə bilmədilər. Onu öldürməyə çalışdılar!

29-cu dərs:

# Dəhşətli bir faciə yoxsa Allahın planının yerinə yetməsi?



İsanın ölümü dəhşətli bir faciə idimi? Bu qədər yaxşı işlər gördüyü halda həyatı yarımçıq qaldı!

Bəzi insanlar deyirlər ki, İsa əslində çarmıxda ölməyib, sadəcə ölmüş kimi görünüb, Onun yerinə başqa bir adam çarmıxa çəkilib, ancaq Allah onu İsa kimi göstərib. Lakin bu, Allahın xarakterinə uyğun gəlmir. Axı Allah heç kimi aldatmaz! İsa da Öz yerinə başqasının ölməsini necə seyr edə bilərdi?

Bəzi insanlar deyirlər ki, İsa çarmıxdan endiriləndə hələ ölməmişdi və sərin məzara qoyulanda Özünə gəlib. Amma biz romalıların insan öldürməkdə usta olduqlarını bilirik. Onlar bir adamın ölmüş olduğunu ayırd etməyi bacarırdılar. Çarmıxda edam edilən adamın ölmüş olduğunu ayırd etmək asan idi: bir daha nəfəs almaq üçün özünü yuxarı itələməyən adamın ölmüş olduğu bəlli idi. Çarmıxa çəkilmə indiyə qədər icad edilmiş ən qəddar ölüm cəzası idi!

**Yəhya 19:34**-ü oxuyun. Əsgər, İsanın həqiqətən ölmüş olduğuna əmin olmaq üçün nə etdi? [1]

İsanın yerinə başqasının öldüyünü və Allahın o adamı İsa kimi göstərdiyini söyləyən insanlara nə deyə bilərik? [2]

İsanın əslində çarmıxda ölmədiyini və məzarda Özünə gəldiyini söyləyən insanlara nə deyə bilərik? [3]

## İsa şagirdlərinə ölümü haqqında danışdı

İsanın dəqiq necə öləcəyini bildiyini oxuyuruq.

**Luka 9:18–20**-ni oxuyun.

Bir çox möcüzələr yaratdıqdan və misli olmayan böyük səlahiyyətlə öyrətdikdən sonra İsa şagirdlərindən nə soruşdu (ayə 20)? [4]

Peter nə cavab verdi? [5]

O dövrdə Yəhudeya, Roma imperiyasının bir hissəsi idi. İsanın şagirdləri, İsanın onları romalılardan azad edəcək padşah olmasını istəyirdilər.

**Luka 9:21–22**-ni oxuyun.

İsa şagirdlərinə nə dedi? [6]

Bu necə ola bilərdi? İsa öldürüləcəksə, necə fəth edən bir padşah ola bilərdi? Şagirdlərinin bunu qəbul etməsi o qədər çətin idi ki, İsa bunu onlara üç dəfə təkrarlamağa məcbur oldu (Luka 9:44–45 və 18:31–34).

Şagirdlər, İsanın Allahın Öz xalqına göndərməyi vəd etdiyi padşah olduğunu anladılar. Amma Onun necə bir padşah olacağını anlamadılar. Vəd edilmiş Padşahın əzab çəkməli olduğunu dərk etmədilər.

Əhdi-Ətiqdə Məsihin öləcəyi haqqında çox az yazılıb. Peyğəmbərliklərin əksəriyyəti, Onun Allahın xalqına gətirəcəyi qüdrətdən və xilasdan bəhs edir.

Məsələn, **Məzmur 2:6–8**-i oxuyun.

Allah Öz Padşahına nə verəcək? [7]

Lakin İsa Luka 9:21–22-də nə üçün gəldiyini söylədi? [8]

İsanın başqa insanlar tərəfindən öldürüləcəyinə inanmaq, şagirdlər üçün niyə bu qədər çətin idi? [9]

Bu şok edici idi!

# Əhdi-Ətiqdəki qurbanlar bizi Məsihin ölümünə hazırlayır

Qurbanla bağlı dərsi xatırlayırsınızmı? Allahın xalqı nə üçün qurbanlar gətirməli idi? [10]

**İbranilərə 10:1–4**-ü oxuyun.

Əhdi-Ətiqdə insanların gətirdiyi qurbanlarla bağlı problem nədir? [11]

Qurbanların faydası nə idi (ayə 3)? [12]

Bizi günahlarımızdan tamamilə və birdəfəlik təmizləyəcək olan bir qurbana ehtiyacımız var.

# Əhdi-Ətiqdəki peyğəmbərlik bizi Məsihin ölümünə hazırlayır

Əhdi-Ətiqdə hansı peyğəmbərlik bizi Məsihin ölümünə hazırlayır? [13]

**Yeşaya 53:5–6**-nı oxuyun.

İsanın gəlişindən yüz illər əvvəl Allah Yeşaya vasitəsilə nə dedi? [14]

**Zəbur 22:14–18**-i oxuyun.

Bu sizə nəyi xatırladır? [15]

22-ci Məzmur, çarmıxa çəkmə cəzasının icad edildiyi zamandan yüz illər əvvəl çarmıxa çəkilməni təsvir edir. İndi bunun Məsih haqqında bir peyğəmbərlik olduğunu bilirik.

Məsihin ölümü başlanğıcdan bəri Allahın planı idi!

# Allahın ədalətli planı

**Romalılara 3:21–26**-nı oxuyun.

Allahın salehliyinin İsaya iman edənlərə verildiyinə şəhadət edən nədir (**ayə 21–22**)? [16]

Biz necə xilas olmuşuq (**ayə 23–25**)? [17]

İsanın fədakar ölümü, günahlarımızın əvəzini ödəyə biləcək və bağışlanmağımızı təmin edə biləcək yeganə mükəmməl qurban idi. Əbədi həyata aparan başqa yol yoxdur!

**Romalılara 6:23**-ü oxuyun.

Günah işlətməklə nə əldə edirik? [18]

Amma Allah bizə nə verir? [19]

Bu, dünyada olan ən gözəl xəbərdir!

### Beləliklə, bu gün nə öyrəndik?

### İsa nə üçün gəldi?

## Cavablar

1 – O, nizə ilə İsanın böyrünü deşdi.
2 – Bu, Allahın xarakterinə uyğun gəlmir. Allah heç kimi aldatmaz! İsa da Öz yerinə başqasının ölməsini necə seyr edə bilərdi?
3 – Romalıların insan öldürməkdə usta olduqlarını bilirik. Onlar bir adamın ölmüş olduğunu ayırd etməyi bacarırdılar. Çarmıxda edam edilən adamın ölmüş olduğunu ayırd etmək asan idi: bir daha nəfəs almaq üçün özünü yuxarı itələməyən adamın ölmüş olduğu bəlli idi.
4 – *Siz nə deyirsiniz? Sizcə Mən kiməm?*
5 – Sən Məsihsən! Sən Allahın bütün Əhdi-Ətiq boyu göndərəcəyini vəd etdiyi Birisən!
6 – O öldürüləcək, amma üçüncü gün diriləcək.
7 – Bütün yer üzünü!
8 – İsa ölmək və yenidən dirilmək üçün gəldiyini söylədi.
9 – Çünki İsa öldürüləcəksə, necə fəth edən bir padşah ola bilərdi?
10 – Çünki Allah müqəddəsdir və Ona qarşı itaətsizlik edənlərin hamısını cəzalandırmalıdır. Biz səhv edəndə, günah işlədəndə, Allaha qarşı itaətsizlik etmiş oluruq. Padşahına xəyanət edən bir adam ölməyə layiq olduğu kimi, biz də günahlarımız üçün ölməyə layiq oluruq.
Amma Əhdi-Ətiqdə Allah, Öz lütfü ilə xalqına günahlarının bağışlanması üçün qurban gətirmək imkanı verdi. Günahlarımızı yalnız qan örtə bilər.
11 – Heyvanların qurban edilməsi, bizi Allah qarşısında saleh etmək üçün kifayət deyil.
12 – Onlar bizim günahlarımızı xatırlatmaq üçün olacaq idilər. İnsanlara günahlarına görə ölümə layiq olduqlarını göstərirdi.
13 – Yeşaya 53:5 və 6.
14 – Allah, Məsihin günahlarımız üçün qurban olaraq öləcəyini söylədi. O, bizim bütün günahlarımızı götürəcək!
15 – İsanın çarmıxa çəkilməsini.
16 – Qanun (Tövrat) və Peyğəmbərlər.
17 – İsanın qurbanı vasitəsilə.
18 – Ölümü.
19 – Əbədi həyatı!

# 30-cu dərs:
# İsanın dirilməsi və qalxması



## İsanın dirilməsi

**Luka 24:1–12**-ni oxuyun.

Şagirdlərin və qadınların, İsanın yenidən dirilməsinə heç bir ümidləri yox idi. Onun dirilməsini gözləmirdilər!

Qadınlar nə üçün qəbirə getdilər? [1]

Onları nə təəccübləndirdi? [2]

Mələklər qadınlara nə dedilər (ayə 5–7)? [3]

İsa ölməzdən əvvəl şagirdlərinə çarmıxda edam ediləcəyini və yenidən diriləcəyini demişdi (Luka 9:22). Bu onlar üçün gözlənilməyən hadisə olmamalı idi!

## İsanın ölümdən dirildiyinə necə əmin ola bilərik?

- Şagirdlər İsanın cəsədini oğurlasaydılar, bədəninə sarılmış kətan bezləri də götürüb aparardılar və geridə buraxmazdılar (Luka 24:12).
- Romalı və yəhudi başçıları İsanın dirilmədiyini sübut etmək üçün yalnız Onun cəsədini göstərməli idilər. Amma onu tapa bilmədilər.
- 40 gün ərzində İsa Özünü bir çox insanlara göstərdi. O qədər çox şahid var idi ki! (1 Korinflilərə 15:3–8).

İsanın ölülərdən dirildiyinə hansı üç səbəbə görə əmin ola bilərik? [4]

1.

2.

3.

**Luka 24:36–43**-ü və **Yəhya 20:24–28**-i oxuyun.

İsa həqiqi insan bədəninə malik olduğunu göstərmək üçün nə etdi? [5]

İsanın indi fərqli olduğuna işarə nə idi? [6]

Dirilmiş İsanın bədəni əvvəlki bədəninə necə bənzəyir və ondan necə fərqlənirdi? [7]

## İsanın dirilməsi bizə nə göstərir?

**1. İsa ölümə qalib gəldi!** Öldü və yenidən dirildi!

*[İsa] ölümü yox etdi.* (2 Timoteyə 1:10)

**2. İsa Şeytanı məğlub etdi!** O, insanları Şeytanın əsarətindən azad edə bilər!

*Başçıları və hakimləri tərk-silah edərək...* (Kolosselilərə 2:15)

**3. İsa günahlarımızın əvəzini ödədi və Allah bunu qəbul etdi!**

*Onun qanı vasitəsilə satınalınmaya — təqsirlərimizin bağışlanmasına malikik...* (Efeslilərə 1:7)

**4. İsa, Ona iman gətirənlərə əbədi həyat bəxş edir!**

*Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun.* (Yəhya 3:16)

Bu, ən gözəl xəbərdir!

İsanın dirilişi bizə hansı 4 şeyi göstərir? [8]

1.

2.

3.

4.

# İsanın göyə qalxması

**Həvarilərin işləri 1:1–11**-i oxuyun.

İsa dirildikdən sonra 40 gün ərzində nə etdi (ayə 3)? [9]

İsa şagirdlərinə nə vəd etdi (ayə 5)? [10]

O zaman onların vəzifəsi nə olacaq (ayə 8)? [11]

Bundan sonra İsaya nə oldu (ayə 9)? [12]

11-ci ayədə mələk şagirdlərə nə dedi? [13]

İsa gələcək!

## İsanın göyə qalxması bizə nə göstərir?

İsanın göyə qalxması bizə 4 şeyi göstərir:

**1. Allah İsanı çox ucaltdı.**

> *Buna görə də Allah Onu çox ucaltdı və Ona lütflə bütün adlardan ali bir ad verdi ki, göydə, yerdə və yerin altında olanların hamısı İsanın adına ehtiram edərək diz çöksün.* (Filipililərə 2:8–10)

**2. İsa dünyanı mühakimə etmək üçün tezliklə qayıdacaq.**

> Biz hamıdan çox İsadan qorxmalıyıq!
>
> *Allahın və dirilərlə ölüləri mühakimə edəcək Məsih İsanın önündə...* (2 Timoteyə 4:1)

**3. Bu arada İsa bizim üçün vəsatət edir.**

> *Məhkum edən kimdir? Ölmüş, üstəlik dirilmiş Məsih İsa həm Allahın sağındadır, həm də bizim üçün vəsatətçilik edir.* (Romalılara 8:34)
>
> O, Ata Allaha deyir: “[Sənin adın] Sənin qiymətli övladındır. Bu günahına görə onu bağışla. Mənim qanım günahını örtdü. Biz onu Müqəddəs Ruhla dolduracağıq ki, bu günahdan əl çəkə bilsin və həyatında Sənə izzət gətirə bilsin”.

**4. Öləndən sonra yeni bədənlərimiz olacaq.**

**1 Korinflilərə 15:35–46**-nı oxuyun.

Diriləndən sonra yeni bədənlərimiz indiki bədənimizdən necə fərqlənəcək? [14]

Biz kamil ruhani bədəndə əbədi yaşayacağıq!

İsanın göyə qalxması bizə nəyi göstərir? [15]

1.

2.

3.

4.

İsa bizim də Allahın hüzuruna daxil olmağımıza yol açdı — hələlik imanla, lakin gələcəkdə həqiqətən!

İsanın dirilişi və göyə qalxması dünyanın ən gözəl xəbəridir! Bunu kiminlə paylaşa bilərsiniz?

## Bu gün nə öyrəndiniz?

# Cavablar

1 – İsanın bədənini ətirli yağlarla məsh etmək üçün.
2 – Qəbirin boş olması!
3 – *Nə üçün siz Dirini ölülər arasında axtarırsınız? O burada yoxdur, O dirilmişdir! Hələ Qalileyada olarkən Onun sizə dediklərini yadınıza salın. Demişdi ki, "Bəşər Oğlu günahkar insanlara təslim olmalı, çarmıxa çəkilməli və üçüncü gün dirilməlidir".*
4 – 1) Şagirdlər Onu cəsədini oğurlasaydılar, ona sarılmış kətan bezi də götürüb aparardılar və geridə buraxmazdılar.
2) Romalı və yəhudi başçılar, İsanın dirilmədiyini sübut etmək üçün yalnız Onun cəsədini göstərməli idilər. Amma onu tapa bilmədilər.
3) 40 gün ərzində İsa Özünü bir çox insanlara göstərdi. O qədər çox şahid var idi ki!
5 – İsa, əllərində mıxların açdığı yaraları və deşilmiş böyrünü onlara göstərdi və bir az balıq yedi.
6 – Qapıları açmadan otağa daxil oldu və otaqdan çıxdı!
7 – Bədən üçün zəruri olan yeməkləri yeyə bilirdi, amma eyni zamanda istədiyi vaxt peyda olub qeyd ola bilirdi.
8 – 1) İsa ölümə qalib gəldi! O, öldü və dirildi.
2) İsa Şeytanı məğlub etdi!
3) İsa bizim günahlarımızın əvəzini ödədi və Allah bunu qəbul etdi!
4) İsa, Ona iman edənlərə əbədi həyat bəxş edir!
9 – Öz ardıcıllarına göründü və çoxlu inandırıcı dəlillərlə Özünü diri olaraq göstərdi.
10 – Onlar Müqəddəs Ruhla vəftiz olacaqlar.
11 – Onlar bütün dünyada Onun şahidləri olacaqlar.
12 – O, göyə qalxdı.
13 – *Aranızdan götürülüb göyə qaldırılan İsanın aparıldığını necə gördünüzsə, elə də qayıdacaq.*
14 – Bədənlərimiz əbədi olacaq, problemsiz, gözəl və heyrətamiz olacaq və biz Allahla heç vaxt pozulmayan ünsiyyətdə olacağıq!
15 – 1) Allah İsanı çox ucaltdı.
2) İsa dünyanı mühakimə etmək üçün tezliklə qayıdacaq.
3) Bu arada İsa bizim üçün vəsatət edir
4) Və biz öldükdən sonra kamil bədənlərimiz olacaq!

# 31-ci dərs:
# Müqəddəs Ruh



## Əhdi-Ətiqdə Müqəddəs Ruh haqqında nə öyrənirik?

1. Müqəddəs Ruh haqqında Əhdi-Ətiqdə ilk dəfə nə vaxt oxuyuruq? [1]

Müqəddəs Ruh başlanğıcdan bəri fəaliyyətdə idi!

2. Əhdi-Ətiqdə Müqəddəs Ruh konkret səbəblərə görə konkret insanların üzərinə gəlirdi.

**1 Şamuel 16:13**-də O, kimin üzərinə gəldi? [2]

3. Həmçinin Allah peyğəmbərlərə də Müqəddəs Ruhu verirdi ki, onlar Allahın sözlərini Allahın xalqına çatdırsınlar.

**2 Peter 1:20—21**-i oxuyun. Peyğəmbərlər Allahın Kəlamını necə çatdırırdılar? [3]

4. Lakin Allah, bir zamanlar bütün xalqının Müqəddəs Ruhu alacağını vəd etdi.

**Yoel 2:28**-ə əsasən, bu necə olacaq? [4]

Əhdi-Ətiqdə Müqəddəs Ruh haqqında nə öyrənirik? [5]

1.

2.

3.

4.

# Əhdi-Cədiddə Müqəddəs Ruh haqqında nə öyrənirik?

**Həvarilərin İşləri 1:8:** Müqəddəs Ruh şagirdlərə nə etmək üçün qüdrət verəcək? [6]

Onlar hər kəsə İsa haqqında danışmalıdırlar!

**Həvarilərin İşləri 2:1—24:** Onlar Müqəddəs Ruhu qəbul edəndə nə baş verdi? [7]

**Həvarilərin İşləri 2:41:** Həmən gün nə qədər insan iman etdi? [8]

Müqəddəs Ruhun gəlməsi, yəhudilərin Məhsul bayramında baş verdi. Bu bayram, Pasxa bayramından sonra əllinci gün qeyd olunduğuna görə həmçinin Əllinci Gün olaraq adlandırılır. Bəzi imanlılar cəmiyyətləri, Allahın həmin gün etdiyi qeyri-adi işlərə görə özlərini "Əllincilər" adlandırırlar.

**Həvarilərin İşləri 2:38:** Müqəddəs Ruhu bəxşiş olaraq kimlər alır? [9]

Müqəddəs Ruh bütün imanlılarda yaşayır. Müqəddəs Ruh daxilinizdə olmasa, siz imanlı ola bilməzsiniz! (Efeslilərə 1:13)

# Müqəddəs Ruh nə edir?

**Romalılara 8:16**-da Müqəddəs Ruh nə edir? [10]

**Romalılara 8:26**-da Müqəddəs Ruh nə edir? [11]

**Qalatiyalılara 5:22—23**-də Müqəddəs Ruh nə edir? [12]

**Həvarilərin İşləri 1:8**-də Müqəddəs Ruh nə edir? [13]

**1 Korinflilərə 12:7—11**-də Müqəddəs Ruh nə edir? [14]

**1 Korinflilərə 12:13**-də Müqəddəs Ruh nə edir? [15]

Müqəddəs Ruh bizi birləşdirər və əsla ayırmaz! Son illərdə bir çox məsihçilərin Müqəddəs Ruhun işi haqqında fikir ayrılıqları Allahı kədərləndirir.

Biz başqa imanlıları sevmiriksə, Müqəddəs Ruhun həyatımızda işləməsinə icazə vermirik.

## *Əlavə fikir*

**1 Korinflilərə 14:1–3:** Paul bizə hansı ənamı ən çox səylə istəməyimizi deyir? [16]

Bu ənam nədən ibarətdir (ayə 3)? [17]

Hamımızın ən vacib vəzifəsi, bir-birimizi ruhən inkişaf etdirmək, həvəsləndirmək və təsəlli verməkdir!

Beləliklə, biz Müqəddəs Ruhun nə etdiyini öyrəndik? [18]

1.

2.

3.

4.

5.

6.

# Müqəddəs Ruhla dolu olan insanın həyatı nəyə bənzəyir?

**Qalatiyalılara 5:22–23**-ü oxuyun.

Müqəddəs Ruhla dolu olan insanın həyatı nəyə bənzəyir? [19]

Həyatımız buna bənzəyir? Əgər bənzəmirsə, nə etməliyik? (**Luka 11:13**-ü oxuyun.) [20]

**Efeslilərə 4:30:** Müqəddəs Ruhu necə kədərləndiririk? Misallar çəkin. [21]

## Qeybət

Qeybət bizim üçün böyük problemdir. Qeybət, kiminsə adına ləkə gətirə bilər və imanlılar cəmiyyətini məhv edə bilər. Bəlkə başqaları onlar haqqında qeybət etdikləri üçün toplantılara artıq getməyən insanları tanıyırsınız. Qeybət etməmək üçün bir-birimizə necə kömək edə bilərik? Kimsə qeybət etməyə başlasa, nə deyə bilərik? [22]



Biz Müqəddəs Ruhu razı salmalıyıq — Onu kədərləndirməməliyik!

Hər gün Allahdan bizi Müqəddəs Ruhla doldurmasını istəməliyik ki, İsanın nuru ola bilək və ətrafımızdakı hər kəsə xeyir-dua verə bilək!



### Bu gün nə öyrəndiniz?

# Cavablar

1 – Yaradılış 1:2-də.
2 – Davudun.
3 – Peyğəmbərlər Müqəddəs Ruh tərəfindən idarə olunub Allahın sözlərini danışırdılar.
4 – *Oğullarınız və qızlarınız peyğəmbərlik edəcək, cavanlarınız görüntülər, ağsaqqallarınızsa röyalar görəcək.*
5 – 1) Müqəddəs Ruh başlanğıcdan bəri fəal idi!
2) Əhdi-Ətiqdə Müqəddəs Ruh konkret səbəblərə görə konkret insanların üzərinə gəlirdi.
3) Həmçinin Allah peyğəmbərlərə də Müqəddəs Ruhu verirdi ki, onlar Allahın sözlərini Allahın xalqına danışsınlar.
4) Lakin Allah, bir zamanlar bütün xalqının Müqəddəs Ruhu alacağını vəd etdi.
6 – Təkcə Yerusəlimdə deyil, dünyanın dörd bir bucağında İsanın şahidləri olmaq üçün.
7 – Allah onları dəyişdirdi. Onlar cəsarətli şahidlər oldular. Və həmin gün onlar Yerusəlimə gələn bütün ziyarətçilərə öz dillərində Müjdəni izah edə bildilər.
8 – Üç min nəfər!
9 – Bütün imanlılar — tövbə edib vəftiz olunanların hamısı.
10 – Müqəddəs Ruh bizə Allaha məxsus olduğumuz və Onun övladları olduğumuz haqda əminlik verir.
11 – Müqəddəs Ruh bizə dua etməkdə kömək edir.
12 – Müqəddəs Ruh, İsa kimi olmağımız üçün ürəyimizi və xasiyyətimizi dəyişdirir.
13 – Müqəddəs Ruh, hər kəsə İsa haqqında danışmağımız üçün bizə qüdrət verir.
14 – Müqəddəs Ruh, imanlılar cəmiyyətində bir-birimizə xidmət edə bilməyimiz üçün hər kəsə ənamlar verir.
15 – Müqəddəs Ruh bizi birləşdirir.
16 – Peyğəmbərlik ənamını.
17 – İnsanları ruhən inkişaf etdirmək, həvəsləndirmək və təsəlli vermək üçün onlarla danışmaqdan ibarətdir.
18 – 1) Müqəddəs Ruh, Onun övladları ola bilməyimiz üçün bizə Allaha məxsus olduğumuza dair əminlik verir.
2) Müqəddəs Ruh, dua etməyimizə kömək edir.
3) Müqəddəs Ruh, İsaya bənzəməyimiz üçün ürəklərimizi və xarakterimizi dəyişdirir.
4) Müqəddəs Ruh, hər kəsə İsa haqqında danışmağımız üçün bizə qüdrət verir.
5) Müqəddəs Ruh, imanlılar cəmiyyətində bir-birimizə xidmət edə bilməyimiz üçün hər kəsə ənamlar verir.
6) Müqəddəs Ruh bizi birləşdirir.
19 – Bu insan məhəbbət, sevinc və sülhlə dolu olur, səbirli, xeyirxah, yaxşı, sədaqətli, həlim və nəfsə hakim olur.
20 – Allahdan bizə Müqəddəs Ruhunu verməsini istəməliyik!
21 – Misal üçün, pis şeylər etməklə, pis sözlər söyləməklə, yalan danışmaqla, kobud sözlər deməklə, qeybət etməklə, internetdə pis şeylərə baxmaqla.
22 – İnciməyin, amma qeybət qırmaq yaxşı deyil. Bu adamın yanında söyləyə bilməyəcəyiniz sözləri mənə deməyin. Mən bunları eşitməsəm, başqalarına yaya bilməyəcəyəm!

# 32-ci dərs:
# İmanlılar cəmiyyəti



## İmanlılar cəmiyyəti necə meydana gəldi?

**Həvarilərin İşləri 2:36–41**-i oxuyun (Bu, onlar Müqəddəs Ruhu qəbul etdikdən sonra Peterin verdiyi vəzinin son hissəsidir).

Onlar Allahın Əhdi-Ətiqdə vəd etdiyi Məsihlə nə etdilər (**ayə 36**)? [1]

Bu sözlər onlara necə təsir etdi (**ayə 37**)? [2]

Peter onları hansı 2 şeyi etməyə çağırdı (**ayə 38**)? [3]

1.

2.

"Tövbə etmək" nə deməkdir? [4]

Vəftiz nəyi təmsil edir? [5]

Bu həmçinin İsanın ardınca getdiyimizi və ruhani bir ailəyə, imanlılar cəmiyyətinə qoşulduğumuzu göstərir.

Xüsusilə də ailəmiz və dostlarımız buna razı deyillərsə, vəftiz olmaq çox cəsarət tələb edir.

Müqəddəs Ruhu kim qəbul edir (**ayə 38–39**)? [6]

## İmanlılar cəmiyyətinin böyüməsi

**Həvarilərin İşləri 1:15:** Bu günə qədər neçə imanlı var idi? [7]

**Həvarilərin İşləri 2:40–41:** Günün əvvəlində imanlılar, qorxmuş şagirdlərdən ibarət kiçik bir qrup idi. Günün sonunda daha neçə nəfər iman etdi? [8]

İmanlılar cəmiyyəti beləcə meydana gəldi!

# İmanlılar cəmiyyəti nə edir?

**Həvarilərin İşləri 2:42–47**-ni oxuyun.

İmanlılar cəmiyyəti bir bina deyil, ailədir!

İmanlılar cəmiyyətinin meydana gələndən sonra ilk günləri, xüsusi bir vaxt idi. Biz hər gün bir araya gələ bilməsək belə, bir ailəyik. İsa, ardıcıllarının Ona gizli iman etmələrini istəmir. Bir-birimizə ehtiyacımız var. Biz bir yerə toplaşmalıyıq.

**Ayə 42**-də imanlılar hansı 4 şeyi etdilər? [9]

1.

2.

3.

4.

"Özümüzü həvarilərin təliminə həsr etmək" bizim üçün nə deməkdir? [10]

Allahın Kəlamını hər gün oxuyursunuz? Allah haqqında mümkün qədər çox şey öyrənmək istəyirsiniz?

"Özümüzü ünsiyyətə həsr etmək" bizim üçün nə deməkdir? [11]

Bunu necə edirsiniz?

Nə üçün onlar özlərini "çörək bölməyə" həsr etdilər? [12]

Rəbbin süfrəsini birlikdə qəbul etmək imanlılar üçün çox vacibdir.

İnsanlar həmişə duada olduğumuzu deyə bilərmi?

Başqa insanların Allahın Padşahlığına girməsi üçün tez-tez dua edirikmi?

## Çağırış



Hər gün telefona nə qədər vaxt sərf edirsiniz (telefonla danışır və ya telefonda bir şey oxuyursunuz)? Duaya və Müqəddəs Kitabı oxumağa gündə nə qədər vaxt sərf edirsiniz? Daha vacib olan nədir?

## İsanın adı ilə dua etmək nə deməkdir?



Bu o deməkdir ki, biz günahlarımızın bizi Allahdan ayırdığını qəbul edirik. Öz yaxşı əməllərimizlə Ata Allahın hüzurunda durmağa haqqımız yoxdur. Lakin İsa çarmıxda tökdüyü qanı ilə bizi bağışladığı üçün Allahın hüzurunda dayana bilərik. Beləliklə, biz Allahın hüzurunda saleh olduğumuz üçün Allah bizim dualarımızı eşidir! Bu, ən ecazkar haqqımızdır!

İsanın adı ilə dua etmək həmçinin Onun iradəsinə tabe olmaq deməkdir.

**Ayə 44—45**-də imanlılar nə edirdilər? [13]

(Bir azdan bu barədə danışacağıq)

**Ayə 46—47**-də imanlılar daha nə edirdilər? [14]

Biz Allaha həmd edəndə, bu, Onu da sevindirir, bizi də!

İnsanlar nə qədər tez-tez imana gəlirdi? [15]

Qoy Allah bunu bizim cəmiyyətimizdə etsin!

Gözəl günlər idi!

# Biz cəmiyyətimizdə özümüzü necə bir-birimizə həsr edə bilərik?

İmanlılar cəmiyyətində bir-birimizə necə məhəbbət göstərə biləcəyimiz haqqında hansı fikirləriniz var? Ən azı 7 cavab tapın! [16]

1.

2.

3.

4.

5.

6.

7.

Problemlərinizi məsihçi rəhbərlərinizə söyləməkdən çəkinməyin, çünki onlar sizin üçün dua edirlər. Bu, onları təşviq edir, onlara güvəndiyinizi göstərir. Allah onların dualarına cavab verdikdən sonra buna görə sevinə bilərlər və vəzləri ilə cəmiyyətə daha yaxşı təlim öyrədə bilərlər.

Allah cəmiyyətimizdə imanlıların sayını hər gün artırsın!

## Çağırış

Əhdi-Cədidi oxuyanda görürük ki, üstündən çox keçməmiş imanlılar cəmiyyətində problemlər yaranmağa başlayıb. Mükəmməl bir imanlılar cəmiyyəti yoxdur! İsanın ikinci gəlişinə qədər mükəmməl imanlılar cəmiyyəti olmayacaq!

Amma biz əlimizdən gələni etməliyik ki, getdikcə daha çox insan Allahı həyatımızda görsün və sözlərimizdən İsanın kim olduğunu öyrənə bilsin!

## *Əlavə:* Pul



Pul, cəmiyyət üzvləri arasında bir çox problemlərə səbəb ola bilər! Görək Paul pul haqqında nə dedi.

- **1 Timoteyə 6:10**-da Paul pul haqqında nə dedi? [17]

  Biz pulu Allahdan çox sevəndə nə baş verir? [18]

- **1 Korinflilərə 16:2**-də Paul pul haqqında nə dedi? [19]

  Paul onları nəyə vərdiş etməyə təşviq etdi? [20]

- **2 Saloniklilərə 3:10**-da Paul pul haqqında nə dedi? [21]

  Bu nə deməkdir? [22]

- **Romalılara 13:8**-də Paul pul haqqında nə dedi? [23]

  Bu bizim üçün nə deməkdir? [24]

Vaxtında qaytarılmayan borc dostluğa və imanlılar cəmiyyətinə zərər verir.

Pul haqqında Pauldan nə öyrənirik? [25]

1.

2.

3.

4.

Yalnız borcunuzu vaxtında qaytara biləcəyiniz təqdirdə borc alın. Maddi cəhətdən həqiqətən köməyə ehtiyacınız varsa, bu barədə pastorunuzla danışın. Maddi cəhətdən korluq çəkmək ayıb deyildir. Dostluğa və imanlılar cəmiyyətinə zərər vermək ayıbdır!

Başqalarına yaxşılıq etməliyik. Başqalarını aldatmaq günahdır.

## Pulunuz haqqındaki fikirlərinizi dəyişməlisinizmi?

# Cavablar

1 – Onu çarmıxa çəkib öldürdülər.
2 – Onları çox kədərləndirdi.
3 – 1) Tövbə etməyə.
2) Vəftiz olmağa.
4 – Allaha qarşı itaətsizliyə görə peşmanlığını ifadə etmək və Allahın göndərdiyi Məsihin ardınca getməyə başlamaq deməkdir.
5 – İsanın bizi bütün günahlarımızdan təmizləməsini təmsil edir. Biz özümüz üçün öldük və İsa üçün yaşayırıq.
6 – Allahın çağıracağı hər kəs. Tövbə edib vəftiz olunan bütün imanlılar.
7 – 120.
8 – Təxminən üç min nəfər!
9 – 1) Onlar özlərini həvarilərin təliminə həsr etdilər.
2) Onlar özlərini hər şeydə şərik olmağa həsr etdilər.
3) Onlar özlərini çörək bölməyə həsr etdilər.
4) Onlar özlərini duaya həsr etdilər.
10 – Biz Allahın Kəlamını oxuyuruq, üzərində düşünürük, müzakirə edirik və öyrəndiklərimiz üçün dua edirik. Biz bunu həm təklikdə, həm də digər imanlılarla birlikdə etməliyik.
11 – Biz bir-birimizi sevirik və bir-birimizin qayğısına qalırıq. Bir yerdə yığışırıq.
12 – İsanın onların günahlarının bağışlanması üçün öldüyünü xatırlamaq üçün!
13 – Çox səxavətlə və fədakarlıqla hərəkət edirdilər.
14 – Allaha həmd edirdilər.
15 – Hər gün!
16 – Misal üçün:
1) başqa cəmiyyət üzvlərinə zəng edə bilərik;
2) SMS göndərə bilərik;
3) imkan olanda yığışa bilərik;
4) hər həftə cəmiyyətə gələ bilərik — sizi cəmiyyətdə görmək başqalarını ruhlandırır;
5) bir-birimizə kömək etməyə hazır ola bilərik (məsələn kimsə xəstədirsə və ya uşağı olubsa);
6) başqaları üçün dua edə bilərik;
7) Müqəddəs Kitab dərslərində öyrəndiklərimizi başqaları ilə bölüşə bilərik. Allahın Kəlamından nə qədər çox öyrənsək, Allah bizim vasitəmizlə başqalarına o qədər çox xeyir-dua verəcək!
17 – Pulpərəstlik hər cür pisliyin köküdür.
18 – Pulumuzu Allahı sevindirmək üçün deyil, özümüzü sevindirmək üçün xərcləyirik.
19 – *Həftənin ilk günü gəlirinizə uyğun olaraq hər biriniz bir miqdar pul ayırsın.*
20 – Pul verməyə hazır ola bilmək üçün müntəzəm olaraq pulu kənara qoymağa.
21 – *İşləmək istəməyən yemək yeməsin!*
22 – Tənbəl və işləmək istəməyən birinə pul verməyin.
23 – *Bir-birinizi sevməkdən başqa heç nədə heç kimə borclu qalmayın; çünki başqasını sevən Qanunu yerinə yetirmiş olur.*
24 – Borclarımızı mümkün qədər tez ödəməliyik!
25 – 1) Allahın bizə verdiyi puldan mümkün qədər yaxşı istifadə etmək üçün Allahın hikmətinə ehtiyacımız var.
2) Səxavətli olmağa hazır olun.
3) Başqalarını tənbəl olmağa və işləməməyə ruhlandırmaq istəmirik.
4) Dostluğa və imanlılar cəmiyyətinə zərər verməmək üçün borcları tez ödəyin.

33-cü dərs:

# Xoş Xəbəri başqalarına yaymaq



## Bütün millətlər

**Yaradılış 12:1—7**-də Allah İbrahimə nə vəd etdi? [1]

Bu gün, üstündən iki min il keçəndən sonra, biz Allahın Öz vədlərinə necə əməl etdiyini görürük!

Allahın Əhdi-Ətiqdə vəd etdiyi Məsihi necə göndərdiyini gördük. İndi isə bütün millətlər xilas olmaq üçün Məsih haqqında eşitməlidir.

**Matta 28:18—20**-də İsa şagirdlərinə nə dedi? [2]

**Həvarilərin İşləri 1:8**-i oxuyun. Şagirdlər bütün millətləri necə İsanın şagirdi edə bilərdilər? [3]

Bu iş bitməyib — hələ də İsa haqqında eşitməyənlər var. Hal-hazırda elə xalqlar var ki, Müqəddəs Kitab onların dillərinə tərcümə olmayıb və onların dilində danışan heç bir imanlı yoxdur (məsələn, Dağıstanda elə xalqlar var).

Bütün insanlara İsa haqqında danışmaq bizim vəzifəmizdir!

Həvarilərin İşləri Kitabında bu prosesin necə başladığını görürük.

## Yerusəlimdən kənarda

İsa şagirdlərinə harada Onun şahidləri olacaqlarını söylədi (**Həvarilərin İşləri 1:8**)? [4]

Gəlin bu fərqli yerlər haqqında düşünək.

## 1. Yerusəlimdə

Həvarilərin İşləri Kitabında İsanın 12 şagirdi "Həvarilər" adlandırıldı.

Yəhuda İsaya xəyanət edib intihar etidiynə görə, digər həvarilər onun yerinə kimi seçdilər (**Həvarilərin İşləri 1:26**)? [5]

Erkən imanlılar cəmiyyətinin ilk rəhbərləri ancaq bu 12 həvari idi.

Ondan sonra daha kim həvari oldu? **(1 Korinflilərə 1:1)** [6]

**Həvarilərin İşləri 6:7:** Onlar əvvəlcə harada təbliğ edirdilər? [7]

Lakin yəhudi başçılar həvarilərə qarşı çıxdılar.

**5:17–20**-də onlar nə etdilər? [8]

**7:59–60**-da onlar nə etdilər? [9]

**5:41–42**-də həvarilər nə etdilər? [10]

Çox adam İsaya iman etdi!

## 2. Bütün Yəhudeya və Samariyada

**8:2–5:** Güclü təqib zamanı nə baş verdi? [11]




Yuxarıdakı xəritəyə baxın. Samariya, Yerusəlimin şimalında bir ərazidir.

## 3. Bütün dünya

**Nehemya 10-cu fəsli** oxuyun.

Allah Peterə nə öyrətdi? [12]

İlk imanlıların Müjdənin qeyri-yəhudilər üçün də nəzərdə tutulduğunu başa düşmələri çox mühüm idi!

**Həvarilərin İşləri 11:19–21:** İmanlılar hara getdilər? [13]

Xəritəyə baxın.




Finikiya — bu gün Livandır.

Kipr, bu gün Türkiyədən cənubda yerləşən böyük bir adadır.

Antakya, Türkiyənin cənub-şərqində yerləşən və Hatay adı ilə bilinən şəhərdir.

Bir çox yəhudi və qeyri-yəhudilər İsaya iman etdilər!

# Daha uzaq yerlərə səyahət




**Həvarilərin İşləri 13–20**-də Paulun və digər imanlıların indiki Türkiyə və Yunanıstan ərazilərini gəzərək bir çox imanlılar cəmiyyətləri qurduqlarını oxuyuruq. Daha sonra Paul bu cəmiyyətləri ziyarət etdi.

Həvarilərin İşləri Kitabında biz İsa haqqındakı Müjdənin bütün millətlərə yayılma prosesinin necə başladığını görürük.

8:26–40-da ilk afrikalı adamın necə məsihçi olduğu haqqında oxuyuruq.

Bu prosesi necə davam etdirə bilərik?

Xoş Xəbəri heç vaxt eşitməmiş insanlarla necə paylaşa bilərik?

Həvarilərin İşləri Kitabında başlayan tapşırığı necə davam etdirə biləcəyinizə dair hansı fikirləriniz var? [14]

## Bu tapşırığı davam etdirmək üçün bir-birinizə dua edin!

# Cavablar

1 – Ondan böyük bir millət törədəcəyini, ona torpaq verəcəyini və yer üzündəki bütün millətlərin onun vasitəsilə xeyir-dua alacağını vəd etdi.
2 – Gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin.
3 – Müqəddəs Ruh onlara bunu etmək üçün güc verəcək.
4 – Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək.
5 – Mattiyanı.
6 – Paul.
7 – Yerusəlimdə.
8 – Həvariləri həbs etdilər.
9 – Yaqubu öldürdülər.
10 – Onlar İsa haqqında təbliğ etməyə davam etdilər!
11 – Bir çox imanlılar Yerusəlimdən qaçdılar. Oradan çıxıb şimala doğru getdilər, Yəhudeya və Samariyadan keçdilər.
12 – Əvvəlcə onlar yalnız yəhudilərlə İsa haqqında danışırdılar, lakin indi başqa millətlərdən olan insanlara da Müjdəni izah etməli oldular. Bu insanlar yəhudi deyil idilər, Əhdi-Ətiqi bilmirdilər və tək Allaha ibadət etmirdilər.
13 – Finikiya, Kipr və Antakyaya.
14 – Belə fikirlər ola bilər:
- İsa haqqında heç vaxt eşitməmiş insanlar üçün dua edə bilərsiniz (həm ölkənizdə, həm də digər ölkələrdə);
- ailəniz, dostlarınız və qonşularınızla İsa haqqında paylaşarkən bir-birinizi dəstəkləmək üçün imanlı dostlarınızla birlikdə dua edə bilərsiniz;
- Müqəddəs Kitabın hekayəsini başqalarına əmin şəkildə izah edə blimək üçün onu bir-birinizə izah etməyi məşq edə biləsiniz;
- ətrafınızdakı insanlara İsanın məhəbbətini necə göstərə biləcəyinizi düşünə bilərsiniz;
- Bəlkə Allah sizi İsa haqqında eşitməmiş bir xalqın yanına göndərmək istəyir?

## 34-cü dərs:

# Əhdi-Cədiddəki Məktublar



İncil (Əhdi-Cədid) ilk imanlıların əlində yox idi. Onlar bir çox çətinliklərlə üzləşirdilər. Və İsanın yolunda düzgün yaşamaq üçün müdrikliyə ehtiyacları var idi.

Əhdi-Cədiddə 21 məktub var. İmanlılar cəmiyyəti geniş bir əraziyə səpələnmişdi, buna görə də həvarilər imanlıları ruhlandırmaq üçün onlara məktublar yazıb göndərirdilər.

Məktubları alan cəmiyyətlər onların surətini köçürüb başqa cəmiyyətlərə göndərirdilər. Belə ki, bir çox imanlılar cəmiyyəti onların hikmətindən faydalana bilsinlər.

## Əhdi-Cədid (İncil) dəyişdirilibmi?

Bəzi insanlar İncilin dəyişdirildiyini söyləyirlər. Amma bu mümkün deyil, çünki Məktublar və Müjdələr İsa Məsihi öz gözləri ilə görmüş şahidlər və onları şəxsən tanıyan şəxslər tərəfindən yazılmışdır. İlk imanlılar bu yazıları həqiqət olaraq qəbul etmiş və çox geniş bir əraziyə yaymışlar. Bunlar yayılandan sonra bunların hamısını toplamaq və dəyişdirib yeni versiyalarını yaymaq qeyri-mümkün idi. Bundan əlavə, ilk imanlılar həqiqət olaraq qəbul etdikləri bu yazıların dəyişdirilməsinə yol verməzdilər!



Əhdi-Cədidin 24 000-dən çox əlyazma hissələri tapılıb. Bu əlyazma hissələrinin 230-u İslam dini meydana gəlməzdən əvvəlki dövrə aiddir. Bu əlyazma hissələri əhəmiyyətlidir, çünki Əhdi-Cədidin dəyişdirilmədiyini göstərirlər!

Əhdi-Cədidin dəyişdirilməsi nə üçün qeyri-mümkündür? [1]

## Məktublar:

- İmanlılara İsa və İsanın xilası haqqında öyrətdi və beləcə onları Rəbbə sadiq qalmağa təşviq etdi.
- İmanlıların **səhvlərini düzəltdi** ki, həqiqəti bilsinlər.
- İmanlılara **düzgün yaşamağı öyrətdi**, Allahı razı salsınlar deyə.

Məktubların müəllifləri bunları hansı üç məqsədlə yazdılar? [2]

1.

2.

3.

# Bu məktubların müəllifləri kimdir?

**Yaqub, Peter, Yəhya** və **Yəhuda** imanlılara ruhlandırıcı məktublar yazdılar.

**Paulun** 9 məktubu imanlıların cəmiyyətlərinə, 4 məktubu konkret insanlara ünvanlanmışdır: **Timoteyə** yazdığı iki məktub və Titə **yazdığı bir məktub, öz cəmiyyətlərinə düzgün rəhbərlik etmələrinə kömək etmək üçün yazılmışdır.** Filimona **yazdığı məktub isə şəxsi xarakter daşıyır.**

**İbranilərə** Məktubun müəllifi məlum deyil, lakin bir çoxları Paulun və ya onun həmkarlarından birinin (məsələn, Barnaba və ya Apollos) onu yazdığına inanır.

Əhdi-Cədiddəki Məktubların əksəriyyətini kim yazmışdır? [3]

# Bu Məktubları necə başa düşə bilərik?

Məktubdakı bir parçanı başa düşmək üçün aşağıdakı 4 sualı vermək faydalı ola bilər:

1. Bu məktub yazıldığı zaman imanlılar cəmiyyətində hansı **problemlər** var idi?
2. Hansı **ifadələr və ya sözlər təkrarlanır**? Bəzi insan təkrarlanan ifadələrin altından xətt çəkməyi xoşlayır.
3. **Əsas mövzu** nədir və müəllif oxucularına nəyi öyrətmək istəyir? Bunu qısaca xülasə edə bilərsinizmi?
4. Bu imanlılar cəmiyyəti **bizim imanlılar cəmiyyətimizə** necə bənzəyir? Bizim çətinliklərimiz onlarınkına nə dərəcədə bənzəyir? Bu mətnin hansı ümumi mənası bu günkü imanlılar cəmiyyətimizə aiddir?

Hansı 4 sual Əhdi-Cədiddəki Məktubları anlamağımıza kömək edir? [4]

1.

2.

3.

4.

Gəlin Kolosselilərə Məktubdan bəzi ayələri birlikdə öyrənək.

**Kolosselilərə 1:9–20**-ni oxuyun.

**1. Təxmin edə bilərsiniz: Onların hansı problemləri var idi?** [5]

Yalançı müəllimlər imanlılara deyirdilər ki, bilmədikləri təlimlər var və İsa ilə münasibətdə olmaq kifayət deyil.

**2. Hansı ifadələr və ya sözlər təkrarlanır?** [6]

Hansı idafələrdə **"hər" və ya "bütün"** sözləri işlədilmişdir? [7]

Paul onlara demək istəyirdi ki, İsada Allah ilə münasibət və əbədi həyat üçün lazım olan **hər şeyə** malikik!

**3. Əsas mövzu nədir və müəllif oxucularına nəyi öyrətmək istəyir?** [8]

**4. Bu imanlılar cəmiyyəti bizim imanlılar cəmiyyətimizə necə bənzəyir? Bizim çətinliklərimiz onlarınkına necə bənzəyir? Bu mətnin hansı ümumi mənası bu günkü imanlılar cəmiyyətimizə aiddir?** [9]

İsanın yetərli olmadığını və Ondan sonra gələn başqa bir peyğəmbərə ehtiyacımız olduğunu söyləyən insanlara nə deyə bilərik? [10]

## *Əlavə*

Məktubları (və ya Müqəddəs Kitabın hər hansı bir hissəsini) öyrənməyin başqa bir üsulu, oxuduğunuz fəsillə bağlı özünüzə bu 5 sualı verməkdən ibarətdir. Gəlin bunu birlikdə edək.

**1. Bu mətndə Allah (Ata, Oğul və Müqəddəs Ruh) haqqında nə deyilir?** [11]

**2. Bu mətndə insanlar haqqında nə deyilir?** [12]

**3. Bu mətndə bizim üçün bir əmr, bir xəbərdarlıq və ya bir nümunə varmı?** [13]

**4. Allah bu mətndə bizə nə öyrədir?** [14]

**5. Bunu kiminlə paylaşa bilərəm?** [15]

## İsada Allah ilə münasibət və əbədi həyat üçün lazım olan hər şeyə malikik!

## Ev tapşırığı

1 Salonikililərə Məktubu oxuyun ki, növbəti dərsdə onu birlikdə öyrənə bilək.

## Cavablar

1 – Çünki Məktublar və Müjdələr İsa Məsihi öz gözləri ilə görmüş şahidlər və ya onlar hələ sağ ikən onları tanıyan şəxslər tərəfindən yazılmışdır. İlk imanlılar bu yazıları həqiqət olaraq qəbul etmiş və çox geniş bir əraziyə yaymışlar. Bunlar yayılandan sonra bunların hamısını toplamaq və dəyişdirib yeni versiyalarını yaymaq qeyri-mümkün idi. Bundan əlavə, ilk imanlılar həqiqət olaraq qəbul etdikləri bu yazıların dəyişdirilməsinə yol verməzdilər!

2 – 1) imanlılara İsa və İsanın verdiyi xilas haqqında öyrətmək və beləcə onları Rəbbə sadiq qalmağa təşviq etmək üçün;
2) imanlıların səhvlərini düzəltdi ki, həqiqəti bilsinlər;
3) imanlılara düzgün yaşamağı öyrətdi, Allahı razı salsınlar deyə.

3 – Paul.

4 – 1) Onların hansı problemləri var idi?
2) Əsas mövzu nədir və müəllif oxucularına nəyi öyrətmək istəyir?
3) Hansı ifadələr və ya sözlər təkrarlanır?
4) Bu imanlılar cəmiyyəti bizim imanlılar cəmiyyətimizə necə bənzəyir? Bizim çətinliklərimiz onlarınkına nə qədər bənzəyir? Bu mətnin hansı ümumi mənası bu günkü imanlılar cəmiyyətimizə aiddir?

5 – Onlar fikirləşdilər ki, bəlkə İsa yetərli deyildir.

6 – Paul "hər" və "bütün" sözlərini təkrarlayır.

7 – *Onu **hər** cəhətdən razı salasınız*
*__hər__ cür xeyirli əməldə bəhrə verib*
*__hər__ cür qüdrətlə möhkəmlənəsiniz*
*__bütün__ yaradılış üzərində ilk doğulan*
*Çünki... __hər__ şey... Onda yarandı,*
*__hər__ şeydən əvvəl var olan Odur*
*__hər__ şey Onda bərqərar olur*
*__Hər__ şeydə birinci olsun deyə*
*Allah Onda tam bütövlüyü ilə yaşamağa və... **hər** şeyi Özü ilə barışdırmağa razı oldu*

8 – İsa, Allahın Özüdür (ayə 15); görünən və görünməyən hər şey üzərində səlahiyyətə malikdir (ayə 16); Onun ölümü vasitəsilə Ata Allah Öz yaratdıqları ilə barışmışdır (ayə 20). Beləliklə, bizə yalnız İsa lazımdır!

9 – Bəzən insanlar bizə Müqəddəs Kitabın və ya İsanın yetərli olmadığını və başqa bir şeyə ehtiyacımız olduğunu söyləməyə çalışırlar.

10 – Bu mətndə istifadə edə biləcəyiniz ifadələri tapın!

11 – Müqəddəs Ruh bizə hikmət və dərrakə verir.
Ata bizi nur Padşahlığında Öz müqəddəs xalqının mirasına şərik olmağa layiq gördü.
Ata bizi qaranlığın hökmranlığından xilas etdi və bizi sevimli Oğlunun Padşahlığına gətirdi.
İsa görünməz Allahın surətidir.
İsa bütün yaradılmış üzərində ilk doğulandır.
Göydə və yer üzərində hər şey İsa vasitəsilə və İsa üçün yaradıldı.
İsa hər şeydən əvvəl var Olandır və hər şey Onda bərqərar olur.
İsa bədənin, yəni imanlılar cəmiyyətinin Başıdır.
İsa hər şeyin başlanğıcıdır, ölülər arasından ilk doğulandır.
İsa hər şeydə üstünlüyə sahibdir.
Allahın bütün dolğunluğu ilə İsada yaşaması Allahın iradəsi idi.
İsa bizim üçün öldü ki, biz azadlığa, günahların bağışlanmasına sahib olaq.
Allah, İsa vasitəsilə hər şeyi Özü ilə barışdırır və İsanın çarmıxda tökülən qanı vasitəsilə hər şeylə barışıq yaradır.

12 – Allah bizi yaratdı və Allahın Oğlu bizi xilas etdi.

13 – Paul daim Kolossedəki imanlılar cəmiyyəti üçün dua edirdi. Bu, bizim üçün yaxşı nümunədir.
Bizim vəzifəmiz belədir:
- Rəbbə layiq həyat sürmək və hər şeydə Onu razı salmaq;
- daim yaxşı işlər görmək;
- Allahı getdikcə daha çox tanımaq;
- Onun gücü və qüdrəti ilə güclənmək, dözümlü, səbirli və sevincli olmaq;
- Bizi Nur Padşahlığında Öz müqəddəs xalqının mirasında pay almağa layiq edən Səmavi Ataya şükür etmək.

14 – Bu ayələr vasitəsilə Allahın sizə öyrətdiklərini paylaşın.

15 – Bunu kiminlə paylaşa bilərsiniz?

# 35-ci dərs:

# 1 Saloniklilərə Məktub



## Bu Məktub haqqında ümumi məlumat

Bu məktub Yunanıstanın Salonik şəhərindəki imanlılara yazılmışdır. Salonik, Paulun dövründə dünyanın ən böyük və mühüm şəhərlərindən biri idi. Xəritəyə baxın və bu şəhəri tapın.

Ehtimal ki, bu, Paulun yazdığı ilk məktubdur.

**Həvarilərin İşləri 17:1–10**: Salonikdəki imanlılar cəmiyyətinin necə yarandığını təsvir edin.

Paul orada nə qədər müddət qalmışdı? [1]

Paul, Salonikə ilk səfərindən sonra oradakı cəmiyyətə təkrar baş çəkmək istədi, lakin imkanı olmadı. Ona görə də bu məktubu yazdı. Bu, Allahın problemlərimizdən yaxşılıq üçün necə istifadə etdiyinin gözəl bir nümunəsidir. 2 000 il ərzində Allah bu məktub vasitəsilə milyonlarla insana xeyir-dua verib!




## Bu məktubda Paul 4 şey haqqında yazmaq istəyirdi:

1. Bəzi imansızlar Paul haqqında pis sözlər söylədiklərinə görə o, yaxşı bir insan olduğunu sübut etməli idi (**2:1–3:10**). İmanlılar Paulun yaxşı olmadığını düşünsəydilər, onlara öyrətdiklərinə inanmağa davam etməzdilər.

2. Paul, imanlarına görə təqib olunan imanlıları ruhlandırmaq istəyirdi (**1; 2–9; 2:14; 3:1–5**).

3. Paul onlara müqəddəs həyat sürməli olduqlarını xatırlatmaq istəyirdi (**4:1–12; 5:12–22**).

4. Paul, imanlıların öləndə nə baş verdiyini və İsa təkrara gələndə nə olacağını dərk etmələrini istəyirdi. (**4:13–5:11**).

Paul, Salonikdəki imanlılara hansı 4 şey haqqında yazmaq istəyirdi? [2]

1.

2.

3.

4.

# 1-ci fəsil

Müqəddəs Kitabın hər hansı bir hissəsini öyrənmək üçün istifadə edə biləcəyimiz 5 suala cavab verək.

Bu 5 sual nədir? [3]

1.

2.

3.

4.

5.

**1. Bu mətndə Allah (Ata, Oğul və Müqəddəs Ruh) haqqında nə deyilir?** [4]

**2. Bu mətndə insanlar haqqında nə deyilir?** [5]

**3. Bu mətndə bizim üçün bir əmr, bir xəbərdarlıq və ya bir nümunə varmı?** [6]

**4. Allah bu mətndə bizə nə öyrədir?** [7]

## İman, ümid və məhəbbət

İman, ümid və məhəbbət Paulun Məktublarında mühüm sözlərdir.

İman, ümid və məhəbbət həyatımızın təməlidir. Onlardan biri əskik olsa, imanımız uzun sürməz.

**İman:** İsanın dünyanın Hakimi olaraq yaxında təkrar gələcəyini bilmək, hər gün, hər dəqiqə etdiklərimə təsir edirmi?

**Məhəbbət:** Sevmədiyim və ya sevməkdə çətinlik çəkdiyim bir nəfər varmı? Əgər varsa, Allahdan o adama məhəbbət göstərmək üçün mənə fürsət verməsini xahiş etməliyəm. Sevmədiyimiz adamlara məhəbbət göstərməklə onları sevməyə başlayırıq!

**Ümid:** İnsanlar İsaya iman etdiyimizə görə bizimlə pis rəftar edəndə, İsanın tezliklə bizi əbədi olaraq Onunla birlikdə yaşamağa aparacağını bilirik. İsa bizə möhkəm dayanmaq üçün cəsarət verəcək!

Biz bilirik ki, İsa təkrar gələndə Onunla birlikdə yaşayacağımız yeni yerlə müqayisədə indiki problemlərimiz heç bir şey olacaq!

Hətta əzab çəkdiyimiz zamanlarında belə sevinc və sülhümüz varsa, insanlar həyatımızda Müqəddəs Ruhun gücünü görə bilirlər. Maraqlıdır ki, imanlılar cəmiyyəti əsrlər boyu təqiblərə məruz qaldığı zaman daha sürətlə böyümüşdür.

**Bunlardan hansında böyüməyiniz üçün Allahdan kömək diləməlisiniz: imanda, ümiddə, yoxsa məhəbbətdə?**

**5. Bunu kiminlə paylaşa bilərəm?** [8]

## Ev tapşırığı

Bu həftə 1 Saloniklilərə Məktubu yenidən oxuyun və hər fəsildən sonra özünüzə bu beş sualı verin.

# Cavablar

1 – Yalnız iki həftə (3 şənbə).
2 – 1) Paul, yaxşı insan olduğunu sübut etməli idi, çünki bəzi imansızlar onun haqqında pis sözlər deyirdilər. İmanlılar Paulun yaxşı olmadığını düşünsəydilər, onlara dediklərinə inanmağa davam etməzdilər.
2) Paul imanlarına görə təqib edilən imanlıları ruhlandırmaq istəyirdi.
3) Paul onlara müqəddəs həyat sürməli olduqlarını xatırlatmaq istəyirdi.
4) Paul, öləndə nə baş verdiyini və İsa təkrar gələndə nə olacağını dərk etmələrini istəyirdi.
3 – 1) Bu mətndə Allah (Ata, Oğul və Müqəddəs Ruh) haqqında nə deyilir?
2) Bu mətndə insanlar haqqında nə deyilir?
3) Bu mətndə bizim üçün bir əmr, bir xəbərdarlıq və ya bir nümunə varmı?
4) Allah bu mətndə bizə nə öyrədir?
5) Bunu kiminlə paylaşa bilərəm?
4 – Allah onları sevir (ayə 4).
Allah onları seçdi (ayə 4).
Həvarilər Müqəddəs Ruhun rəhbərliyi və qüdrəti ilə Salonikililərə Müjdəni çatdırdılar (ayə 5).
Müqəddəs Ruh, iztirablı anlarda bizə sevinc bəxş edir (ayə 6).
O, həqiqi və yaşayan Allahdır (ayə 9).
O, İsanı ölümdən diriltdi (ayə 10).
İsa təkrar gələcək (ayə 10).
İsa bizi Allahın qəzəbindən xilas edir (ayə 10).
5 – Biz onların imandan yaranan əməllərini, məhəbbətdən doğan zəhmətlərini və Rəbb İsa Məsihə bağladıqları ümidin verdiyi dözüm haqqında öyrənirik (ayə 3).
Onlar Paul, Sila və Timoteydən nümunə götürdükləri kimi, indi özləri digər imanlılar üçün nümunə oldular (ayə 1, 6 və 7).
Hər kəs onların imanı haqqında eşitdi, çünki onlar çox əziyyət çəkmələrinə baxmayaraq, Müjdəni sevinclə qəbul etdilər (ayə 8).
Bir vaxtlar bütlərə qulluq edirdilər, indi isə var olan həqiqi Allaha qulluq edirlər (ayə 9).
6 – Paul həmişə bu imanlılar üçün Allaha şükür edir (ayə 9).
O, imanlılar üçün daim dua edir (ayə 2).
İmanlılar gözəl nümunə idilər: onların əməlləri imandan yaranırdı, zəhmətləri məhəbbətdən irəli gəlirdi və dözümlülükləri Rəbbimiz İsa Məsihə olan ümiddən qaynaqlanırdı (ayə 3).
Onlar əziyyətlərdə sevinirdilər. Digər imanlılar üçün gözəl nümunə idilər (ayə 6).
Onlar üçün ən vacib şey o idi ki, İsa yaxında təkrar gələcək və dünyanı mühakimə edəcək (ayə 10).
7 – Qoy hər kəs öz cavabını versin.
8 – Bunu paylaşmaq istədiyiniz bir adamın adını deyin. Sonra bunu yaxşı bacarmaq üçün bir-birinizə dua edin.

## 36-cı dərs:

# İsanın ikinci gəlişi və qiyamət günü



## İsanın ikinci gəlişi

Əhdi-Cədidin bir çox yerində Rəbb İsanın ikinci gəlişi haqqında yazılmışdır. O bizi səmavi vətənimizə aparacaq! O zaman Allah, İbrahimə verdiyi bütün vədləri yerinə yetirəcək!

Yaradılış 12:1–7-də Allah İbrahimə hansı vədləri verdi? [1]

Allahın **xalqı**, təsəvvürümüzə gəlməyəcək qədər çox **xeyir-dua** alacağımız gözəl yeni bir **dünyada** yaşayacaq!

İsanın ikinci gəlişindən əvvəl nə baş verəcəyini öyrənmək üçün **Matta 24:1–44**-ü oxuyaq.

Ayə 6–8-də İsa nə dedi? [2]

Ayə 14-də İsa nə dedi? [3]

### *Əlavə*

**Matta 24:15–21:** *Beləliklə, Daniel peyğəmbərin bəhs etdiyi viranəlik gətirən iyrənc şeyin Müqəddəs məkanda qoyulduğunu gördüyünüz zaman...*

İsa burada Danielin bir peyğəmbərliyindən danışır. O peyğəmbərliyə görə, məbəd dəhşətli qurbanlar üçün istifadə ediləcək və sonra dünya mühakimə ediləcək. (Daniel 9:27; 11:31 və 12:11)

Eramızdan əvvəl 167-ci ildə yunan hökmdarı Antiox Epifan, Yerusəlimdəki məbəddə yalançı bir allaha natəmiz qurbanlar kəsdi. Sonra yəhudilər ona qarşı üsyan etdilər.

Lakin İsa, iki hadisəni qabaqcadan xəbər vermək üçün bu ifadəni işlədir:

1. Məbəd dağıdılacaq. Eramızın 70-ci ilində baş vermiş bu hadisə, yəhudilər üçün ən dəhşətli fəlakət idi. Amma biz bilirik ki, Allahın xalqının bağışlanması üçün artıq Məbədə və ya qurban gətirməyə ehtiyac yox idi. Nə üçün? [4]

2. Eyni zamanda İsa burada ikinci gəlişindən də bəhs edir. Onun ikinci gəlişindən əvvəl Allahın xalqına qarşı dəhşətli bir müqavimət olacaq.

15–20-ci ayələrdə İsa hansı 2 hadisədən bəhs edir? [5]

İsanın ikinci gəlişindən əvvəl vəziyyət necə olacaq (**ayə 21**)? [6]

İsa Yeşayadan bir ayə sitat gətirir. O nə deyir (**ayə 29–30**)? [7]

İsanın nə vaxt təkrar gələcəyini kim biləcək (**ayə 30**)? [8]

Dünyada zəlzələ kimi fəlakətlər baş verəndə, bir çox insanlar bunu televizorda və ya telefonda xəbərlərə baxaraq xəbər tuturlar. Amma bəzilərinin bundan xəbəri yoxdur. İsa gələndə dünyadakı bütün insanlar dərhal xəbər tutacaqlar. Yatanlar oyanacaq. Bundan xəbəri olmayan olmayacaq.

İsa mələklərini nə etməyə göndərəcək (**ayə 31**)? [9]

Nə məhv olacaq və nə əbədiyyən qalacaq (**ayə 35**)? [10]

İsanın nə vaxt təkrar gələcəyini kim bilir (**ayə 36**)? [11]

İsa yer üzündə insan olaraq yaşayanda hər şeyi bilmirdi və ikinci gəlişinin vaxtını da bilmirdi. Əgər insanlar İsanın ikinci gəlişinin tarixini bildiklərini söyləyirlərsə, onlara inanmamalıyıq. Əsrlər boyu İsanın ikinci gəlişinin tarixini qabaqcadan deməyə çalışan insanlar olub. Heç kim doğru deməyib! Bizim kamil səmavi Atamız olan Allah, bunun nə vaxt olacağını bilir və biz Ona güvənməliyik!

Nuhun zamanında, Nuh insanlara daşqın haqqında danışanda onlar nə etdilər (**ayə 37–39**)? [12]

Sonra onların başına nə gəldi? [13]

İndiki insanlar Nuhun dövründəki insanlara necə bənzəyirlər? [14]

Bu ayələr bizə İsanın gəlişi haqqında nə deyir (**ayə 42–43**)? [15]

Biz nə etməliyik (**ayə 44**)? [16]

# Qiyamət günü

Qiyamət gününü başa düşə bilməyimiz üçün İsa bizə bu məsəli çəkdi.

**Matta 25:31–46**-nı oxuyun.

İsa bütün insanları iki qrupa ayıracaq. Bu 2 qrupu hansı heyvanlara bənzədir? [17]

İsa hansı qrupu öz Padşahlığına dəvət edəcək? [18]

Qoyunlar kimlərdir? [19]

İsa bizi necə mühakimə edəcək? [20]

Amma... Yəhya 3:16-ya əsasən, kimlər əbədi həyata malik olacaqlar? [21]

Onlar bir-birinə ziddirlərmi? [22]

- Hamımız günah işlətmişik. Lakin Allahın lütfü ilə Məsih bizim günahlarımızın əvəzini ödədi və biz bağışlandıq. Beləcə biz Allah qarşısında saleh sayıldıq! (Romalılara 3:23 və 24)
- İsanın bənzətməsindəki sözləri ilə desək, biz hamımız "keçi"yik, amma Allah bizi bağışlayıb dəyişdirdi, "quzu"ya çevirdi! Nə gözəl Allahımız var!
- İsa bizi xilas edəndə, ürəklərimizi dəyişir, belə ki biz Onun xalqına xidmət etməyi sevək.
- Bizim əməllərimiz, İsaya həqiqətən inanıb-inanmadığımızı, quzu yoxsa keçi olduğumuzu göstərir.

Əməllərimiz bizim haqqımızda nə bildirir? Biz keçiyik, yoxsa quzu?

Matta və Yəhya, bizim əməllərimizin imanımızı sübut etdiyini dərk etmişdilər. Hər ikisi də yazıb ki, İsaya iman edən hər kəs yaxşı işlər görməlidir. Yəhya təkcə 3:16-nı deyil, həm də **Yəhya 5:28–29**-u yazmışdır. Bu ayələrə əsasən, yaxşılıq edənlərin aqibəti necə olacaq? [23]

Pislik edənlərin aqibəti necə olacaq? [24]

## Cənnət və cəhənnəm

Matta 25:31–46-da iki fərqli yerin olduğunu görürük: cənnət və cəhənnəm.

34-cü ayədə İsa, Onun üçün yaşayanlara nə deyəcək? [25]

Bunlar, eşidə biləcəyimiz ən gözəl sözlərdir!

Allah Öz Padşahlığını bizim üçün hazırladı ki, biz Ondan əbədi olaraq həzz ala bilək! (Vəhy 21:3–4).

Biz İsaya inanır və itaət ediriksə, Allah bizə bol-bol xeyir-dua verir!

41-ci ayədə İsa, özləri üçün yaşayan və Allaha itaətsiz olanlara nə deyəcək? [26]

Bunlar bizim eşidə biləcəyimiz ən qorxunc sözlərdir. Allah, Ona itaət etmək istəməyənləri cəzalandıracaq.

Belə insanlar, ədəbi olaraq Allahdan ayrı olub Şeytanla və şər ruhlarla birlikdə yaşayacaqlar. Bu, əbədi ölümdür.

## Cəsarət

**1 Yəhya 4:15–18**-i oxuyun.

Qiyamət gününü cəsarətlə gözləməkdə bizə kim kömək edir? [27]

Allahın bizdə yaşadığının ən böyük sübutu nədir (**ayə 16–17**)? [28]

### Həyatımızda Allahın bizdə yaşadığına dair hansı sübutlar var?

## Biz İsanı nə qədər sevirik və Ona nə qədər itaət etmək istəyirik?

### Özümüzü sınamaq üçün suallar

**Evdə:**
Ailəmizdə bir-birimizi sevmək və ruhlandırmaq üçün əlimizdən gələni edirikmi?
Bizə xidmət edənlərə (yemək bişirən, təmizlik edən, paltarlarımızı yuyan və s.) təşəkkür edirikmi?
Kiminsə köməyə ehtiyacı olduğunu görəndə tez kömək edirikmi?

**İşdə:**
Necə işləyirik? İşimizi narazılıqla yaxud səhlənkarlıqla görürükmü? Mümkün qədər az şeyi, mümkün qədər tez edirikmi? Yoxsa həm İsanı, həm də müdirimizi razı salmaq üçün əlimizdən gələni edib sevinclə çalışırıq?

**Toplantılarda:**
Rəhbərləri təşviq edir, onlar üçün dua edir və onlara hörmət edirikmi?
Toplantının sonunda başqalarına xidmət etməyə və yeri təmizləməyə kömək edirikmi?
Kiminsə köməyə ehtiyacı olanda kömək etməkdən çəkinirik, yoxsa həvəs göstərmirik? Yaxud "bunlar mənim problemlərim deyil, qoy öz problemlərini özləri həll etsinlər" deyirik?

**Dostluqlarda**
Başqa insanlar haqqında necə danışırıq? Onlar haqqında yaxşı yoxsa pis sözlər deyirik? Məsihçilərin qaydası belə olmalıdır: əgər adamın üzünə bunu deməyəcəksənsə, onda heç demə.
Bizi incidənlər, xoşumuza gəlməyən sözlər deyənlər üçün dua edirikmi?
Əgər bir nəfərlə mübahisə ediriksə, onunla barışmaq üçün əlimizdən gələni edirikmi?

**Hansı sahələrdə dəyişmək üçün İsadan kömək istəməlisən?**

## Çağırış

İsanın ikinci gəlişinə hazır olmaq nə deməkdir? İsanın ikinci gəlişinə necə hazır ola bilərik? [29]

### Bu dərsdə Allah sizi necə dəyişilməyə çağırır?

# Cavablar

1 – Xalq, torpaq və xeyir-dua.
2 – Problemlərin həmişə olacağını və bu dünyanın sonunun tezliklə gələcəyini.
3 – Müjdənin bütün dünyada vəz ediləcəyini və sonra Özünün təkrar gələcəyini.
4 – Çünki İsanın ölümü bizim günahlarımız üçün birdəfəlik qurban idi!
5 – Məbəd dağıdılacaq və İsanın gəlişindən əvvəl Allahın xalqına qarşı dəhşətli müqavimət olacaq.
6 – Çox çətin günlər olacaq.
7 – Göydə dəhşətli hadisələr baş verəndə, bunlar İsanın ikinci gəlişinə işarə olacaq.
8 – Hər kəs!
9 – Bütün xalqını səmavi vətəninə aparmaq üçün bir yerə toplamağa.
10 – Maddi şeylər əbədi deyil, amma İsanın sözləri əbədidir! İsanın sözləri əbədi olaraq doğrudur və heç vaxt unudulmayacaq.
11 – Yalnız Allah.
12 – Onlar əvvəlki kimi yaşamağa davam etdilər. Kefləri istədiyi kimi yaşadılar. Allaha itaət etmədilər. Elə bilirdilər ki, həyat həmişə belə olacaq.
13 – Allah onları məhkum etdi və onlar daşqında öldülər.
14 – İnsanlar əvvəlki kimi yaşamağa davam edirlər. Kefləri istədiyi kimi yaşayırlar. Allaha qulaq asmırlar. Elə bilirlər ki, həyat həmişə belə olacaq.
15 – İsanın gəlişi ani və gözlənilməz olacaq.
16 – İsanın gəlişinə hazır olmalıyıq.
17 – Qoyunlara və keçilərə.
18 – Qoyunları.
19 – Yaxşılıq edənlər.
20 – İsa bizi etdiyimiz əməllərə görə mühakimə edəcək.
21 – İsaya iman edən hər kəs.
22 – XEYR!
23 – Onlar əbədi həyata malik olacaqlar.
24 – Onlar məhkum olunacaqlar.
25 – *Ey sizlər, Atamın xeyir-dua verdiyi adamlar! Gəlin, dünya yaranandan bəri sizin üçün hazırlanmış olan Padşahlığı irs alın.*
26 – *Ey lənətə gəlmişlər, çəkilin önümdən! İblislə onun mələklərinə hazırlanmış olan əbədi oda yollanın!*
27 – İsanın Allahın Oğlu olduğunu təsdiq ediriksə, Ona inanırıqsa, Allah bizdə yaşayar və qiyamət gününü gözləmək üçün bizə cəsarət verir.
28 – Allaha və bir-birimizə olan məhəbbətimiz.
29 – Hər gün elə yaşamalıyıq sanki sabah İsa gələcək.
Tövbə edə bilmək üçün Allahdan günahlarımızı bizə göstərməsini diləməliyik.
Bağışlamalı olduğumuz bir nəfərin olub-olmadığını Allahdan bizə göstərməsini diləməliyik.
Dostlarımıza və qohumlarımıza İsa haqqında danışmalıyıq.

37-ci dərs:

# Vəhy Kitabı (1-ci hissə)



Biz Vəhy Kitabını iki hissədə öyrənəcəyik. Birinci hissədə bu kitabdakı bəzi fikirlərə baxacağıq, ikinci hissədə isə bu kitabdan bir parça öyrənəcəyik.

## Ruhlandırma

Vəhy Kitabının yazıldığı dövrdə bir çox imanlılar İsaya iman etdiklərinə görə öldürülürdülər. Roma imperatoru xalqın ona ibadət etməsini tələb edirdi və imanlılar bunu etmirdi.

Vəhy Kitabı, imanlıları ruhlandırmaq və aşağıdakı həqiqətləri yadlarına salmaq üçün yazılmışdır:

- İsa dünyanı idarə edən əsl Padşahdır!
- Şeytan güclü və yaman ola bilər, amma İsa ölümdən diriləndə onu məğlub etdi.
- İsa yaxında dünyanı mühakimə etməyə gələcək və Şeytanla birlikdə İsanın bütün düşmənlərini cəhənnəmə göndərəcək!
- O zaman İsaya iman edən hər bir kəs gözəl Yeni Yerdə əbədi yaşayacaq!

Yəhyanın Vəhy Kitabını ünvanladığı insanlara nə üçün ruhlandırma lazım idi? [1]

Allah bu kitabda imanlılara nələri xatırlatmaq istəyirdi? [2]

1.

2.

3.

4.

Bizə nə vaxt ruhlandırma lazımdır? [3]

Allah bu kitabda bizə nələri xatırlatmaq istəyirdi? [4]

# Görüntü

Vəhy Kitabı, Müqəddəs Kitabın içindəki digər kitablardan çox fərqlidir. Vəhy, Allahın Yəhyaya verdiyi görüntüdən ibarətdir. Yəhya görüntüdə qəribə şeyləri görür və eşidir və bunların hamısı müəyyən bir məna daşıyan simvollardır.

Bunlar tarix deyil. Həvarilərin İşləri kimi deyil. Qəribə bir şey oxuyanda özümüzə "Bu nə deməkdir?" sualını verməliyik.

Əhdi-Ətiqdə biz peyğəmbərlərin görüntü gördüyü yerlərə rast gəlirik. Onların görüntülərinin də müəyyən mənası var idi. Məsələn, Daniel, Yezekel və Zəkəriyyə öz görüntülərini təsvir etdilər.

Vəhy Kitabında tapdığımız bütün təsvirlər Əhdi-Ətiqdə də tapmaq olar. Əhdi-Ətiq bizə nəinki Vəhyi, Əhdi-Cədidin bütün kitablarını da anlamaqda kömək edir!

Vəhy Kitabı, Müqəddəs Kitabın içindəki digər kitablardan necə fərqlənir? [5]

Əhdi-Ətiqdə hansı peyğəmbərlər, xüsusi məna daşıyan hadisələr və şeylər ilə görüntü gördülər? [6]

Gəlin Vəhydəki simvollardan bəzilərinə baxaq:

# Əjdahalar və buynuzlar



**Vəhy 12:3**-də Yəhya hansı heyvanı gördü? [7]

Əjdaha necə bir heyvandır? [8]

Əjdaha nəyi təmsil edir? [9]

Onun neçə buynuzu var? [10]

Əhdi-Ətiqdə 10 buynuzlu qorxunc heyvanı tapdığımız bir yerə baxaq. **Daniel 7:7**-də Daniel nə gördü? [11]

**Daniel 7:24** bu heyvanın nəyi təmsil etdiyini izah edir.

On buynuz nəyi təmsil edir? [12]

Bütün siyasi şər qüvvələrin arxasında Şeytan dayanır. Ağlınıza hansı nümunələr gəlir? [13]



## Rəqəmlər

Vəhy Kitabında xüsusi mənası olan bir çox rəqəm görürük. Bunlar da həqiqi deyil, simvolik rəqəmlərdir.

Vəhy Kitabında rast gəlinən bəzi rəqəmlərə nəzər salaq.

### Yeddi



**Yaradılış 2:2**-ni oxuyun. Sizcə, yeddi rəqəmi nə deməkdir? [14]

**Yaradılış 1:11**-i oxuyun. İsa Yəhyaya nə əmr edir? [15]

Bu o deməkdir ki, Vəhy keçmişdə və hazırda bütün imanlılar cəmiyyətinə yazılmış bir məktub idi!

Bəzən bir az riyaziyyatla məşğul olmalıyıq!

**Vəhy 12:6**-nı oxuyun.  Qadın imanlılar cəmiyyətini təmsil edir.

Allah nə qədər vaxt ərzində onun qayğısına qalır? [16]

Bu, neçə aya bərabərdir? [17]

Bu, neçə ilə bərabərdir? [18]

Yeddi il əbədiyyət deməkdirsə, üç il yarım yeddi illik müddətin yarısı olduğuna görə o deməkdir ki, bizim bu səhradakı vaxtımız əbədi olmayacaq!

### Altı



Altı nə deməkdir? Yeddi ilə eyni mənaya gəlir? [19]

Altı, "yeddi deyil" mənasına gəlir. Qeyri-kamilliyin və buna görə də şərin rəqəmidir.

Şeytan Allahı təqlid etməyi sevir. Bəzən "yeddi" imiş kimi görünən bir şey əslində yeddi deyil, altı olur, amma biz elə bilirik ki, "yeddi"dir. Şeytan bizi aldatmağa çalışır ki, Allaha deyil, ona itaət edək.

Bir şeyin Allahdan olduğunu necə bilək? [20]

Yəhudilər bir şeyi vurğulamaq istəyəndə üç dəfə deyirdilər.

Seraflar, **Yeşaya 6:3**-də Allahı necə təsvir edirdilər? [21]

Onlar Allahın tamamilə müqəddəs olduğunu deyirdilər.

Əgər 7 kamilliyi təmsil edirsə və Allaha bir rəqəm verməli olsa idik, Ona 777 rəqəmini verərdik, çünki O, tamamilə mükəmməldir.

Halbuki Şeytan bizi aldatmağı sevir. O, heç vaxt yaxşı deyil. O, tamamilə şərdir. O, Allah kimi ola bilməz. Buna görə o, **Vəhy 13:18**-də hansı rəqəmi alır? [22]

Bu nə deməkdir? [23]

## On

Yəhya vaxt müdətlərindən bəhs etdikdə, on gün qısa müddəti, min il isə uzun müddəti təmsil edir.

Məsələn:



**Vəhy 2:10**-u oxuyun. Onların təqib olunması nə qədər sürəcək? [24]

Bu, qısa müddəti təmsil edir.

**Vəhy 20:1–6**-nı oxuyun. Şeytan nə qədər müddətə zəncirlənir? [25]

İmanlılar nə qədər müddət ərzində İsa ilə padşahlıq sürəcəklər? [26]

Min il uzun müddəti təmsil edir. Bu, İsanın birinci və ikinci gəlişləri arasındakı dövrdür (Onun dirilməsi ilə dünyanı mühakimə etməyə gəlməsi arasındakı dövr). Bu, hazırkı dövrdür! İsa hökm sürür və imanlılar cəmiyyətini qurur. Şeytan bağlıdır və istədiyi kimi zərər verə bilməz. Lakin qısa müddət sonra o, azad edilib dəhşətli əməllər edəcək və ondan sonra İsa gələcək.

On gün nəyi təmsil edir? [27]

Min il nəyi təmsil edir? [28]

Bu gün məsihçilərin razılaşa bilmədikləri mühüm mövzulardan biri, Vəhy 20:1–6-nın mənasıdır.

Yadda saxlayaq ki:

- Vəhy Kitabında bir çox simvol var və "1 000 il" onlardan biridir.
- Əgər bir şey vacibdirsə, Allah bu barədə bizə Müqəddəs Kitabda dəfələrlə deyir.
- Müqəddəs Kitabın aydın olan təlimlərinə diqqətimizi cəmləşdirməliyik: İsa bizim günahlarımız üçün öldü, ölülər arasından dirildi, dünyanın Hakimi olaraq gələcək və o zaman Onun üçün yaşamış olan hər kəs gözəl Cənnətdə əbədi olaraq Onunla birlikdə yaşayacaq.
- Müqəddəs Kitabda dünyanın sonu haqqında açıq-aydın və dəfələrlə deyilənlərə heç nə əlavə etməməyə çalışmalıyıq.
- Həmçinin bizimlə eyni fikirdə olmayanları da sevməliyik!

Digər məsihçilər bizimlə razılaşmayanda nələri yadda saxlamalıyıq? [29]

1.

2.

3.

4.

5.

## On iki



**Çıxış 24:4**-ü oxuyun. İsrailin neçə qəbiləsi var idi? [30]

**Luka 6:13**-ü oxuyun. İsa neçə həvari seçdi? [31]

Sizcə, on iki nə deməkdir? [32]

**Vəhy 21:12–14**-ü oxuyun. Bu, Yeni Yerusəlimin təsviridir.

Yeni Yerusəlimdə neçə darvaza var? [33]

Orada neçə mələk var? [34]

Orada neçə təməl var? [35]

Bu, mükəmməl təhlükəsiz şəhərdir!

Bir az daha riyaziyyat vaxtı!

12 x 12 nəyə bərabərdir? [36]

144 x 1 000 nəyə bərabərdir? [37]

**Vəhy 7:4**-ü oxuyun. İsa ilə birlikdə cənnətdə neçə nəfər olacaq? [38]

Bu, imanlıların tam sayı ("12") vur imanlıların tam sayı ("12") vur çox böyük, sayılmayacaq qədər böyük bir say (1 000). 12 x 12 x 1 000 = 144 000.

Bəs 144 000 nə deməkdir? [39]

Bütün imanlılar üçün kifayət qədər yer var! Sadəcə az sayda seçilmiş imanlılar üçün yer var deyənlərə inanmayın.

Vəhy Kitabındakı bütün rəqəmlər simvolikdir və həqiqi mənada qəbul edilməməlidir. Allahın bu rəqəmlər vasitəsilə bizə nə demək istədiyini düşünməliyik.

Buna əsasən, Yəhya Vəhy Kitabını nə üçün yazdı? [40]

## Əzbərlənəcək ayə



Bu, İsanın imanlılar cəmiyyətinə verdiyi gözəl bir vəd, Öz xalqına dediyi bir söz-dür. O bizim yanımızda dayanır! Bizi Özü ilə yaxın ünsiyyət qurmağa dəvət edir!

Vəhy 3:20: **Bax qapının önündə durub onu döyürəm; kim səsimi eşidib qapını açsa, onun yanına gələcəyəm və Mən onunla, o da Mənimlə birgə şam edəcəyik.**

## *Əlavə:* Rəqəmlər testi

7 rəqəmi nəyi ifadə edir? [41]

6 rəqəmi nəyi ifadə edir? [42]

10 gün nəyi ifadə edir? [43]

12 rəqəmi nəyi ifadə edir? [44]



**Təqib olunan bir adamı necə ruhlandıra bilərsiniz?**

**Vəhy Kitabından hansı fikirləri onunla bölüşə bilərsiniz?**

# Cavablar

1 – Çünki bir çox imanlılar İsaya olan imanları uğrunda ölürdülər.
2 – 1) İsa dünyanı idarə edən əsl Padşahdır!
2) Şeytan güclü və yaman ola bilər, amma İsa ölümdən diriləndə Şeytanı məğlub etdi.
3) İsa yaxında dünyanı mühakimə etməyə gələcək və Şeytanla birlikdə İsanın bütün düşmənlərini cəhənnəmə göndərəcək!
4) O zaman İsaya iman edən hər bir kəs gözəl Yeni Yerdə əbədi yaşayacaq!
3 – Hər gün!
4 – İsa dünyanı idarə edən əsl Padşahdır!
Şeytan güclü və yaman ola bilər, amma İsa ölümdən diriləndə Şeytanı məğlub etdi.
İsa yaxında dünyanı mühakimə etməyə gələcək və Şeytanla birlikdə İsanın bütün düşmənlərini cəhənnəmə göndərəcək!
O zaman İsaya iman edən hər bir kəs gözəl Yeni Yerdə əbədi yaşayacaq!
5 – Bu, tarix deyil, Allahın Yəhyaya verdiyi görüntüdür.
6 – Daniel, Yezekel və Zəkəriyyə.
7 – Yəhya qırmızı bir əjdaha gördü.
8 – Pis və təhlükəli.
9 – Şeytanı.
10 – On buynuzu.
11 – On buynuzlu dəhşətli bir heyvan gördü.

12 – 10 padşahı.
13 – Hitler, Stalin, İŞİD, Taliban.
14 – Allah dünyanı altı gündə yaratdı və yeddinci gündə istirahət etdi. Yeddi “mükəmməl” və ya “tam” mənasını verir. Yeddi, Müqəddəs Kitabda mükəmməllik rəqəmidir.
15 – Yeddi imanlılar cəmiyyətinə məktub yazmasını.
16 – 1 260 gün.
17 – 42 aya (1 260, 30-a bölündükdə = 42).
18 – Üç il yarıma (12, 42-yə bölündükdə = 3,5).
19 – Xeyr!
20 – Allahın Kəlamını nə qədər çox oxusaq, həqiqəti yalandan bir o qədər yaxşı ayırd edə bilərik.
21 – Müqəddəsdir, müqəddəsdir, müqəddəsdir.
22 – 666.
23 – O, tamamilə və son dərəcə şərdir.
24 – 10 gün.
25 – 1 000 il müddətinə.
26 – 1 000 il.
27 – Qısa müddəti.
28 – Çox uzun müddəti.
29 – 1) Vəhy Kitabında bir çox simvol var və “1 000 il” onlardan biridir.
2) Əgər bir şey vacibdirsə, Allah bu barədə bizə Müqəddəs Kitabda dəfələrlə deyir.
3) Müqəddəs Kitabın aydın olan təlimlərinə diqqətimizi cəmləşdirməliyik: İsa bizim günahlarımız üçün öldü, ölülər arasından dirildi, dünyanın Hakimi olaraq gələcək və o zaman Onun üçün yaşamış olan hər kəs gözəl Cənnətdə əbədi olaraq Onunla birlikdə yaşayacaq.
4) Müqəddəs Kitabda dünyanın sonu haqqında açıq-aydın və dəfələrlə deyilənlərə heç nə əlavə etməməyə çalışmalıyıq.
5) Həmçinin bizimlə eyni fikirdə olmayanları da sevməliyik!
30 – 12.
31 – 12.
32 – Tam miqdar və ya bütövlük. Heç biri əskiklik yoxdur.
33 – 12.
34 – 12.
35 – 12.
36 – 144.
37 – 144 000.
38 – 144 000.
39 – Bu rəqəm bütün imanlıların sayının simvoludur. Bu, indiyə qədər olmuş, hal-hazırda olan və bizdən sonra gələcək olan bütün imanlılar mənasına gəlir.
40 – Şiddətli təqibə məruz qalan imanlılar cəmiyyətini ruhlandırmaq üçün.
41 – Mükəmməlliyi və ya tamlığı.
42 – Şəri.
43 – Qısa müddəti.
44 – Tam məbləği və ya tamlığı.

# 38-ci dərs:

# **Vəhy Kitabı** (2-ci hissə)



Gəlin Vəhy Kitabının 1-ci fəslindən bir parçanı araşdıraq.

**Vəhy 1:12–18**-i oxuyun.

**Vəhy 1:12:** Yeddi çıraqdan nəyi təmsil edir (bax: ayə 20)? [1]

**Yəhya 8:12**-də İsa Özünü necə adlandırdı? [2]

Nur nə edir? [3]

İsraillilər səhrada haraya gedəcəklərini necə bilirdilər (Çıxış 13:21)? [4]

**Zəbur 27:1**-də Allah necə təsvir olunur? [5]

**Zəbur 119:105**-də Allahın Kəlamı necə təsvir olunur? [6]

Bəs İsa "Mən dünyanın nuruyam" dedikdə nəyi nəzərdə tuturdu? [7]

Əgər cəmiyyətlər çıraqdandırsa, onların vəzifəsi nədir? [8]

**Yəhya 1:13**-də İsa haradadır? [9]

Bu nə deməkdir? [10]

İsa nə geyinmişdi? [11]

**Çıxış 28:4**-də uzun paltarı və qurşağı kim geyinirdi? [12]

**Vəhy 1:14: Onun saçı haqqında nə yazılıb?** [13]

Ağ saç nəyi təmsil edir? [14]

Daniel 7:9-dakı görüntüdə Daniel peyğəmbər Allahı görəndə, Onun saçı da ağ idi.

Bu, Allahın hansı xüsusiyyətini təsvir edir? [15]

**Vəhy 1:14**-də Onun gözləri haqqında nə yazılıb? [16]

Sizcə, bu nə deməkdir? [17]

**Vəhy 1:15:** Onun ayaqları haqqında nə yazılıb? [18]

Tunc sərt, parlaq metaldır. Tuncu cilalayıb güzgü kimi istifadə edirdilər. Tunc nəyi təmsil edir? [19]

Daniel həmçinin bir görüntüdə gözləri yanar məşəllər tək, qolları və ayaqları cilalanmış tunc kimi olan adam gördü (Daniel 10:6).

**Vəhy 1:15**-də İsanın səsi haqqında nə yazılıb? [20]

Sizcə, bu nə deməkdir? [21]

Yezekel 43:2-dəki görüntüdə Yezekel peyğəmbərin eşitdiyi səs də budur.

**Vəhy 1:16:** İsa, sağ əlində nə tutmuşdu? [22]

Bu nə deməkdir? **(ayə 20)** [23]

İsa bütün mələklər üzərində tam səlahiyyətə malikdir!

Mələklər nə edir? **İbranilərə 1:14**-ü oxuyun. [24]

İsanın ağzından nə çıxır? [25]

Bu nə deməkdir? **Yeşaya 11:4**-ü oxuyun (Məsih haqqında peyğəmbərlik). [26]

Onun üzü haqqında nə yazılıb? [27]

Müjdələrdə İsanın üzü nə vaxt parladı? **Matta 17:1–2**-ni oxuyun. [28]

Bu nəyi göstərir? [29]

**Vəhy 1:17:** İsa Yəhyaya nə deyir? [30]

Müqəddəs Kitabda "Qorxma!" sözünə neçə dəfə rast gəlinir? [31]

365 dəfə, yəni ilin hər günü üçün bir dəfə! Allah bizə hər gün xatırlatmaq istəyir ki, biz heç nədən qorxmamalıyıq. Biz ancaq Allahdan qorxmalıyıq!

**Vəhy 1:17–18:** İsa daha nə söylədi? [32]

Bu nə deməkdir? [33]

## İsanı dostlarınıza necə təsvir edərdiniz?

## Bu sözlərdən istifadə edərək İsanı ucaldın.

# Cavablar

1 – Yeddi imanlılar cəmiyyətini.
2 – Dünyanın nuru.
3 – Nur bizə görmə imkanı verir!
4 – Allah, onların önündə — gündüz onlara yol göstərmək üçün bulud dirəyində, gecə isə onların yolunu nurlandırmaq üçün — od dirəyində gedirdi.
5 – *O, mənim nurum, qurtuluşumdur.*
6 – *Sözün addımıma çıraqdır, yollarıma işıqdır.*
7 – O, Allah olduğunu nəzərdə tuturdu. Bizə ürəklərimizin həqiqi halını və necə yaşamalı olduğumuzu yalnız Allah göstərə bilər.
8 – İsanın nurunun imanlılar cəmiyyəti vasitəsilə dünyaya yayılmasına imkan verməkdir! İnsanların bizim vasitəmizlə İsanın məhəbbətini və yaxşılığını görmələridir!
9 – O, çıraqdanlar arasındadır.
10 – İsa bizimlədir, bizi tərk etməyib!
11 – Əyninə uzun cübbə geymiş, sinəsinə qızıl qurşaq bağlamışdı.
12 – Bunlar baş kahin Harunun paltarları idi.
13 – Başındakı saç yun kimi və ya qar kimi ağ idi.
14 – Müdrikliyi təmsil edir. Məhz buna görə biz cəmiyyətin rəhbərlərini "ağsaqqal" adlandırırıq!
15 – Allah mükəmməl hikmət sahibidir.
16 – Onun gözləri yanan od kimi idi.
17 – Allah hər şeyi bilir. Allahdan heç bir şey gizlədə bilmərik!
18 – Ayaqları sobada parlayan tunc kimidir.
19 – İzzəti, gücü və əmin-amanlığı.
20 – Səsi güclü suların səsinə bənzəyirdi.
21 – İsa güc və səlahiyyətlə danışır.
22 – Yeddi ulduzu.
23 – Bunlar yeddi cəmiyyətin elçiləri və ya mələkləridir.
24 – Mələklər bizə hər zaman kömək edir, hətta biz onları görməsək də!
25 – İki ağızlı qılınc.
26 – İsa bütün dünyanı mühakimə edəcək!
27 – Onun üzü tam qüvvəsi ilə parlayan günəş kimi idi.
28 – İsa Peteri, Yaqubu və Yəhyanı dağa aparanda və onların önündə görünüşü dəyişəndə.
29 – İsanın izzətini göstərir.
30 – Qorxma!
31 – 365 dəfə.
32 – *Mən Birinci və Sonuncu Olanam. Mən diriyəm! Mən ölmüşdüm, amma budur, əbədi olaraq diriyəm! Ölümün və ölülər diyarının açarları Məndədir!*
33 – İsa Məsih əbədidir. O, canını qurban verdi və ölümdən dirildi. Beləliklə, Məsih ölümə qalib gəldi! Buna görə də bu dünyada başımıza nəyin gələcəyinə və həmçinin əbədi aqibətimizə O qərar verir.

39-cu dərs:

# Cənnət



## Allah verdiyi vədlərə əməl edir!

**Yaradılış 12:1–7**-də Allah İbrahimə hansı vədləri verdi? [1]

Allah İbrahimə verdiyi vədləri nə vaxt tamamilə yerinə yetirəcək? [2]

## Vəd olunmuş xalq, torpaq və xeyir-dua axırda necə olacaq?

Cənnətdə xalq kimlərdən ibarət olacaq? Kimlər əbədi olaraq Allahla yaşayacaqlar? **Vəhy 7:9**-u oxuyun. [3]

Torpaq necə olacaq? **Vəhy 22:1–5**-i oxuyun. [4]

Allah bizə necə xeyir-dua verəcək? **Vəhy 21:3**-ü oxuyun. [5]

Bu üç şey haqqında daha çox başa düşmək üçün **Vəhy 21:1–8**-i oxuyaq.

## Yeni Torpaq



Yaradılış 3:17–18-də Adəm və Həvva günah işlətdikdə yer üzünə nə oldu? [6]

**Vəhy 21:1:** Birinci göy və yer necə olacaq? [7]

**Vəhy 21:5:** Allah nəyi yenidən quracaq? [8]

Allah Öz xalqına yeni vətən vəd etmişdir. Bu vətən, vəd edilmiş torpaqdan və ya Eden bağından daha yaxşı olacaq! Yeni evimizi heç kim pozmayacaq. Orada nə Şeytan olacaq, nə də Allahın düşmənləri.

**1 Korinflilərə 15:42–44**-ü oxuyun. Bədənimiz necə olacaq? [9]

Allah bizə heç xəstələnməyən, günahsız, kamil bədən verəcək və bizi kamil edəcək!

# Xalq



**Vəhy 21:2**-ni oxuyun. İmanlılar cəmiyyəti hansı 3 ifadə ilə təsvir olunub? [10]

Bu ifadələr bizə nə öyrədir?

- **Müqəddəs şəhər** — İnsanların heç vaxt bir-biri ilə pis rəftar etmədikləri, bir-birindən incimədikləri bir şəhəri təsəvvür edə bilərsinizmi?

- **Yeni Yerusəlim** — Bu, ən gözəl bir şəhərin rəmzidir! Orada hər şey yenidir və heç vaxt köhnəlmir!

  Pislik, zibil, dağılmış evlər, səkilərdəki çuxurlar, dilənçilər, sizə yalan danışan reklamlar yoxdur!

  Hər şey gözəl, yeni, təmiz, sakit və yaxşı işləyəndir!

  Bu dünyada bizi qıcıqlandıran hər şey bizə buranın əsl evimiz olmadığını xatırlatmalıdır. Allah bizim üçün daha yaxşı bir ev hazırlayır!

- **Öz bəyi üçün bəzədilmiş gəlin** — İmanlılar ən gözəl və sevgi dolu insanlara çevriliblər!

İsa bizi necə gözəlləşdirir? **Efeslilərə 5:25–27**-ni oxuyun. [11]

Və əlbəttə ki, Müqəddəs Ruh həyatlarımızda işləyir və bizi daha çox İsaya bənzədir.

Bu təsvirlər, imanlılar cəmiyyətinin Allahın nəzərində çox qiymətli olduğunu anlamağımıza kömək edir! Buna görə də bir-birimizə dəyərli bacı-qardaş kimi davranmalıyıq. İmanlılar cəmiyyətinin hər bir üzvü dəyərlidir!

Allah bizi İsaya daha çox bənzətmək üçün hər birimizin daxilində işləyir, lakin Yeni Yerusəlimə gəlib çıxana kimi səbirli olmalıyıq və bir-birimizə bağışlamalıyq! Cənnətə gəlib çıxmaq üçün bir-birimizə əlimizdən gələn köməyi etməliyik!

# Xeyir-dua



**Vəhy 21:3**-ü oxuyun. Allah haradadır? [12]

O yeni vətəndə biz nəinki yeni insanlar olacağıq, həm də Allahla yeni dostluğumuz olacaq!

Əgər biz İsaya inanırıqsa, Allahla artıq dost olmuşuq! Amma Cənnətdə bu dostluq daha da artacaq! Bu, heyrətamiz olacaq!

**Vəhy 21:4**-ü oxuyun. Allah bizə nə edəcək? [13]

Yeni Yerusəlimdə nə olmayacaq? [14]

**Yeşaya 35:10**-u oxuyun. İnsanlar Yeni Yerusəlimdə özlərini necə hiss edəcəklər? [15]

**Vəhy 21:6**-nı oxuyun. İsa Özünü necə təsvir edir? [16]

Bu nə deməkdir? [17]

İsa bizə nə verir? [18]

İsa həyat suyunu kimə verəcək? [19]

Susuz olmaq nə deməkdir? [20]

Həyat suyundan içmək nə deməkdir? Yəhya 7:37–39-u oxuyun. [21]

Hər gün həyat suyundan içirsinizmi?

# İndi və dünyanın sonu arasında

**Vəhy 21:7**-ni oxuyun. “Qalib gələnlər” nə deməkdir? [22]

İsanın ardınca getmək nə vaxt çətin olur? [23]

Mükafatımız nə olacaq? [24]

Yeni evimizdə həyatımız, təsəvvür etdiyimizdən qat-qat daha yaxşı olacaq!

**Vəhy 21:8**-i oxuyun. Bütün bu pis insanların başına nə gələcək? [25]

## Çağırış

Bu ayənin başqa insanlardan, pis olanlardan bəhs etdiyini düşünmək çox asandır. Amma...

- Biz də bəzən İsanın ardınca getməkdən qorxuruqmu?
- Bəzən Ona xəyanət edirikmi?
- Bəzən əxlaqsız oluruqmu (düşüncələrimizdə belə — Matta 5:27–29)?
- Bəzən qatil oluruqmu (düşüncələrimizdə belə — Matta 5:21–22)?
- Bəzən bütpərəst oluruqmu? Ən çox sevdiyimiz şey bizim bütümüzdür.



**Qanunun Təkrarı 6:5**-i oxuyun. Allahı nə qədər sevməliyik? [26]

Allah, Onu dünyada hər şeydən çox sevməyimizi istəyir!

Ancaq Cənnətə gəlib çıxana kimi biz hamımız Allahın ümidlərini doğrultmayan hərəkətlərə yol verəcəyik.

Bəs Allah bizə günahımızı göstərəndə nə etməliyik? [27]

Allah bizi bağışlamağa hər zaman hazırdır!

### Allahın sizi İsaya daha çox bənzətməsinə imkan verirsiniz?

Bu gün Cənnət haqqında nə öyrəndik? [28]

### Allahın iradəsinə görə gözəl gəlin olmaq üçün çox çalışaq!

# Cavablar

1 – Xalq, torpaq və xeyir-dua.
2 – Müqəddəs Kitabda Allahın bu vədləri yerinə yetirməyə başladığını görürük. Lakin Allah bu vədləri yalnız Yeni Yerusəlim adlanan Cənnətdə tam yerinə yetirəcək.
3 – Allahın xalqı hər qəbilədən, hər millətdən, hər dildən olacaq!
4 – Ora ən gözəl ölkə olacaq: aclıq, günah, xəstəlik, ölüm, qaranlıq, yas, nalə və ağrı orada olmayacaq.
5 – Allah bizə təsəvvür etdiyimizdən daha çox xeyir-dua verəcək! Kainatın rəhmli, xeyirxah və sevgi dolu Yaradanı bizimlə yaşayacaq!
6 – Allah yer üzünü lənətlədi. Dünyamız pozulub və xaraba qalıb.
7 – Onlar tezliklə yox olacaqlar.
8 – Hər şeyi!
9 – Ölməz, şanlı, qüdrətli və ruhani!
10 – Müqəddəs şəhər, Yeni Yerusəlim və Öz bəyi üçün bəzədilmiş gəlin.
11 – O bizimlə Öz kəlamı vasitəsilə danışır ki, biz günahımızı başa düşək və dəyişək.
12 – O, xalqı ilə birlikdədir!
13 – Bütün göz yaşlarımızı siləcək. O, acılarımızı bilir və bizə təsəlli verir.
14 – Artıq ölüm, yas, nalə və ağrı olmayacaq.
15 – Təsəvvür etdiyimizdən daha xoşbəxt olacaqlar!
16 – Alfa və Omeqa, Başlanğıc və Son.
17 – Alfa və Omeqa, Yunan əlifbasının ilk və son hərfləri idi. (Əhdi-Cədidin orijinalı yunan dilində yazılmışdır.) Dünyanın yaradılışında İsa var idi və dünyanın sonunda O gələcək.
18 – Həyat suyunu.
19 – Susayanlara.
20 – Allaha nə qədər ehtiyacımız olduğunu və Allahsız yaşaya bilməyəcəyimizi bilmək deməkdir.
21 – Bu, İsadan bizi Müqəddəs Ruhu ilə doldurmasını istəmək deməkdir!
22 – Nə olursa-olsun İsanın ardınca gedən, sona qədər sadiq olan insanlar deməkdir.
23 – İnsanlar imanımıza görə bizimlə pis rəftar edəndə;
insanlar bizi təqib edəndə;
bu həyatda heç bir şeyin bizim üçün yaxşı getmədiyini, hər şeyin həmişə tərs getdiyini hiss edəndə.
24 – Biz hər şeyi miras alıb Allahın övladları olacağıq! Biz əbədi olaraq Allaha məxsus olacağıq!
25 – Onlar od və kükürdlə yanan gölə atılacaqlar.
26 – Bütün qəlbimizlə, bütün ruhumuzla və bütün qüvvətimizlə.
27 – Tövbə edib İsadan ürəyimizin dəyişməsini istəməliyik.
28 – İsanın ikinci gəlişində Allah İbrahimə verdiyi vədləri nəhayət yerinə yetirəcək.
Yeni vətəndə yeni insan olacağıq, kamil bədənimiz və Allah ilə yeni dostluğumuz olacaq!
İsa bizə oraya gedib çıxmaq üçün ehtiyacımız olan hər şeyi verir.
Biz axıra qədər Ona sadiq qalmalıyıq.

40-cı dərs:

# Səkkiz şəkildə Müqəddəs Kitab hekayəsi

Bu kursda öyrəndiklərimizi gözdən keçirmək üçün bu şəkillərdən son bir dəfə istifadə edərək Müqəddəs Kitabın əsas həqiqətlərini izah edəcəyik.




Birinci şəkil haqqında oxuyacağıq, sonra qrupda bir nəfər bu məlumatı oxumadan təkrar etməlidir. Ondan sonra ikinci şəkil haqqında oxuyacağıq və başqa biri onu təkrarlayacaq. Sona çatanda mətnə baxmadan 8 şəklin hamısını növbə ilə təkrarlayacağıq.

Siz 8 şəklin hamısını birlikdə danışarkən istənilən dərslərdən əlavə məlumatları verə bilərsiniz.




## 1. Yaradılış

Allahın yaratdığı hər şey yaxşı idi. Allah, Eden bağı adlanan gözəl bir bağda ilk insanlar olan Adəm və Həvva ilə vaxt keçirirdi.




## 2. Günahın başlanğıcı

Adəm və Həvva Allaha itaətsizlik etdilər və Şeytana itaət etdilər. Beləliklə, onlar Allahın xeyir-dualarını, o cümlədən əbədi həyatı itirdilər.

Şəkildəki ox, Allahın onları bağdan və Öz hüzurundan qovduğunu göstərir.

O vaxtdan bəri insanlar Allahla yenidən əlaqə qurmağı arzulayırlar.




## 3. Vədlər

Allah İbrahimə vəd etdi ki, Onun seçilmiş **xalqının** atası olacaq. Bir də xalq üçün Allahla birlikdə yaşayacaqları bir **torpağı** vəd etdi. Və eləcə də İbrahim vasitəsilə bütün insanlara **xeyir-dua** verəcəyini vəd etdi.

Şəkildəki tac onu göstərir ki, Allah onlara yaxşı padşah olacaq.

Göy qurşağı, Allahın vədinə sadiq qalacağını göstərir (Yaradılış 9:13–16). Ona həmişə etibar edə bilərsiniz!




## 4. Çıxış

Allahın xalqı yad bir ölkədə, Misirdə məskunlaşdı. Bir müddət sonra orada kölə oldu. (Şəkildəki piramidalar Misiri təmsil edir.)

Ox, Allahın Öz xalqını Misirdəki dəhşətli köləlikdən xilas etdiyini göstərir.




## 5. Torpaq

Allah Öz xalqını Vəd edilmiş torpağa gətirdi. Onlar bu torpaqlarda yaşayan və çox pis insanlar olan kənanlıları məğlub etdilər.

Allah Öz xalqına xeyir-dua verdi, lakin onlar başqa allahlara ibadət etdilər. Allahın onlara dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq bunu etdilər, buna görə axırda Allah onları sürgünə göndərdi. Sonra Allah onları yenə vəd edilmiş torpağa gətirdi, lakin onlar Onun qanunlarına hələ tabe olmadılar və günah işlətməyə davam etdilər.

Onları günahlarından xilas edəcək bir Xilaskara ehtiyacları var idi. Onları düzgün idarə edəcək bir Padşaha ehtiyacları var idi. Allah bir gün belə bir şəxsi — Məsihi göndərəcəyinə söz verdi.




## 6. İsa Məsih

Allah vədinə sadiq qaldı! Bu dünyaya gəlib dünyanın Xilaskarı oldu. “İsa” adı, “Allah xilas edir” mənasına gəlir. İsa, Allahın Məsihidir. Kamil bir israilli olaraq yaşadı, Allah ilə kamil münasibətdə oldu və çarmıxda öldü. İsanın ölümü, Allahın günahlarımızı bağışlaması üçün kamil bir qurban idi. Onun dirilişi, günaha, ölümə və Şeytana qalib gəldiyini göstərdi! Artıq insanlar yenidən Allahla dost ola bilərlər!




## 7. İsanın ikinci gəlişi

İsa indi göylərdədir.

Şəkildəki ox işarəsi, İsanın dünyanın sonunda bütün insanları mühakimə etmək üçün yer üzünə qayıdacağını göstərir.




# 8. Cənnət

Padşah İsa Öz xalqını səmavi vətənə gətirəcək. Biz yeni, əbədi vəd edilmiş torpaqda Allah ilə birlikdə yaşayacağıq!

Artıq günah, kədər və ölüm olmayacaq!

İsa Şeytanı cəhənnəmə göndərəcək.

Və Allahın xoşbəxt xalqı Cənnətdə Allahla birlikdə əbədi yaşayacaq!

## Bu həftə bu şəkilləri kimlərlə paylaşa bilərsiniz?

## Allahın "böyük hekayəsi" sizi bu gün necə ruhlandırır?

# Mündəricat


| | | |
|---|---|---|
| **1-ci dərs:** | Müqəddəs Kitabın içindəki kitablar | 5 |
| **2-ci dərs:** | Başlanğıcda | 10 |
| **3-cü dərs:** | Günah | 14 |
| **4-cü dərs:** | Allah şəri mühakimə edir | 19 |
| **5-ci dərs:** | İbrahimə verilən vəd | 23 |
| **6-cı dərs:** | Allahın vədləri İbrahimin nəslinə keçir | 27 |
| **7-ci dərs:** | Xilaskar Allah | 33 |
| **8-ci dərs:** | Allah qurban vasitəsilə xilas edir | 38 |
| **9-cu dərs:** | Dənizi keçmək | 42 |
| **10-cu dərs:** | Qurbanlar | 46 |
| **11-ci dərs:** | On Əmr | 49 |
| **12-ci dərs:** | Hüzur çadırı | 55 |
| **13-cü dərs:** | Səhrada həyat | 59 |
| **14-cü dərs:** | Səkkiz şəkildə Müqəddəs Kitab hekayəsi | 63 |
| **15-ci dərs:** | Yeşua | 65 |
| **16-cı dərs:** | Hakimlər | 70 |
| **17-ci dərs:** | Padşahlar | 76 |
| **18-ci dərs:** | Davud — ən böyük padşah | 82 |
| **19-cu dərs:** | Hikmət kitabları: Əyyub | 88 |

**20-ci dərs:** Hikmət kitabları: Zəbur . . . . . . . . . . . . . . . . . . . . 92

**21-ci dərs:** 91-ci məzmur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 96

**22-ci dərs:** Hikmət kitabları: Məsəllər,
Vaiz və Nəğmələr Nəğməsi . . . . . . . . . . . . . . . . . . . 101

**23-cü dərs:** İsrailin və Yəhudanın peyğəmbərləri . . . . . . . . . . . . . . . . . 106

**24-cü dərs:** Yeşaya Peyğəmbər . . . . . . . . . . . . . . . . . . . . . . . . 111

**25-ci dərs:** Nehemya . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 115

**26-cı dərs:** Səkkiz şəkildə Müqəddəs Kitab hekayəsi . . . . . . . . . . . . . 120

**27-ci dərs:** Allah dünyaya İnsan olaraq gəldi . . . . . . . . . . . . . . . . . 123

**28-ci dərs:** Məsih . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 126

**29-cu dərs:** Dəhşətli bir faciə yoxsa Allahın planının
yerinə yetməsi? . . . . . . . . . . . . . . . . . . . . . . . . 131

**30-cu dərs:** İsanın dirilməsi və qalxması . . . . . . . . . . . . . . . . . . . 135

**31-ci dərs:** Müqəddəs Ruh . . . . . . . . . . . . . . . . . . . . . . . . . 140

**32-ci dərs:** İmanlılar cəmiyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . 145

**33-cü dərs:** Xoş Xəbəri başqalarına yaymaq . . . . . . . . . . . . . . . . . 151

**34-cü dərs:** Əhdi-Cədiddəki Məktublar . . . . . . . . . . . . . . . . . . . . 155

**35-ci dərs:** 1 Saloniklilərə Məktub . . . . . . . . . . . . . . . . . . . . . . 160

**36-cı dərs:** İsanın ikinci gəlişi və qiyamət günü . . . . . . . . . . . . . . . 164

**37-ci dərs:** Vəhy Kitabı (1-ci hissə) . . . . . . . . . . . . . . . . . . . . . 170

**38-ci dərs:** Vəhy Kitabı (2-ci hissə) . . . . . . . . . . . . . . . . . . . . . 178

**39-cu dərs:** Cənnət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 182

**40-cı dərs:** Səkkiz şəkildə Müqəddəs Kitab hekayəsi . . . . . . . . . . . . . 187

40 dərsdən ibarət olan bu kursda Müqəddəs Kitab hekayəsi başdan sona qədər nəql edilir və hər bir hissəsinin İsa Məsihə necə aid olduğu göstərilir. Kurs ərzində bizim xalqımız üçün aktual və maraqlı olan mövzulara toxunulur. Hər dərsdə suallar verilir və dərsin sonunda həmin sualların cavabları verilir. Beləliklə, bu kurs, Müqəddəs Kitabı nə qədər çox və ya az bilməyindən asılı olmayaraq bütün məsihçilər üçün uyğundur. Kursun məqsədi, məsihçilərə Müqəddəs Kitabı oxumağı sevdirməkdir.

AZ

9 789952 851007